Xalqın qəzeti!
# Xalq qəzeti
№ 162 (30278) 3 avqust 2023-cü il, cümə axşamı
Gündəlik ictimai-siyasi nəşr
1919-cu ildən çıxır
Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti
veb-sayt: www.xalqqazeti.az

## Günün sözü

### Prezident İlham Əliyev:

**Bizim Ermənistana qarşı hər hansı bir ərazi iddiamız yoxdur. Biz onların da Azərbaycana qarşı ərazi iddialarının olmamasını istəyirik. İndi biz sülh istədiyimizi deyəndə, bu, ona görə deyil ki, biz zəifik və sülh axtarırıq. Xeyr, onlar bilirlər ki, biz xeyli güclüyük. Bu ona görədir ki, biz tarixin bu qara səhifəsinin bağlanmasını istəyirik. Biz nə bu gün, nə də gələcəkdə başqa bir müharibə istəmirik.**

# Sərhədlərinə nəzarət Azərbaycanın legitim hüququdur

## Prezident İlham Əliyevin "Euronews" televiziyasına müsahibəsi



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 22-də Şuşada "Euronews" televiziyasına müsahibə verib. Müsahibə avqustun 1-də "Euronews"da yayımlanıb. Müsahibənin geniş variantını təqdim edirik.**

**Müxbir:** Cənab Prezident Əliyev, bizi burada qəbul etdiyinizə görə Sizə çox minnətdarıq. Bu bölgə Cənubi Qafqazın yeni tarixində bəzi ən zorakı epizodların cərəyan etdiyi səhnə olub. Bununla belə, 2020-ci ildəki sülh razılaşmasından sonra gərginlik hələ də tam aradan qalxmayıb. Daimi düşmənçiliyi Siz nə ilə əlaqələndirirsiniz?

**Prezident İlham Əliyev:** Demək çətindir. Düşünürdüm ki, İkinci Qarabağ müharibəsindən sonra vəziyyət fərqli olacaq. Biz sülh üçün hazır idik və əslində bir az gözlədik ki, beynəlxalq iştirakçılar bizə müəyyən yeni təkliflər versinlər. Anladıq ki, bir növ boşluqdur. Heç kəs nə etməyi bilmirdi. 2020-ci il noyabrın 10-da Bəyanatı imzaladığımız zaman vəziyyət, əslində, dayanıqlı sülhü təmin etmirdi. O, sülh razılaşması deyildi, Bəyanat idi. Əslində, Ermənistanın kapitulyasiya aktı idi. Buna görə biz Ermənistanla münaqişənin yekun həll variantını tapmaq məqsədilə müəyyən təşəbbüslərlə çıxış etməyə başladıq və ictimaiyyət qarşısında bunu açıqladıq. Elan etdik ki, sülh sazişi imzalanmalıdır. Amma yenə boşluq yarandı. Sonra isə biz sülh sazişinin prinsiplərini müəyyən etdik. Onlar ərazi bütövlüyünün, suverenliyin və beynəlxalq sərhədlərin qarşılıqlı tanınması, sərhədlərin delimitasiyası, gücdən istifadə etməmə və ya güclə təhdid etməmə kimi beynəlxalq hüququn tam məlum prinsipləridir. Bu təklifi biz masa üzərinə qoyduq. Biz 30 illik işğaldan əziyyət çəkmiş və ədaləti güc hesabına bərpa etmiş ölkə olaraq yeni sülh prosesinin müəllifi olduq. Deməzdim ki, hər şey çox rəvan gedir. Amma biz hələ də nikbinik, çünki hazırda biz hər iki ölkənin xarici işlər nazirləri səviyyəsində çox fəal danışıqlar aparırıq.

*(ardı 2-ci səhifədə)*

# Ölkəmizin sülh gündəliyi: Dünyaya ədalət çağırışı



**Azərbaycan Prezidenti İlham Əliyev dünyanın nüfuzlu media orqanlarından sayılan "Euronews" telekanalına müsahibəsində bir sıra məqamlara toxundu. Bu yazıda daha çox dövlətimizin başçısının Ermənistanla sülh gündəliyi ilə bağlı söylədikləri üzərində dayanacağıq. Amma bilavasitə mövzuya keçməzdən öncə diqqəti bir məqama yönəltmək istərdik.**

Məlum olduğu kimi, cənab İlham Əliyev 44 günlük müharibə dönəmində də dünyanın tanınmış kütləvi informasiya vasitələrinə çoxsaylı müsahibələr vermişdi. Bu müsahibələr Ermənistanın, onun havadarlarının ölkəmizlə bağlı reallaşdırdıqları anti-təbliğatı alt-üst etmişdi. Ölkəmizin lideri, faktiki olaraq, müharibənin informasiya cəbhəsinin böyük bir səngərində təkbaşına mübarizə apararaq, beynəlxalq ictimai rəyin yanlış yönləndirilməsinin qarşısını almışdı. Azərbaycan Prezidentinin "Euronews"a bir neçə gün əvvəlki müsahibəsini də məhz bu baxımdan dəyərləndirmək mümkündür.

*(ardı 4-cü səhifədə)*

# Biz müharibə yox, sülh istəyirik



Səhifə ⇨ 10

# Xəzər sahillərindən Pamir zirvələrinə dostluq körpüsü



**Azərbaycan keçmiş sovet müttəfiqi və hazırda fəal əməkdaşlıq etdiyi dost Qırğızıstanla münasibətləri yüksələn xətlə inkişaf edir.**

Xatırladaq ki, Azərbaycan Respublikası ilə Qırğızıstan Respublikası arasında diplomatik münasibətlərin əsası 30 il əvvəl qoyulub. Bundan əlavə, 25 il əvvəl ölkələrimiz arasında dostluq və əməkdaşlığa dair müqavilə imzalanıb. Bütövlükdə isə, ötən müddətdə Azərbaycan və Qırğızıstan hökumətləri arasında 40-dək sənədə imza atılıb.

*(ardı 11-ci səhifədə)*

# İrəvanın bir yolu var: Reallıqla barışmalıdır

## *Mariya Zaxarova hansı həqiqətləri açıqladı?*

**Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarovanın keçirdiyi ənənəvi brifinqdə Azərbaycan – Ermənistan münasibətlərinin son durumuna münasibət baxımından ölkəsinin mövqeyini dörd vacib istiqamət üzrə izah edib.**



Birincisi, Rusiya XİN-in təmsilçisi Azərbaycanın, guya, Qarabağı blokadada saxlaması ilə bağlı Ermənistan hakimiyyətinin və ermənipərəst dairələrin qaldırdıqları məsələyə münasibətini açıqlayıb. Bildirib ki, Moskva tərəflərlə işləyir və ictimai müraciətlərin nəticə vermədiyi söylənildiyinə baxmayaraq, Laçın dəhlizinin təcili olaraq açılmasının və yerli əhalinin normal yaşayış şəraitinin təmin edilməsinin zəruriliyini bir daha təsdiqləyir. Ən əsası isə Zaxarovanın fikrincə, çox şey siyasi iradədən və kompromis addımlara hazır olmaqdan asılıdır və bu halda, gərginlik aradan qaldırıla bilər. Rusiya tərəflərlə mövcud istiqamətdə işləyir.

Qısaca bildirək ki, hazırda güzəştə getməli olan tərəf nə Ermənistandır, nə də Azərbaycan. Bakı otuz ilə yaxın müddətdə çox şeyi güzəştə gedib. İrəvan üçün güzəşt yox, razılaşmaq və reallıqlarla barışmaq məntiqi əsasdır. Ermənistanın siyasi dairələrinin bunu anlaması isə daha vacibdir. Yəni, İrəvanın nəyisə güzəştə getməsinə Bakının ehtiyacı əsla yoxdur.

İkincisi, Rusiya XİN-nin rəsmi nümayəndəsi Ermənistan baş naziri Nikol Paşinyanın Ermənistan – Azərbaycan münasibətlərinin normallaşması çərçivəsində Rusiyanın danışıqlardakı fəallığının azalması ilə bağlı fikirlərinə münasibət bildirib və deyib ki, Paşinyanın söylədikləri ilə razılaşmır.

Qeyd edək ki, Nikol bu qənaətini əsaslandırarkən, Moskvanın başının Ukraynada qarışdığını və Bakı – İrəvan münasibətlərinin tənzimləməsinə zəruri diqqəti ayıra bilmədiyini vurğulamışdı. Zaxarova isə Paşinyanın məntiqini "qaranlıq" adlandırıb: "Əlbəttə, məntiq qaranlıqdır. Adamda belə bir hiss yaranır ki, 2022-ci ilə qədər bu istiqamətdə Ermənistan rəhbərliyinin nöqteyi-nəzərindən hər şey "heç bir problem olmadan" olub, yoxsa nə?"

*(ardı 10-cu səhifədə)*

# Nasist canilər və Meşəli cinayəti

**İyulun 29-da Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçuları tərəfindən 1991-ci ilin dekabrın 22-də Xocalı rayonunun Meşəli kəndində azərbaycanlılara qarşı soyqırımı törətməkdə və onları deportasiya etməkdə ittiham olunan Vaqif Xaçatryanın saxlanılması illərin sınağından çıxmış bir sadə həqiqəti yenidən təsdiqlədi.**

Bu da törədilən cinayətin cəzasız qalmayacağı həqiqətidir. Bir daha sübut edildi ki, üstündən neçə il keçməsindən asılı olmayaraq, ədalət gec-tez öz yerini tapır.

*(ardı 13-cü səhifədə)*



# Qərbin Türkiyəyə ögey münasibəti



Səhifə ⇨ 14

# Trampa qarşı rəsmi ittihamlar

Səhifə ⇨ 14

# Özbəkistan Mədəniyyəti Günləri davam edir



Səhifə ⇨ 12

# Ələbaxımlığı dövlət siyasətinə çevirən İrəvanın "böyük ianə" planı



**Ermənistan parlamentinin sədri Alen Simonyan beynəlxalq parlament təşkilatlarının rəhbərlərinə, habelə digər dövlətlərin parlament sədrlərinə müraciət edib.**

O, müraciətində Qarabağda 120 min erməninin (?) "blokada"da olduğunu, "məhv olmaq" təhlükəsi ilə üzləşdiyini bildirib. Simonyan qeyd edib ki, "blokada"nın aradan qalxması, on minlərlə erməninin "xilası" üçün beynəlxalq təşkilatların prosesə çevik və effektiv müdaxiləsinə ehtiyac var.

(ardı 8-ci səhifədə)

# Sərhədlərinə nəzarət Azərbaycanın legitim hüququdur

## Prezident İlham Əliyevin "Euronews" televiziyasına müsahibəsi

(əvvəli 1-ci səhifədə)



**Müxbir:** Elə mən də onu soruşmaq istəyirdim. Sözünüzü kəsdiyimə görə üzr istəyirəm. Siz bu yaxınlarda Brüsseldən qayıtmısınız. Sülh danışıqlarının növbəti raundu keçirildi. Bir çox insan tərəfindən bu danışıqlar Ermənistanla Azərbaycan arasında dayanıqlı sülhə aparan ümid kimi qarşılandı. Ən sonuncu raunddan sonra ümidli olmaq bizim tərəfdən düzgün olardımı?

**Prezident İlham Əliyev:** Bəli, ümidli olmaq yaxşıdır. Lakin deməliyəm ki, sülh danışıqları xarici işlər nazirləri tərəfindən aparılır. Brüsseldəki görüşlərimiz Avropa İttifaqı Şurasının Prezidenti tərəfindən təşkil olunur. Əslində, həmin görüşlər bizə çox həssas məsələlərə toxunmaq imkanını verir.

**Müxbir:** Məsələn.

**Prezident İlham Əliyev:** Sərhədlərin gələcək parametrləri ilə bağlı məsələ, çünki Ermənistanla Azərbaycan arasında sərhəd müəyyən olunmamışdır. Çünki Sovet İttifaqının süqutu ərəfəsində biz təcavüzlə üzləşdik. İndi sərhəd necə olacaq? Yerlərdə real vəziyyət necə olacaq? Kommunikasiyalarla bağlı vəziyyət necə olacaq? Çünki İkinci Qarabağ müharibəsi nəticəsində Ermənistanın imzaladığı sənəddə onun öhdəliyi var ki, bizim eksklavımız olan Naxçıvana çıxışımız olsun. Lakin bu, hələ də baş vermir. Beləliklə, sülh sazişinin əsas bəndləri nazirlər tərəfindən tərtib edilir. Bizim görüş isə hesab edirəm ki, yaxşı mühit yaradır. Lakin əgər biz Ermənistan tərəfindən konstruktiv yanaşma görsək və ən vacibi isə əgər onlar ərazi bütövlüyümüzü mübahisələndirən bütün iddialarını kənara qoysalar, onda biz tezliklə, bəlkə də ilin sonunadək sülh variantını tapa bilərik.

**Müxbir:** Danışıqlar haqqında sonra daha çox söhbət edəcəyik. Lakin mənim üçün soruşmaq maraqlıdır ki, vəziyyəti nizamlamağa cəhd edən çox beynəlxalq iştirakçı olub. Avropa İttifaqı danışıqlar masasına nəyi gətirir?

**Prezident İlham Əliyev:** Əslində, 1992-ci ildən etibarən - hələ işğal dövründə aparılan danışıqlar zamanı Avropa İttifaqı vasitəçilik prosesinin bir hissəsi olmayıb. İndi bu, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin təşəbbüsüdür. O, bizi dəvət etdi və biz dəvəti qəbul etdik. Çünki Azərbaycan ilə Avropa İttifaqının, eləcə də onunla Ermənistanın əməkdaşlıq səviyyəsini nəzərə alsaq, Avropa İttifaqının fəal olması təbiidir. Xüsusən də nəzərə alsaq ki, İkinci Qarabağ müharibəsindən sonra Minsk qrupu, əslində, fəaliyyət göstərmirdi və indi də göstərmir. Beləliklə, müəyyən beynəlxalq qurum olmalı idi. Düşündüm ki, Avropa İttifaqı ən yaxşı vasitəçi ola bilər, çünki bizim onunla münasibətlərimiz qarşılıqlı hörmətə, etimada və maraqlara söykənir. Bir sözlə, həmin təşəbbüs hazırda çox fəal dialoq formatına çevrilir, çünki biz təkcə Brüsseldə deyil, həmçinin Avropa Siyasi Birliyinin tədbiri çərçivəsində də görüşürük. Sonuncu dəfə görüş Kişineuda baş tutdu. Bunu vacib hesab edirəm, çünki vəziyyətin durğun olmasına imkan vermirik, durğunluq yaranarsa, yenidən bir növ fasiləyə keçərsə, onda biz hər hansı təhlükəli ssenaridən sığortalana bilmərik.

**Müxbir:** Sizin fikrinizcə, Qərbin, yəni Avropa İttifaqının və həmçinin Birləşmiş Ştatların artan vasitəçiliyi bu regionda daha ənənəvi gücdə – Rusiyada qıcıq yarada bilərmi? Rusiyanın Ukrayna ilə məşğul olması faktı Azərbaycan ilə Ermənistanın ümumi razılığa gəlməsi üçün müəyyən imkan yaradırmı?

**Prezident İlham Əliyev:** Atəşkəs sazişinin, yəni 2020-ci il 10 noyabr tarixli Bəyanatın vasitəçisi nə Birləşmiş Ştatlar, nə də Avropa İttifaqı deyil, Rusiya olub. Ermənistanın baş naziri ilə ilk görüşlərim Rusiya tərəfindən bu ölkədə təşkil olunmuşdu. Rusiya–Ukrayna müharibəsindən sonra vəziyyət dəyişdi və biz gördük ki, Birləşmiş Ştatlar və Avropa daha fəal oldular. Əslində, prosesin kimin tərəfindən aparılacağı və ya prosesi kimin müəyyən dərəcədə inhisara götürəcəyi bizim üçün böyük fərq etmir. Nəticəyə gəlmək vacibdir. Biz sülh sazişi ilə nəticələnəcək təşəbbüs irəli sürən hər hansı tərəfi dəstəkləyəcəyik. Yeri gəlmişkən, xarici işlər nazirləri arasında Vaşinqtonda danışıqlar aparılıb. Hazırda biz bu ayın sonunda danışıqların raundunu Rusiyada keçirmək barədə Rusiyadan dəvət aldıq və bununla razılaşdıq. Beləliklə, əgər hər hansı digər məkan olarsa, əlbəttə ki, biz razılaşacağıq, çünki bizim üçün razılığa gəlmək və nəticə əldə etmək vacibdir. Əlbəttə, müəyyən siyasi rəqabəti, bəzi iştirakçıların daha fəal olmaq cəhdlərini anlayırıq, lakin biz bunu yalnız alqışlaya bilərik. Əgər sağlam rəqabət olarsa, onun yalnız yaxşı nəticələri olacaq.

**Müxbir:** Rusiya ilə uzun tarixi və əhatəli münasibətlərinizin olduğunu anlayıram. Sizin fikrinizcə, Rusiyanın hazırda bölgədəki təsiri necədir?

**Prezident İlham Əliyev:** Bilirsiniz, region haqqında demək mənim üçün çətindir, çünki Cənubi Qafqaz bölgəsi üç ölkədən ibarətdir. Biz Rusiyanın Cənubi Qafqazdakı qonşularımızla qarşılıqlı əlaqələrini, sadəcə, müşahidə edə bilərik. Azərbaycana gəldikdə isə elə də ciddi dəyişiklik yoxdur, çünki bizim Rusiya ilə münasibətlərimiz artıq tarazlaşdırılıb. Onlar bir-birimizin milli maraqlarının və əlbəttə ki, ərazi bütövlüyünün və suverenliyin tanınmasına əsaslanır. Rusiya Azərbaycanın qonşusu və tərəfdaşıdır. Bizim nəzərəçarpan ticari dövriyyəmiz, daşımalar infrastrukturuna aid bir çox layihələrimiz var. Bu, xüsusən də indiki dövrə aiddir. Layihələr enerjinin inkişafına aiddir. Əlbəttə ki, mədəniyyət sahəsi də çox vacibdir.

**Müxbir:** Hazırda Siz məhz enerji sektorunda Qərblə bir çox razılaşmalar əldə etmisiniz. Elədirmi?

**Prezident İlham Əliyev:** Bəli, Qərblə razılaşmalar var. Lakin bu, uzun müddət əvvəl əldə edilib, o vaxt biz Bakıdan İtaliyaya vahid boru kəməri sistemini qurmaq təşəbbüsünü irəli sürdük. O, mərhələli şəkildə icra olundu və onun yekun mərhələsi iki ildən çoxdur yekunlaşıb. Artıq iki ildən çoxdur ki, Azərbaycan Avropanın mühüm qaz təchizatçısına çevrilib. Əlbəttə, Rusiyaya qarşı sanksiyalarla bağlı vəziyyət yeni ölçü yaradıb, çünki hazırda enerji sərvətlərimiz heç zaman olmadığı kimi zəruridir. Lakin istənilən addıma gəldikdə, biz onu bir çox il əvvəl imzalanmış müqavilələrimiz və planlarımız əsasında atırıq. Düzdür, hazırda Azərbaycandan əlavə qaz almaq üçün müraciət edən ölkələrin sayı daha çoxdur. Bunu etməyə hazırıq və artıq başlamışıq. Ötən il daha çox ölkə qazımızı almağa başladı. Bu, cari ildə də davam edəcək. Lakin yenə də Rusiya ilə münasibətlərimiz nöqteyi-nəzərindən, Rusiya-Ukrayna müharibəsi başladıqdan sonra çox şey dəyişməyib.

**Müxbir:** Burada olan vəziyyət haqqında danışaq. Beynəlxalq Ədalət Məhkəməsi, Avropa İnsan Hüquqları Məhkəməsi, ABŞ və Avropa İttifaqı hamısı Laçın dəhlizinin bağlı qaldığı təqdirdə, əhalinin potensial qaydada girova düşmək təhlükəsini qeyd edərək, həmin dəhlizdə hərəkət azadlığına dair zəmanətləri tələb ediblər. Hazırda Laçın dəhlizində baş verənlər haqqında nə deyə bilərsiniz?

**Prezident İlham Əliyev:** Laçın dəhlizi adlandırılan yol İkinci Qarabağ müharibəsinin bitməsindən sonra fəaliyyətini işğal vaxtında işləyən qaydada təxminən iki il davam etdirmişdir. Bir fərq var idi - o, rus sülhməramlılarının nəzarəti altında idi və bu, üçtərəfli Bəyanatın bir hissəsi idi. Yəni, fəaliyyətdə dayanma, bizim tərəfimizdən hər hansı müdaxilə yox idi. Bununla belə, orada vəziyyət dəyişməyə başladı. Azərbaycanın vətəndaş cəmiyyəti nümayəndələrinin dəhlizə müəyyən dərəcədə nəzarət etmək səyləri ötən il noyabrın əvvəlində Qarabağda təbii sərvətlərin yenidən qeyri-qanuni istismarı ilə bağlı idi. Müharibədən sonra bu proses dayandırılmışdı, çünki qeyri-qanuni idi. Bu sərvət bizə məxsusdur. Bir neçə xarici şirkət qızıl və mis mədənlərimizi qeyri-qanuni olaraq istismar edirdilər. Biz işğal zamanı heç bir şey edə bilmirdik, lakin müharibə başa çatdıqdan sonra aydındır ki, bu fəaliyyət dayandırılmalı idi və dayandırıldı. Amma sonradan - noyabrda həmin proses yenidən başladı. Vətəndaş cəmiyyətinin nümayəndələri rus sülhməramlılarından xahiş etdilər ki, mədənlərdə nəyin baş verdiyini görmək üçün orada monitorinq keçirsinlər. Biz gördük ki, dəmir və qızıl filizi yük maşınlarında rus sülhməramlılarının müşayiəti ilə Qarabağdan Ermənistana daşınır. Həmin yerə getmək hüququmuz təmin edilmədi və beləcə vətəndaş cəmiyyətimizin nümayəndələri yola nəzarət etməyə başladılar. Amma yol yenə də bağlı deyildi, hərəkət azad idi.

**Müxbir:** Yəni, o, heç vaxt bağlanmamış, hərəkət heç zaman dayandırılmamışdır?

**Prezident İlham Əliyev:** Xeyr, xeyr!

**Müxbir:** Onda fikrinizcə, həmin təsisatlar xüsusən də Azərbaycandan niyə bunları soruşurlar? Onlar qeyd edirlər ki, Siz həmin sahənin ətraf hissəsinə cavabdehsiniz. Siz hərəkət etmək azadlığını təmin etməlisiniz. Sizcə, nəyə görə onlar Sizi hədəfləyirlər?

**Prezident İlham Əliyev:** Əslində, Beynəlxalq Ədalət Məhkəməsi bizə öz ismarışını ünvanladı ki, hər hansı hərəkətin pozulmaması üçün biz vətəndaş cəmiyyətinin fəalları ilə danışaq. Biz bunu etdik. Biz Ermənistanla sərhədimizdə sərhəd-keçid məntəqəsini qurduqdan dərhal sonra, - bu, bizim legitim hüququmuzdur və heç kəs tərəfindən, o cümlədən Beynəlxalq Ədalət Məhkəməsi tərəfindən mübahisələndirilmir, – biz burada Şuşadakı nümayəndəm vasitəsilə QHT nümayəndələri ilə danışdıq ki, həmin aksiyanı dayandırsınlar. Onlar bunu etdilər və getdilər. Hazırda da hərəkət etmək azadlığı bloklanmayıb. Aprelin 23-dən - sərhəd-keçid məntəqəsini qurduğumuz vaxtdan etibarən Qarabağın 2 mindən artıq sakini Ermənistana asan şəkildə gedib-gəlib. Amma iyunun 15-də Ermənistan növbəti hərbi təxribata əl atdı və bizim sərhədçilərimizdən birini yaraladı.

Araşdırma aparıldığı üçün yol müvəqqəti olaraq bağlansa da, sonra təkrar açıldı. Qırmızı Xaç Komitəsi dava-dərmanın nəqlini və Ermənistanda müalicəyə ehtiyacı olan xəstələrin təxliyəsini bərpa etdi. Lakin əfsuslar olsun ki, Qırmızı Xaç Komitəsinin yük maşınlarının yoxlanılması zamanı siqaret, iPhone-lar və benzin kimi məhsulların qaçaqmalçılıqla keçirilməsi aşkar olundu. Qırmızı Xaç Komitəsi bunu etiraf etdi və bildirdi ki, onlar buna görə heç bir məsuliyyət daşımırlar, çünki...

**Müxbir:** Yük maşınları, sadəcə, sürücülər tərəfindən istifadə olunurdu...

**Prezident İlham Əliyev:** Bəli, lakin bu yük maşınlarının üzərində Qırmızı Xaçın emblemi var idi və sürücülərin uniformaları üzərində də emblemlər var idi. Beləliklə, yol yenidən bu şəkildə bağlanıldı və biz Qırmızı Xaç Komitəsindən buna son qoyulmasını və bizimlə daha konstruktiv işləməsini xahiş etdik. Çünki əfsuslar olsun ki, bu günə kimi onların Qarabağdakı ofisi Bakı ofisinə yox, İrəvandakı ofisə tabedir. Bu da yolverilməzdir. Çünki bütün dünya Qarabağı Azərbaycanın bir hissəsi kimi tanıyır. Hətta Ermənistanın baş naziri dəfələrlə "Qarabağ Azərbaycandır" söyləyib. Bəs nəyə görə Qırmızı Xaç Komitəsinin Xankəndidəki ofisi Bakı ofisinə yox, İrəvandakı ofisə tabedir? Bu, bizim legitim tələbimizdir.

**Müxbir:** Laçın dəhlizi, sərhəd-keçid məntəqəsi və bu, çox mühüm keçid yolu məsələsinin indi sülhə əngəl olan əsas maneələrdən biri olduğunu deyərdinizmi?

**Prezident İlham Əliyev:** Mən belə düşünmürəm. Çünki Laçın-Xankəndi yolundakı vəziyyət biz aprel ayının 23-də sərhəd-buraxılış məntəqəsi yaradanda dəyişdi. O vaxta kimi bizim sülh razılaşmasına gəlmək üçün iki il yarım vaxtımız var idi. Yeganə əngəl Ermənistanın rəsmi surətdə Qarabağı Azərbaycanın bir hissəsi olaraq tanımaq istəməməsi idi. Bəli, onlar bunu bəyanatlarla, şifahi bəyanatlarla edirdilər. Bu da mövqeyin ifadə edilməsinin bir yolu idi, lakin onlar sənədə imza atmalı idilər. Odur ki, mən bu iki məsələnin bir-biri ilə bağlı olduğunu düşünmürəm. Çünki Ermənistanla aparılan sülh danışıqlarının uğurlu bir ssenari ilə yekunlaşacağına ümid edirəm və bunun yaxın aylarda baş verəcəyinə ümidvaram.

**Müxbir:** Düşünürəm ki, indi Sizə ünvanlayacağım suala artıq cavab vermisiniz. Amma mən istənilən halda Sizin burada olduğunuza və Sizə sual vermək üçün çoxlu imkanımın olmayacağına görə yenə bu sualı Sizə vermək istəyirəm. 2020-ci ildə hər iki tərəfdən təxminən 5 min insan tələfatı oldu. Mən burada idim, mən Dağlıq Qarabağa gəlmişdim və həlak olmuş bir çox erməni əsgərlərinin anaları ilə görüşdüm. Həmçinin Azərbaycanda işləyən həmkarlarım sayəsində digər tərəfin, Sizin tərəfin ağrısı və acısının da şahidi oldum. Lakin mən müharibəyə və oğlunun ölümünə görə siyasətçiləri günahlandırdığını deyən bir ana ilə danışdığımı xatırlayıram. O, siyasətçilərin müharibə tələsinə düşmədən məsələləri diplomatik yolla həll etməli olduqlarını deyirdi. Siz missiyanızın nədən ibarət olduğunu deyərdiniz? Missiyanız müharibədə qalib gəlmək, yoxsa dayanıqlı sülhə nail olmaqdır?

**Prezident İlham Əliyev:** Müharibədə qalib gəlmək mənim həyatımın, siyasi həyatımın missiyası idi. Müharibə də uğurla başa çatdı. Biz bir çox amillərə - siyasi amillərə, işğal edilmiş ərazilərdə hərbçilərimiz üçün bir neçə müdafiə səddinin keçilməsini çətinləşdirən uzunmüddətli infrastruktur layihələrinin olmasına baxmayaraq, müharibədə qalib gəldik. Bəzi yerlərdə onların minalarla dolu beş, digər yerlərdə isə yeddi müdafiə səddi var idi. Yəqin ki, Füzulidən gələndə yolun yuxarıya doğru getdiyini görmüsünüz. Bizim hərbçilərimiz məhz bu yolla buraya gəliblər. Sizin gəldiyiniz, sonradan "Zəfər yolu" adlandırdığım bu yol mövcud deyildi. Bu, bizim hərbçilərimizin Şuşaya doğru necə irəliləməsini göstərən yoldur. Onlar bu qayalı dağlara dırmaşırdılar. Beləliklə, bu amillərə, böyük erməni diasporuna malik bir çox ölkələrin güclü siyasi dəstəyinə baxmayaraq, biz düzgün olanı etdik. Biz ədaləti və ərazi bütövlüyümüzü bərpa etdik. Biz Ermənistanın torpağında savaşmadıq, öz torpağımızda vuruşduq və biz Zəfər çaldıq. Beləliklə, bu, bir nömrəli missiya idi və o, artıq tamamlandı. İndi isə biz sülh haqqında danışırıq.

Otuzillik işğaldan əziyyət çəkmiş ölkəmizin işğal altında olan əraziləri tamamilə məhv edilmişdir. Şuşada qeyri-qanuni məskunlaşmalar olduğu üçün şəhər tamamilə dağıdılmamışdır. Onlar Orta Şərqdən olan erməniləri burada məskunlaşdırmaq istəyirdilər və burada bir neçə min erməni yaşayırdı. Məhz buna görə heç də bütün şəhərlər dağıdılmamışdır. Lakin Füzuli tamamilə yerlə-yeksan edilmişdir, Ağdamda da vəziyyət eynidir. Demək olar ki, bir milyon azərbaycanlı evindən məhrum olmuşdur. Bütün bu acılara baxmayaraq, biz qisas almadıq. Mən dedim ki, biz qisası döyüş meydanında alacağıq, lakin Ermənistan müharibənin ilk günündən mənim tələb etdiyim bütün ərazilərdən geri çəkiləcəyi tarixləri təqdim edən kimi biz dayandıq və sonra da sülh haqqında danışıqlara başladıq. İndi sülh bizim gündəliyimizdədir. Ermənistan sülh istəyərsə, biz ona nail olacağıq. Çünki bizim Ermənistana qarşı hər hansı bir ərazi iddiamız yoxdur. Biz onların da Azərbaycana qarşı ərazi iddialarının olmamasını istəyirik. Qarabağda, hazırda müvəqqəti olaraq rusiyalı sülhməramlıların nəzarəti altında olan ərazidə yaşayan insanlar Azərbaycanda yaşayırlar. Onlar ölkəmizdəki digər çoxsaylı milli azlıqlar kimi Azərbaycan vətəndaşları olaraq yaşayacaqlarına və ya Azərbaycanı tərk edəcəklərinə dair seçim etməlidirlər. Bu, onların seçimidir. Biz bunu onların buranı tərk etməsini istədiyimizə və ya Ermənistanın bizi etnik təmizləmə siyasəti aparmaqda günahlandırdığına görə etmirik. Biz onlara seçim hüququ veririk. Çünki onlar heç bir hüquqi icazə olmadan ya Ermənistan vətəndaşları olaraq, ya da heç kim tərəfindən tanınmayan dırnaqarası "Dağlıq Qarabağ respublikası"nın vətəndaşları olaraq bizim ərazidə necə yaşaya bilərlər? Hesab edirəm ki, bu, legitim yanaşmadır.

Bu yanaşma beynəlxalq təcrübəyə uyğundur. Bu yanaşma separatizmə qarşı mübarizə aparan bir çox Avropa ölkələrində gördüyümüz təcrübəyə uyğundur. İndi biz separatizmə qarşı mübarizə aparmaqda Ukraynaya kömək etmək üçün Avropa və Qərbin necə birləşdiyini görürük. Bəs bizə gəldikdə nəyə görə bizim separatizmə qarşı mübarizəmizə fərqli yanaşma sərgilənir? Nəyə görə Gürcüstanın separatçı regionları ilə bağlı yanaşması Qərb cəmiyyəti və siyasətçiləri tərəfindən tamamilə anlaşılır, lakin bizim eyni mənşədən olan separatizmə son qoymaq üçün legitim istəyimiz sual altına alınır? Nə üçün İspaniya Kataloniyaya referendum keçirməyə icazə vermir, baxmayaraq ki, onların sayı 5, yaxud 6 milyon nəfərdir və yaxınlıqda öz dövləti olan ermənilərdən fərqli olaraq, onların öz dövləti yoxdur. Nə üçün biz separatizmə dözməliyik? Biz bunu etməyəcəyik.

**Müxbir:** Siz artıq əhaliyə və dövlətlərə mesajlar, o cümlədən təminatlar vermisiniz ki, istəsələr onlara qalmağa icazə veriləcək, onlar qorunacaqlar və burada yaşamağa icazə veriləcək. Bu gün ola bilsin ki, bizi izləyən ermənilərə mesajınız varmı? Şərt deyil bu, hökumət olsun, mən bilirəm, Siz baş nazir Paşinyanla təmasdasınız və ona mesaj göndərmək üçün bizim kameralarımıza ehtiyacınız yoxdur. Bəs ola bilsin ki, bizi izləyən başqa ermənilərə gəlincə necə? Bu gün qarşı tərəfə mesajınız nədən ibarətdir?

**Prezident İlham Əliyev:** Mən bu barədə düşünməmişəm, çünki həyatımda ilk dəfədir ki, mənə bu sual verilir.

(ardı 3-cü səhifədə)

# Sərhədlərinə nəzarət Azərbaycanın legitim hüququdur

## Prezident İlham Əliyevin “Euronews” televiziyasına müsahibəsi

(əvvəli 2-ci səhifədə)

**Müxbir:** Həqiqətənmi?

**Prezident İlham Əliyev:** Bəli. Düşünürəm ki, mən sualı iki hissəyə bölərdim. Birincisi, əgər onlar mənim söylədiklərimə qulaq asırlarsa, mənim Ermənistandakı ermənilərə mesajım belədir ki, biz onların dövləti ilə sülh istəyirik, bizim Ermənistana qarşı ərazi iddialarımız yoxdur, baxmayaraq ki, müharibədən əvvəl yüz minlərlə azərbaycanlı Ermənistanda yaşayıb və bütövlüklə etnik təmizləməyə məruz qalıb, onların mədəni və dini irsi tamamilə məhv edilib. Bununla belə, bizim heç bir ərazi iddiamız yoxdur. Lakin biz düşünürük ki, Azərbaycan və Ermənistan əlaqələrini normallaşdıranda və diplomatik əlaqələr quranda, Ermənistandan zorla deportasiya olunmuş azərbaycanlıların qayıtmaq hüququ var. Onlara digər bir mesaj ondan ibarətdir ki, hazırkı geosiyasi vəziyyəti və qüvvələr balansını aydın dərk etmək lazımdır. Uzun illər ərzində Ermənistan liderləri öz xalqını inandırırdılar ki, onlar dünyanın ən güclü ordusuna sahibdirlər, əgər müharibə başlasa, onlar Bakıya gələcəklər, Azərbaycan öz torpaqları uğrunda döyüşməyəcək, azərbaycanlılar artıq işğalla barışıblar. Bütün bu hekayələr tamamilə yanlış idi və təbliğatdan başqa bir şey deyildi. Beləliklə, müharibə bu hekayələri məhv etdi və bu, təkcə bununla bitmədi. O, həmçinin Ermənistan dövlətinin çox sayda ideoloji sütunlarını dağıtdı. Onlar dərk etdilər ki, müharibəni uduzublar və çox güman ki, bu, onlar üçün psixoloji cəhətdən çox ağrılı oldu. İndi biz sülh istədiyimizi deyəndə, bu, ona görə deyil ki, biz zəifik və sülh axtarırıq. Xeyr, onlar bilirlər ki, biz xeyli güclüyük. Bu ona görədir ki, biz tarixin bu qara səhifəsinin bağlanmasını istəyirik. Biz nə bu gün, nə də gələcəkdə başqa bir müharibə istəmirik.

Erməni icmasına gəlincə, düşünürəm ki, onlar beynəlxalq ictimaiyyətin sülh təşəbbüslərinə qarşı çıxmamalıdırlar. Başa düşməlidirlər ki, əgər onlar Azərbaycanla sülh sazişi imzalamaq istəmirlərsə, gələcəkdə proqnozlaşdırılmayan vəziyyət olacaq. Gördüyümüz kimi, dünyada və regionda geosiyasi vəziyyət çox kəskin şəkildə dəyişir. Onların təhlükəsizliyi ilə bağlı ümidlərinin bir qismi tamamilə yoxa çıxdı. İndi onlar yeni təhlükəsizlik qarantları axtarırlar. Kim bu ərazidə döyüş meydanında Azərbaycanla qarşıdurmaya hazırdır, xüsusilə bizim müharibə zamanı nümayiş etdirdiklərimizdən və müharibədən sonra müdafiə imkanlarımızı artırdığımızdan sonra? Ermənilərə görə bizə qarşı döyüşməyə hazır olan kimsə varmı? Mən buna şübhə edirəm.

Mənim konkret olaraq bu vəziyyətdə Ermənistan hökumətinə artıq çatdırdığım başqa bir mesaj ondan ibarətdir ki, onlar üçün seçim ən yaxşı və qat-qat yaxşı arasında deyil. Onlar üçün seçim çox pis və qəbulolunan arasındadır ki, qəbulolunan seçim sağlam düşüncəyə, beynəlxalq hüquqa və azərbaycanlıların 30 il ərzində məhrum edildikləri öz torpaqlarında yaşamaq hüququnun tanınmasına əsaslanır. Qarabağdakı ermənilərə xatırlatmaq istərdim ki, biz onlarla təmaslara dərhal başladıq. Faktiki olaraq biz erməni əhalinin yaşadığı bir neçə kənddən keçən yeni Laçın yolunu tikməyə başlayanda xalqlar arasında təmaslar oldu. Mənə məlumat verildi ki, yolun inşası ilə məşğul olan işçilərlə erməni icması arasında təmaslar qurulub və onlar demək olar dərhal dostlaşıblar. Əgər tikintinin birinci ayında rusiyalı sülhməramlılar hər iki tərəfin təhlükəsizliyini təmin edirdilərsə, sonradan onlar, sadəcə olaraq, çıxıb getdilər. Rusiya sülhməramlıları yox idi, onlar asanlıqla ünsiyyət qururdular. Beləliklə, bu, onu göstərir ki, sadə insanların əksəriyyətinin ürəyində bu nifrət yoxdur.

Qarabağdakı ermənilərə gəlincə, onlar qondarma liderlərinin arxasınca getməməlidirlər. Bu “liderlər”, - hazırkı və bundan əvvəlki “liderlər”, - onlara bütün bu müddət ərzində - müharibədən əvvəl, müharibə zamanı qalib gəldiklərini deyəndə yalan danışıblar. Hətta biz Şuşaya nəzarəti ələ alanda onlar deyirdilər ki, Şuşa onların nəzarəti altındadır. Onlar bunu çox yaxşı bilirlər. Onlar Xankəndidə hakimiyyəti ələ keçirmiş və əsas məqsədi öz maraqlarını güdmək olan bugünkü rejimin girovuna çevrilməməlidirlər.

Burada, Şuşada işğal dövründə tikilmiş üç villa var. Maraqlanırsınızsa, sizə onları göstərə bilərlər. Bu villalar Qarabağ ermənilərinin liderləri üçün tikilmişdi. Onlar bunu özləri üçün tikmişdilər. Şəhər tamamilə xarabalıqlar içərisində idi. Sizin indi gördükləriniz, o cümlədən bu “Qarabağ” hoteli, icra hakimiyyətinin binası, mehmanxanalar və hər şey bizim yenidənqurma prosesinin başlanğıcıdır. Onlar şəhərin ən yaxşı yerində özləri üçün 3 villa tikiblər. O insanlar ki, bu gün həmin qondarma, tanınmamış respublikaya rəhbərlik edirlər. Qarabağ erməniləri başa düşməlidirlər ki, təhlükəsizlik təminatları, hüquqlarının, o cümlədən təhsil, mədəniyyət, dini, bələdiyyə hüquqlarının təmin edilməsi ilə Azərbaycan cəmiyyətinin bir hissəsi olaraq onlar normal həyat yaşayacaqlar. Onlar manipulyasiyanın girovu olmağa son qoyacaqlar. Həmçinin onlar başa düşməlidirlər ki, bizi saymamağa davam etsələr, bizim mövcud olmadığımız kimi davranmağa davam etsələr və ya “prezidenti”, “nazirləri”, “parlamentariləri” olan qondarma ölkədə yaşayırlarmış kimi davransalar, bu gün olduqları vəziyyət onların xeyrinə dəyişməyəcək. Bütün bunlar yalandır. Biz onlara normal həyat təklif edirik. Düşünürəm ki, onlar mənə qulaq assalar başa düşəcəklər və bilirlər ki, mən sözümə əməl edirəm.

**Müxbir:** Prezident İlham Əliyev, “Euronews”a müsahibə verdiyiniz üçün təşəkkür edirik.

**Prezident İlham Əliyev:** Təşəkkür edirəm.

***

Müsahibədən sonra Prezident İlham Əliyev “Euronews”un müxbirinə işğal dövründə Şuşada ermənilər tərəfindən güllənaran edilmiş Azərbaycanın tanınmış şəxsiyyətləri Natəvan, Bülbül və Üzeyir Hacıbəylinin heykəlləri barədə məlumat verdi.

# Səudiyyə Ərəbistanı şirkətlərindən bərpa prosesində fəal iştirak gözləyirik



**Səudiyyə Ərəbistanı ilə Azərbaycan arasında ənənəvi dostluq və tarixi əlaqələr mövcuddur. Ölkələrimiz arasında uzunmüddətli tərəfdaşlıq əlaqələrinin əsası Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin 1994-cü ildə Səudiyyə Ərəbistanına səfəri və İki Müqəddəs Ocağın Xadimi mərhum Kral Fəhd bin Əbdüləziz ilə görüşü zamanı qoyulub. 2015-ci ildə Prezident İlham Əliyevin Səudiyyə Ərəbistanına rəsmi səfəri, eləcə də 2017-ci ildə Ərəb-İslam-Amerika Sammitində iştirak etmək üçün Ər-Riyada işçi səfəri bu əlaqələrin möhkəmlənməsinə gətirib çıxarıb. Hazırda iki ölkə arasında əlaqələr dostluq, qardaşlıq və tərəfdaşlıq münasibətləri olaraq qeyd edilə bilər.**

Bunu Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Səudiyyə Ərəbistanının “Əş-Şarg əl-Avsat” qəzetinə müsahibəsində bildirib.

Prezidentin köməkçisi Azərbaycan xalqının Səudiyyə Ərəbistanı Krallığının Ermənistanın ölkəmizə hərbi təcavüzünü pisləməsini və işğalçı dövlətlə diplomatik əlaqələr qurmamasını heç vaxt unutmadığını və bunu yüksək qiymətləndirdiyini vurğulayıb. Diqqətə çatdırıb ki, Səudiyyə Ərəbistanının ədalətə söykənən, Təhlükəsizlik Şurasının dörd məlum qətnaməsinə, beynəlxalq hüququn norma və prinsiplərinə, İslam həmrəyliyinə əsaslanan mövqeyi bütün dünyaya nümunədir. 1990-cı illərdə Ermənistanın torpaqlarımızı işğal etməsi, azərbaycanlılara qarşı soyqırımı törətməsi nəticəsində bir milyondan çox azərbaycanlı doğma yurdundan didərgin salınaraq məcburi köçkünə çevrilib. Məhz həmin dövrdə qardaş Səudiyyə Ərəbistanının Azərbaycana dəstəyi heç vaxt unudulmur.

Bu gün əlaqələrimizin uğurla inkişaf etdiyini, ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində sıx əməkdaşlıq həyata keçirdiyini və bir-birini fəal dəstəklədiyini diqqətə çatdıran Prezidentin köməkçisi bildirib: “Azərbaycanla Körfəz Əməkdaşlıq Şurası dövlətləri və Ərəb Dövlətləri Liqası arasında əlaqələrin inkişafında Səudiyyə Ərəbistanının rolunu yüksək qiymətləndiririk. Eyni zamanda, biz Səudiyyə Ərəbistanının “Ekspo-2030” sərgisinə ev sahibliyi etməsini dəstəkləyir və Krallığa bu mötəbər tədbiri uğurla təşkil etməsini arzulayırıq. Səudiyyə Ərəbistanının regionda və dünyada sülhün və təhlükəsizliyin qorunmasında göstərdiyi cəhdləri yüksək qiymətləndiririk. Azərbaycan Səudiyyə Ərəbistanına qarşı PUA-larla və ballistik raketlərlə edilən hücumları pisləyib və bunu qəbuledilməz hesab edir”.

İkitərəfli əlaqələrimizdə turizmin vacib yer tutduğunu vurğulayan H.Hacıyev birbaşa aviareyslərin sayının artırıldığını, ötən il 100 minə yaxın Səudiyyə Ərəbistanı vətəndaşının Azərbaycana səfər etdiyini, bu dinamikanın bu il artdığını qeyd edib. Azərbaycanın Səudiyyə Ərəbistanı ilə iqtisadi-ticari əlaqələrin inkişaf etdirilməsində, kənd təsərrüfatı və ərzaq təhlükəsizliyi sahəsində investisiyaların artırılmasında maraqlı olduğu, bu ölkənin şirkətlərinin işğaldan azad edilmiş ərazilərimizin bərpası prosesində fəal iştirakını gözlədiyi bildirilib.

Müsahibədə Körfəz ölkələri ilə Azərbaycan arasında institusional əməkdaşlığın qurulmasının önəmi, eləcə də qlobal və regional təhlükəsizlik məsələlərinin müzakirəsi üçün təhlükəsizlik dialoqunun aparılmasının mümkünlüyü vurğulanıb. Həmçinin iqtisadi-ticari və humanitar sahələrdə əməkdaşlığın genişləndirilməsinin vacibliyi qeyd olunub, Azərbaycanın Körfəz ölkələrindən turistlərin cəlb edilməsində maraqlı olduğu bildirilib. Qeyd edilib ki, viza prosedurunun sadələşdirilməsi Körfəz ölkələrindən gələn turistlərin sayının artmasına gətirib çıxarıb. Bununla yanaşı, ticarət dövriyyəsinin həcminin artırılması baxımından investisiya və biznes sektorunda əlaqələrin gücləndirilməsinin, Körfəz sərmayəsinin Azərbaycana, xüsusən də azad edilmiş ərazilərin yenidən qurulması prosesinə cəlb olunmasının önəmi vurğulanıb.

Prezidentin köməkçisi Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması, sülh danışıqları barədə də sualları cavablandırıb. Vətən müharibəsində Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Zəfər qazanan Azərbaycanın otuz illik işğala son qoyaraq, BMT Təhlükəsizlik Şurasının qətnamələrini təkbaşına yerinə yetirdiyi bildirilib. Qeyd olunub ki, müharibədən qısa müddət sonra Azərbaycan Ermənistanla bir-birinin suverenliyinin və ərazi bütövlüyünün qarşılıqlı tanınması əsasında sülh sazişi imzalamaq üçün beş əsas prinsipi təqdim edib. Lakin Ermənistan öz öhdəliklərinə zidd olaraq, silahlı qüvvələrinin qalıqlarını torpaqlarımızdan hələ də tam çıxarmayıb, əksinə, Laçın yolundan hərbi məqsədlər üçün istifadə edib. Bundan başqa, Azərbaycanın 8 kəndi hələ də Ermənistanın işğalı altındadır. Ermənistan ölkəmizə qarşı ərazi iddialarını başqa ad altında davam etdirir. Yerevan absurd iddialar irəli sürməklə sülh müqaviləsi üzrə danışıqlara əngəllər yaradır.

Bildirilib ki, Azərbaycan öz sərhədlərinə nəzarət etmək və Ermənistanın qanunsuz fəaliyyətinin qarşısını almaq üçün suveren ərazisində “Laçın” dövlət sərhədindən buraxılış məntəqəsi yaradıb. Ermənistanın regionda humanitar vəziyyətin guya gərgin olması ilə bağlı əsassız iddialar yaymasının məqsədi bölgəyə üçüncü tərəfləri cəlb etmək, gərginliyin coğrafiyasını genişləndirmək və sülh prosesini pozmaqdır.

H.Hacıyev qeyd edib ki, Azərbaycanın Qarabağ bölgəsində heç bir humanitar böhran yaşanmır. Ermənistanın Azərbaycanın bir sıra təkliflərinə, o cümlədən erməni əhalinin ehtiyaclarını ödəmək üçün Ağdam-Xankəndi yolundan və digər alternativ yollardan istifadə təklifinə qarşı çıxması bir daha göstərir ki, humanitar vəziyyətlə bağlı Yerevanın iddiaları siyasi şantaj və manipulyasiya məqsədi daşıyır. Ermənistanın qondarma “humanitar yüklərlə” bağlı son hərəkətləri siyasi şoudan başqa bir şey deyil.

Həmçinin 1990-cı illərin əvvəllərində bir çox azərbaycanlının vəhşicəsinə qətlə yetirilməsinə görə məsuliyyət daşıyan hərbi cinayətkar Vaqif Xaçatryanın Qarabağdan qaçmaq istəyərkən “Laçın” sərhəd-keçid məntəqəsində saxlanıldığı qeyd edilib, erməni tərəfinin onunla bağlı iddialarının əsassız olduğu vurğulanıb. Bildirilib ki, son günlər baş vermiş bütün təxribatlara görə məsuliyyət Azərbaycanda qeyri-qanuni hərbi mövcudluğunu davam etdirən, separatizmi təşviq edən və reinteqrasiya səylərinə mane olan Ermənistan və onun rəhbərliyinin üzərinə düşür. Bütün anti-Azərbaycan bəyanatlar Azərbaycan rəhbərliyinin iradəsinə qətiyyən təsir göstərməyəcək. Qarabağ bölgəsində yaşayan erməni əhalinin hüquqlarına ölkə konstitusiyası əsasında təminat verən Azərbaycan suverenliyinə və ərazi bütövlüyünə qarşı hər hansı addımın qarşısını qətiyyətlə alacaq.

Prezidentin köməkçisi müsahibədə Qərbi Azərbaycan icmasının hüquqlarının bərpası məsələsinə də toxunub. Bildirib ki, Qərbi Azərbaycan icmasının Ermənistanda öz yurdlarına qayıtmaq hüququ var, çünki bu icma 1980-ci illərin sonlarında Ermənistandan qovulub. Ermənistanın ozamankı demoqrafik vəziyyətinə baxdıqda, müsəlmanların, xüsusilə də azərbaycanlıların geniş coğrafi regionda məskunlaşdıqlarını və oranın yerli icması olduğunu görmək olar. Lakin bugünkü Ermənistan monoetnik cəmiyyətdir. Buna görə də Qərbi Azərbaycan İcmasının öz vətəninə qayıtmaq hüququ var. Təəssüf ki, Ermənistan bu icmanın hüquqlarını tam şəkildə pozur.

Müsahibədə Azərbaycan-İran münasibətlərindən də söz açan H.Hacıyev ölkəmizin qonşuları ilə münasibətlərini ərazi bütövlüyü və suverenliyə qarşılıqlı hörmət, daxili işlərə qarışmamaq prinsipləri əsasında qurduğunu xatırladıb. Bildirib ki, Azərbaycan ilə İran arasında tarixi qonşuluq əlaqələri var. Lakin Azərbaycanın İrandakı səfirliyinə edilmiş son hücum və nəticədə səfirliyin əməkdaşının qətlə yetirilməsi ikitərəfli əlaqələrdə gərginlik və anlaşılmazlıq yaradıb. Hazırda diplomatik kanallar vasitəsilə əlaqələr var, İranın rəsmi şəxslərinin Azərbaycana müvafiq səfərləri həyata keçirilir. Bu gərginlik və anlaşılmazlıqların aradan qaldırılması üçün xarici işlər nazirləri səviyyəsində dialoq davam edir. Azərbaycan İrandakı səfirliyimizə hücum edən terrorçunun və onun arxasında duran qüvvələrin İran qanunlarına uyğun olaraq cəzalandırılacağını gözləyir. Azərbaycan hər zaman dialoq və diplomatiyanı dəstəkləyir.

# Əcnəbi jurnalistlər Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsində



**Dünən Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev ABŞ-da fəaliyyət göstərən, BMT-nin Baş Qərargahında akkreditə olunmuş bir qrup jurnalist və media eksperti ilə görüşüb.**

Komitədən bildiriblər ki, görüşdə qonaqlara ölkəmizdə qaçqınlıq və məcburi köçkünlük probleminin yaranmasının səbəbləri, Ermənistanın deportasiya və işğalçılıq siyasətinin ağır nəticələri, öz yurdundan didərgin düşən bir milyondan çox azərbaycanlının üzləşdiyi məhrumiyyətlər, onların sosial müdafiəsinin təşkili və dövlət komitəsinin fəaliyyət istiqamətləri barədə ətraflı məlumat verilib.

Bildirilib ki, qaçqınlar və məcburi köçkünlər daim dövlətin diqqət və qayğısı ilə əhatə olunublar, onların problemlərinin həllini Prezident İlham Əliyev sosial siyasətin prioritet istiqamətlərindən biri kimi müəyyən edib. Məcburi köçkünlərlə bağlı bütün məsələlərə Birinci vitse-prezident xanım Mehriban Əliyeva da xüsusi diqqət göstərir.

Qonaqlara komitənin beynəlxalq təşkilatlarla əlaqələri, birgə həyata keçirilən layihələr barədə də məlumat verilib.

Sonra Dövlət Komitəsinin sədri və məsul əməkdaşları jurnalistləri maraqlandıran sualları cavablandırıblar.

Əcnəbi media nümayəndələrinin ölkəmizə səfərinin təşəbbüsçüsü, ABŞ-ın Yel Universitetində təhsilini davam etdirən, “Report” İnformasiya Agentliyinin ABŞ bürosunda çalışan jurnalist Vüsalə Abbasova səfərin məqsədinin ermənilərin tarixi torpaqlarımızda törətdiyi vəhşiliklər, azad edilmiş ərazilərdə aparılan bərpa-quruculuq işləri, həmçinin postmüharibə dövründə regiondakı vəziyyətə dair həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması olduğunu deyib.

**“Xalq qəzeti”**

# Şuşada ana dili sevgisi



**Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzinin təşkilatçılığı ilə “Heydər Əliyev İli” çərçivəsində Şuşa şəhərində 1 Avqust Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü münasibətilə konfrans keçirilib.**

Monitorinq Mərkəzinin direktoru, professor Sevinc Əliyeva məclisi giriş sözü ilə açaraq doğma dilimizlə bağlı bu toplantının Azərbaycanın mədəniyyət paytaxtında keçirilməsinin qürurverici olduğunu söyləyib. Alim qeyd edib ki, 1969–2003-cü illərdə Azərbaycan dilinin hərtərəfli inkişafı yalnız rəsmi sənədlərdə deyil, əməli fəaliyyətdə də öz əksini tapıb, Ulu öndər tərəfindən imzalanan sərəncam və fərmanlar ölkəmizdə dil siyasətinin mükəmməl konsepsiyasını, uzunmüddətli strategiyasını müəyyən edib. Monitorinq Mərkəzi bu fərman və sərəncamlardan irəli gələn məsələləri, dövlət dili ilə bağlı Ulu öndərin göstərişlərini rəhbər tutaraq doğma dilin saflığının qorunmasına, azərbaycançılıq ideologiyasının təbliğinə öz töhfələrini verməkdədir.

Konfransda Mərkəzin direktor müavini, dosent Gülarə Əmirova “Azərbaycan əlifbasının dünəni və bu günü”, filologiya üzrə fəlsəfə doktoru Aynur Paşayeva “Təhsildə Azərbaycan dili” mövzusunda məruzələrlə çıxış ediblər. Bakı Mühəndislik Universitetinin tədris məsləhətçisi, dosent Zabitə Teymurlu, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin dosenti, Əməkdar incəsənət xadimi Fəxriyyə Xələfova, Bakı Avrasiya Universitetinin ümumi filologiya kafedrasının baş müəllimi, filologiya üzrə fəlsəfə doktoru Zəminə Rüstəmbəyli, Əməkdar jurnalist Mətanət Ağamirli, Laçın şəhər 1 nömrəli tam orta məktəbin direktoru Vəfa İsmayılova, “Art Mood” reklam şirkətinin təsisçi-direktoru Xəyalə Mütəllimova, “Diksiya Akademiyası” MMC-nin rəhbəri Cəlalə Nəzəroğlu, “Maestro School” proqramlaşdırma məktəbinin təsisçisi Mədinə Paşayeva və digər çıxış edənlər Ümummilli liderin ana dilinə qayğısının hər bir azərbaycanlıya örnək olduğunu, bütün sahələrdə ana dilinin saflığının qorunmasının vacibliyini vurğulayıblar.

**T.RÜSTƏMLİ, “Xalq qəzeti”**

3 avqust 2023-cü il, cümə axşamı Xalq qəzeti

# Ölkəmizin sülh gündəliyi: Dünyaya ədalət çağırışı

## Dövlətimizin başçısı “Euronews” telekanalına müsahibəsində Bakı – İrəvan danışıqlarının vacib parametrlərinə aydınlıq gətirməklə, ölkəmizin prinsipial mövqeyini bir daha bəyan etdi

**(əvvəli 1-ci səhifədə)**

Nəzərə alaq ki, indi də Ermənistan rəhbərliyi, xaricdəki ermənipərəst qüvvələr Cənubi Qafqazda sülh gündəliyi, Laçın yolu, həmin yol üzərindəki Həkəri sərhəd nəzarət-buraxılış məntəqəsi üzərində respublikamıza qarşı əks-təbliğatla məşğuldurlar. Niyyətləri diqqəti əsl həqiqətlərdən yayındırmaq, beynəlxalq aləmin Azərbaycana total mənfi münasibətini yaratmaq, yekun nəticədə 44 günlük müharibədən sonra bölgədə formalaşmış reallıqları dəyişdirərək, Qarabağdakı erməni avantürizmini qoruyub saxlamaqdır. Prezident İlham Əliyev “Euronews”a müsahibəsindəki vurğuladığı məqamlarla məhz bu sayaq mənfi təmayüllərə qarşı ölkəmizin prinsipiallığa və qətiyyətə söykənmiş immunitetini, müqavimət hissini bir daha ortaya qoydu, gücümüzə yeni əminlik çalarları qatdı.

***

Keçək mətləbə. Dövlətimizin başçısının Ermənistanla sülh gündəliyi müstəvisində üzərində dayandığı ilk məqam özündə Bakı-İrəvan danışıqlarının, hər iki tərəfin təmsilçilərinin görüşlərinin əhəmiyyətinin vurğulanmasını ehtiva edir. O anlamda ki, həmin təmaslar çox həssas məsələlərə toxunmaq imkanı verir. Bunlardan biri sərhəd məsələsidir. Daha doğrusu, sərhədlərin gələcək parametrləri.

Prezident İlham Əliyev bildirir ki, uzun onilliklər Ermənistanla Azərbaycan arasında sərhəd olmayıb. Çünki hər iki respublika sabiq Sovet İttifaqının tərkibində yer alıb. İttifaq süquta uğradıqdan sonra isə ölkəmiz təcavüzlə üzləşib: “İndi sərhəd necə olacaq? Yerlərdə real vəziyyət necə olacaq? Kommunikasiyalarla bağlı vəziyyət necə olacaq? Axı İkinci Qarabağ müharibəsi nəticəsində Ermənistanın imzaladığı sənəddə onun öhdəliyi var ki, bizim Naxçıvan kimi eksklavımıza çıxışımız olsun. Lakin bu, hələ də baş vermir”.

Bəli, Prezident İlham Əliyevin də vurğuladığı kimi, əsas məsələ Naxçıvana gedən yoldur. O yol ki, şərti də olsa, 44 günlük müharibənin yekunlarını təsdiqləyən 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatda, Azərbaycanın digər ərazilərini Naxçıvanla birləşdirən yol şəklində göstərilir. Onun açılması İrəvan üzərinə öhdəlik kimi qoyulur.

Dövlətimizin başçısı sözügedən yolu Zəngəzur dəhlizi adlandırıb. Ötən iki il yarımdan artıq müddətin təcrübəsi göstərir ki, bu ifadə beynəlxalq siyasi terminologiyada da oturuşub. Çünki dünya Zəngəzur dəhlizinin əhəmiyyətini çox yaxşı dərk edir. Beynəlxalq dairələr, eyni zamanda gözəl anlayırlar ki, əslində, Naxçıvana quru yolu olan həmin dəhlizə qarşı müqavimət göstərən tərəf Ermənistan rəhbərliyi və xaricdəki bəzi qüvvələrdir. Mövcud istiqamətdəki direniş isə bütövlükdə, Azərbaycan – Ermənistan sülh prosesinin vacib maneə seqmentini təşkil etməkdədir. Hesab edirik ki, ölkəmizin lideri “Euronews”a müsahibəsində bu məqama heç də əbəs yerə toxunmadı. Deməli, Zəngəzur dəhlizi həm də fərqli maraqların toqquşduğu plasdarmdır.

***

Ermənistan Azərbaycanla sülh istəyirsə, hansısa şərt qoymamalı, ölkənin rəhbərliyi məsələyə səmimi yanaşmalı, konstruktiv davranmalıdır. Təəssüf ki, biz bunun əksini müşahidə etməkdəyik. Nəticə etibarilə Cənubi Qafqazda uzun müddətdir gözlənilən sülh əldə olunmur. Lakin Bakı-İrəvan danışıqlarının pozitiv tərəfləri var ki, Prezident İlham Əliyev müsahibəsində onların da üzərində dayanıb. Məsələn, sülh sazişinin əsas bəndlərinin nazirlər tərəfindən tərtib edildiyini diqqətə çatdıran dövlətimizin başçısı bildirir ki, Ermənistanın rəhbər şəxsləri ilə ölkəmizin rəsmilərinin təmasları yaxşı mühit yaradır: “Lakin əgər biz Ermənistan tərəfindən konstruktiv yanaşma görsək, ən vacibi isə əgər onlar ərazi bütövlüyümüzü mübahisələndirən bütün iddialarını kənara qoysalar, onda biz tezliklə, bəlkə də, ilin sonunadək sülh variantını tapa bilərik”.

Sülh variantından söz düşmüşkən, Azərbaycan Prezidenti müsahibəsində mövcud istiqamətdəki danışıqların hazırkı tematikasındakı Avropa İttifaqı müstəvisindən də söz açıb. Söhbət, konkret olaraq, Aİ Şurasının prezidenti Şarl Mişelin təşəbbüsündən gedir. O təşəbbüsdən ki, onun aktivliyini, belə demək mümkünsə, leqallaşdıran amil qismində Mişelin təmsil olunduğu qurumun həm Azərbaycanla, həm də Ermənistanla əməkdaşlıq səviyyəsi çıxış etməkdədir. Deməli, ölkəmizin lideri, faktiki olaraq, Aİ-nin Cənubi Qafqaz siyasi akvatoriyası üçün yad olmadığını vurğulamaqdadır.

Yeri gəlmişkən, onu da diqqətə çatdıraq ki, Azərbaycan – Ermənistan münasibətlərinin nizamlanması üzrə aktiv vasitəçilərdən sayılan Rusiya zaman-zaman Aİ-nin Cənubi Qafqaz bölgəsi üçün kənar element imicini formalaşdırmaqdadır. Qurumun ayrı-ayrı rəsmiləri isə çıxışlarında buna qarşı immunitet formalaşdırmağa yönələn bəyanatlar səsləndirir, müxtəlif arqumentlər irəli sürürlər. Əlbəttə, ən böyük arqument münaqişə durumunda olan Cənubi Qafqaz ölkələrinin mövqeyidir. Azərbaycanın mövqeyi ortadadır və cənab İlham Əliyev onu bir daha vurğuladı. Ermənistana gəldikdə isə, ölkənin manipulyativ yol tutduğu aşkardır. Təxminən belə: Sərf edəndə Avropa, etməyəndə Rusiya...

Bəli, Azərbaycanın rəhbəri müsahibəsində Aİ-nin sülh missiyasına hörmətini ifadə etdi. Həm də ona görə ki, “bizim onunla (Aİ ilə - red.) münasibətlərimiz qarşılıqlı hörmətə, etimada və maraqlara söykənir”. Digər tərəfdən, Brüsseldəki təmaslarla yanaşı, Aİ-nin təşviq etdiyi Avropa Sülh Təşəbbüsü çərçivəsində də danışıqlar getməkdədir. Sonuncu dəfə bu görüş Kişinyovda baş tutdu. Bu kimi məqamları vacib hesab edən ölkəmizin liderinin söylədiklərindən gəlinən qənaət budur ki, ikitərəfli təmaslar bölgədə vəziyyətin durğunlaşmasına imkan verməmək baxımından da əhəmiyyətlidir: “Çünki durğunluq yaranarsa, onda biz hər hansı təhlükəli ssenaridən sığortalana bilmərik”.

***

Əlbəttə, sülh vasitəçiliyindəki başlıca indikator səmərəlilikdir. Azərbaycan konkret nəticəyə, belə demək mümkünsə, təşnədir. Bu, o deməkdir ki, bütün torpaqlarımızda ölkəmizin hüquqi və faktiki hakimiyyəti tez bir zamanda bərqərar olmalıdır.

2020-ci ilin 10 noyabr üçrətəfli Bəyanatı ilə bölgədə müharibəyə son qoyan Rusiya vasitəçilik baxımından son dərəcə ciddi dividend əldə etmişdi. Yada salaq ki, həmin vaxt dünyanın bir sıra aparıcı qütbləri qanlı savaşın dayandırılmasına görə Moskvaya təşəkkürlərini də bildirmişdilər.

Sonrakı mərhələdə Rusiya, ölkəmizin rəhbərinin də bildirdiyi kimi, ilk dəfə olaraq Azərbaycan və Ermənistan liderlərini bir masa ətrafına gətirməyə müvəffəq oldu. Ancaq görünən budur ki, başlanmış



prosesin səmərəlilik baxımından ardı gəlmədi.

Moskva 2020-ci ilin noyabrından ötən müddətdə çox çalışıb ki, Ermənistan 2018-ci il inqilabına qədərki dövrə qayıtsın. Yəni, yenidən onun orbitinə. Buna görə, əslində, Ermənistan üçün sərfəli olan bir sıra məsələləri gündəmə gətirib.

Məsələn, Qarabağın statusunun müəyyənləşdirilməsinin sonraya saxlanılmasını götürək. Halbuki, status 44 günlük müharibə ilə Prezident İlham Əliyevin təbirincə desək, “gorbagor” olmuşdu. Hələ sonraya saxlanılanlar siyahısına sülh müqaviləsini də əlavə etmək mümkündür. Bütün bunlar isə Azərbaycanın maraq və mənafelərindən irəli gəlmirdi. Üstəlik, onu da nəzərə alaq ki, həmin üçtərəfli bəyanatın heç də bütün şərtlərinə əməl olunmayıb – Qarabağda qeyri-qanuni erməni hərbi birləşmələri qalmaqdadır, yuxarıda da vurğuladığımız kimi, Ermənistan Naxçıvana yolun açılmasını təmin etməyib və sair.

Belə bir durumda ABŞ-ın və Avropa İttifaqının sülh vasitəçiliyi platformasında fəallaşmasını təbii saymaq mümkündür. Birincisi, kollektiv Qərb Rusiya ilə rəqabət meydanı əldə etməyi düşünürdü. Moskvanın passivliyi və məsələyə yanaşmanın ədalətsizliyi şəraitində bu meydanı tapdı. İkincisi isə hətta, Rusiya ondan gözlənilənləri həyata keçirsəydi də belə, yenə ermənipərəstlik mərəzinin Qərbi Cənubi Qafqaz müstəvisində hərəkətə gətirəcəyi qənaətindəyik.

Mövcud dolaşıq labirintdə Azərbaycanın rolu ondan ibarətdir ki, ölkəmiz balansı ciddi şəkildə qorudu və özünün düşünülmüş siyasəti ilə Qərbi fakt qarşısında qoymağı bacardı. Əslində, bu nəticə yalnız ötən iki il yarımdakı fəaliyyətin deyil, uzun illərə əsaslanmış və ölçülüb-biçilmiş xəttin məhsuludur. Yəni, indiki halda prinsip etibarilə ermənipərəst mövqedə olan və lazım gələndə bütün resurslarını mövcud istiqamətdə cəmləşdirib anti-Azərbaycan ritorikasına baş vuran Qərb son anda geri çəkilmək, reallıqları qəbul etmək məcburiyyətindədir...

Elə həm də buna görədir ki, hazırkı situasiyada ölkəmiz üçün Birləşmiş Ştatlar və ya Avropanın Rusiyadan daha fəal olmasının fərqi yoxdur. Bu qütblər arasında rəqabət hər zaman olub. Əsas olan rəqabətin ölkəmizin maraq və mənafelərinin təminatına xidmətidir. Prezident İlham Əliyevin də vurğuladığı məhz budur: “Əslində, prosesin kimin tərəfdən aparılacağı və ya prosesi kimin müəyyən dərəcədə inhisara götürəcəyi bizim üçün böyük fərq etmir. Vacib olanı nəticəyə gəlməkdir”.

Nəticə ədalətli olmalıdır. Ədalətli olmaq üçün isə dünyanın, indiki halda Azərbaycan-Ermənistan münasibətlərində vasitəçi qismində çıxış edən tərəflərin ikili standartlardan uzaqlaşmaları mütləqdir. Sülh prosesinə yanaşmadakı normal məntiq ikili standartlardan uzaqlaşmanı diktəyə çevirməkdədir. O səbəbdən ki, dünya təcrübəsi və beynəlxalq aləmdəki presedentlər var. Azərbaycan Prezidenti isə onlarla paralellər aparmaqda tam haqlıdır.

Həqiqətən də necə ola bilər ki, dünya Ukraynadakı separatçılıq meyillərinə qarşı birləşir, ölkənin ərazi bütövlüyünün qorunması kontekstindən çıxış edir, Azərbaycana gəldikdə, eyni fəallıq göstərilmir? Digər tərəfdən, cənab İlham Əliyev müsahibəsində beynəlxalq ictimaiyyətin Gürcüstanın suverenliyinə təhdidə qarşı da vahid mövqe sərgilədiyini diqqətə çatdırır və sual verir: “Nəyə görə Gürcüstanın separatçı regionlarına qarşı yanaşması Qərb cəmiyyəti və siyasətçiləri tərəfindən tamamilə anlaşılır, lakin bizim eyni mənşədən olan separatizmə son qoymaq üçün legitim istəyimiz sual altına alınır?”

***

Ermənistan hakimiyyəti, ermənipərəst dairələr Qarabağ ermənilərinin blokadası məntiqini qabardarkən, 120 min rəqəmi üzərində dayanır, Azərbaycanın guya yaratdığı vəziyyət nəticəsində bu sayda əhalinin sosial durumunun ağırlığını, həyati ehtiyaclardan məhrum vəziyyətə düşdüyünü önə çəkirlər. Dünyanın müxtəlif media orqanları da məsələni gündəmə gətirmək yolu tuturlar. Belə təəssürat formalaşır ki, heç kəs Azərbaycanın Qarabağın erməni əhalisi ilə bağlı konstitusyon öhdəliklərini yerinə yetirməyə hazır olduğunu nəzərə almır.

Ermənistan iqtidarı isə mövcud istiqamətdə əlavə beynəlxalq mexanizmlərin işə salınmasını gündəliyə gətirmək, bunun Azərbaycanla Ermənistan arasında imzalanması nəzərdə tutulan sülh müqaviləsinin tərkibində yer almasını istəyir. Yəni əvvəlcə saxta, qeyri-qanuni gündəm yaradılır, sonra həmin gündəmin, bir növ, leqallaşdırılmasına, hüquqi sənədlərdə yer almasına cəhd göstərilir. Halbuki Qarabağ ermənilərinin sayı bəyan edildiyi kimi, heç də 120 min deyil, təqribən 30 minə yaxındır.

Ancaq hətta 120 min olsa belə nə isə dəyişmir. Bu baxımdan Prezident İlham Əliyevin “Euronews”a müsahibəsində gətirdiyi ritorik arqument son dərəcə əsaslıdır. Dövlətimizin başçısı Avropanın baxışlarındakı anti-separatizm seqmentini əsas götürərək həm sual verir, həm də ölkəmizin qəti mövqeyini açıqlayır: “Nə üçün İspaniya Kataloniyaya referendum keçirməyə icazə vermir, baxmayaraq ki, onların sayı 5, yaxud 6 milyon nəfərdir və yaxınlıqda öz dövləti olan ermənilərdən fərqli olaraq, onların öz dövləti yoxdur. Nə üçün biz separatizmə dözməliyik? Biz bunu etməyəcəyik!”.

***

Sonda bir məqamı da vurğualayaq ki, Prezident İlham Əliyevin “Euronews” telekanalına müsahibəsində Azərbaycan – Ermənistan danışıqları ilə bağlı səsləndirdiyi xüsuslar, dövlətimizin başçısının əminlik jestikulyasiyaları ölkəmizin qətiyyətli və prinsipial mövqeyinə yenidən aydınlıq gətirilməsi, xarici təpkilərə qarşı dirənişimizin ideoloji motivlərinin bir daha bəyan edilməsidir. Müsahibədəki fikirlər, həmçinin xəbərdarlıq mahiyyəti daşıyan siyasi manifestdir. Bu xəbərdarlıq isə həm Ermənistan hakimiyyətinədir, həm ermənipərəst dairələridir, həm də Bakı – İrəvan münasibətlərinin tənzimlənməsi üzrə vasitəçilik missiyasını öhdəliyinə götürmüş tərəflərədir. Birinci, yəni Ermənistan iqtidarı anlamalıdır ki, ölkəmizin baxışları sorğu-sualsız qəbul edilməlidir. Əks halda, onun üçün vəziyyət indikindən qat-qat fəlakətli ola bilər. Ermənipərəst dairələr bilməlidirlər ki, anti-Azərbaycan ritorikasına güc verməklə, Ermənistan iqtidarını illüziya bataqlığına sürükləyirlər ki, bu da İrəvanı növbəti fəlakət ssenarisinə yuvarlandırmaqdadır. Vasitəçilərə gəldikdə isə onlardan tələb olunan ədalət və yalnız ədalətdir. Nəzərə alınmalıdır ki, məhz ədalətli sülh dayanıqlı ola, inkişafa və tərəqqiyə yola aça bilər.

***Ə.CAHANGİROĞLU,***
***“Xalq qəzeti”***

# 20 QHT rəhbərindən Beynəlxalq Qırmızı Xaç Komitəsinə açıq məktub

**Azərbaycanın vətəndaş cəmiyyəti təmsilçilərinin Beynəlxalq Qırmızı Xaç Komitəsinə açıq məktubla müraciət ediblər.**

**Müraciətdə deyilir:**

Biz Azərbaycanın vətəndaş cəmiyyətinin təmsilçiləri Beynəlxalq Qırmızı Xaç Komitəsinin prezidenti xanım Mirjana Spoljariç Eqqerə üz tutaraq, Beynəlxalq Qırmızı Xaç Komitəsinin Azərbaycandakı fəaliyyətindən ciddi narahatlıqlarımızı ifadə edirik.

Beynəlxalq Qırmızı Xaç Komitəsi özünü müstəqil, bitərəf və qərəzsiz təşkilat hesab edir. Ancaq Azərbaycana münasibətdə bu əsas prinsiplərin pozulması başadüşülən deyil.

2000-ci illərdə Komitə Azərbaycan hökuməti ilə razılaşdırmadan onun suveren ərazisi olan Xankəndidə ofis təşkil etib, sonradan məlum olub ki, qurumun Xankəndi ofisi təşkilatın Bakıdakı nümayəndəliyinə deyil, İrəvandakı nümayəndəliyinə tabe etdirilib.

2020-ci ildə 44 günlük müharibədən sonra da bu vəziyyətin dəyişmədən qalması dözülməzdir. Biz Azərbaycan Prezidenti İlham Əliyevin bu günlərdə Şuşada “Euronews” televiziya kanalına müsahibəsində səsləndirdiyi kimi, Xankəndi ofisinin məhz Bakıdakı nümayəndəliyə tabe etdirilməsini tamamilə haqlı, legitim tələb hesab edirik...

**Xanım prezident!**

Biz Beynəlxalq Qırmızı Xaç Komitəsini son vaxtlar Ermənistanın manipulyasının alətinə çevrilməməyə, ədalətsiz açıqlamalar verməməyə çağırırıq. Qarabağ Azərbaycan ərazisi olduğu üçün Bakıdakı nümayəndəliyiniz Ağdam-Xankəndi yolu vasitəsilə humanitar yükləri çatdıra bilər. Xankəndinə Ağdamdan yol İrəvandan daha qısadır. Bu həm də nəqliyyat xərclərinə əhəmiyyətli dərəcədə qənaət etməyə imkan verə bilər.

Beynəlxalq Qırmızı Xaç Komitəsindən Xankəndi ofisinin tamamilə Bakı nümayəndəliyinə tabe etdirilməsini gözləyirik. Beynəlxalq Qırmızı Xaç Komitəsi öz fəaliyyətini Azərbaycan dövlətinin suverenliyi və ərazi bütövlüyünə uyğun şəkildə qurmalıdır. Biz sizdən həm də itkinlər mövzusunda Ermənistan tərəfi ilə dialoqun gücləndirilməsini gözləyirik.

İnanırıq ki, Beynəlxalq Qırmızı Xaç Komitəsi mümkün olan ən qısa bir vaxtda ictimai narahatlıqlarımızı nəzərə alaraq, məsələləri Cenevrədəki baş ofisində gündəliyinə çıxaracaq, konstruktiv qərarlar qəbul edəcək və Azərbaycanla bağlı fəaliyyətində zəruri düzəlişlərə gedəcək.

***Qəzənfər QASIMOV,***
***“Xalq qəzeti”***

# Ermənistanın kvadrokopteri ələ keçirilib



**Avqustun 1-i saat 20:45 radələrində Ermənistan silahlı qüvvələrinə məxsus "DJI Mavic 3" kvadrokopteri Gorus rayonunun Dığ yaşayış məntəqəsi istiqamətindən qaldırılaraq Laçın rayonu istiqamətində yerləşən Azərbaycan Ordusunun mövqeləri üzərində uçuşlar həyata keçirməyə cəhd göstərib.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, bölmələrimizin sayıqlığı nəticəsində aşkar edilən kvadrokopter xüsusi texniki vasitələrlə endirilərək ələ keçirilib.

## Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında xarici ticarətin daha da liberallaşdırılması haqqında" 1997-ci il 24 iyun tarixli 609 nömrəli, "Azərbaycan Respublikasında Dövlət əmlakının özəlləşdirilməsinin II Dövlət Proqramının təsdiq edilməsi barədə" 2000-ci il 10 avqust tarixli 383 nömrəli, "İnvestisiya müsabiqəsinin keçirilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında" 2001-ci il 17 iyul tarixli 533 nömrəli, "Azərbaycan Respublikasında lotereya fəaliyyətinin təkmilləşdirilməsi haqqında" 2001-ci il 23 noyabr tarixli 599 nömrəli, "Mülki dövriyyəsi məhdudlaşdırılmış əşyaların dövriyyəsinin tənzimlənməsi sahəsində əlavə tədbirlər haqqında" 2005-ci il 12 sentyabr tarixli 292 nömrəli, "Dövlət əmlakının qorunub saxlanılması və səmərəli istifadə edilməsinin təkmilləşdirilməsi haqqında" 2007-ci il 6 iyun tarixli 586 nömrəli və "Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatı tərəfindən dövlət zəmanəti əsasında emissiya ediləcək istiqrazların buraxılması, həcmi, müddəti və ödənilmə şərtləri"nin təsdiq edilməsi haqqında" 2015-ci il 7 avqust tarixli 575 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

# Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 6 iyul tarixli 934-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun icrasını təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 24 iyun tarixli 609 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 3, maddə 175; 2000, № 8 (III kitab), maddə 615; 2001, № 10, maddə 640, № 12, maddələr 754, 755; 2003, № 10, maddələr 546, 568, 571, 585; 2004, № 12, maddə 1005; 2005, № 2, maddə 69, № 3, maddə 170, № 7, maddə 592, № 8, maddə 720, № 12, maddələr 1104, 1112; 2006, № 9, maddə 743; 2007, № 3, maddə 234, № 8, maddə 766; 2008, № 6, maddə 498, № 9, maddə 798, № 11, maddə 969; 2009, № 2, maddə 70, № 4, maddə 226, № 10, maddələr 776, 779; 2010, № 4, maddə 296, № 5, maddə 389; 2013, № 9, maddə 1056; 2014, № 4, maddə 364, № 5, maddə 477, № 7, maddə 805, № 9, maddə 1027; 2016, № 8, maddə 1384, № 11, maddə 1817; 2017, № 2, maddə 177, № 8, maddə 1521; 2018, № 5, maddə 902, № 9, maddə 1840; 2019, № 2, maddə 248, № 5, maddə 852; 2021, №1, maddə 35; 2022, № 8, maddə 860) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında idxal-ixrac əməliyyatlarının tənzimlənməsi Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 12.3-cü bəndin birinci cümləsində "Maliyyə Bazarlarına Nəzarət Palatası (bundan sonra – Palata)" sözləri "Mərkəzi Bankı (bundan sonra – Mərkəzi Bank)" sözləri ilə, ikinci cümləsində "Palataya" sözü "Mərkəzi Banka" sözləri ilə əvəz edilsin;

1.2. 12.4-cü bənddə "Palata" sözü "Mərkəzi Bank" sözləri ilə, "Palataya" sözü "Mərkəzi Banka" sözləri ilə əvəz edilsin;

1.3. 12.5-ci, 12.6-cı və 15.2-ci bəndlərdə ismin müvafiq hallarında "Palata" sözü ismin müvafiq hallarında "Mərkəzi Bank" sözləri ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 10 avqust tarixli 383 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 606; 2001, № 10, maddə 640; 2002, № 4 (II kitab), maddə 189, № 10, maddə 592; 2003, № 10, maddələr 566, 569; 2004, № 6, maddə 432; 2005, № 5, maddələr 400, 403, 405; 2006, № 7, maddə 590, № 8, maddə 678, № 9, maddə 742; 2007, № 11, maddə 1097, № 12, maddə 1246; 2008, № 7, maddə 613; 2009, № 3, maddə 163, № 10, maddə 788, № 12, maddə 990; 2010, № 6, maddə 498, № 7, maddə 610; 2016, № 2 (II kitab), maddə 233, № 3, maddə 438; 2017, № 7, maddə 1352, № 11, maddə 2032; 2019, № 6, maddə 1036; 2020, № 4, maddə 397; 2021, № 6 (I kitab), maddə 567, № 12, maddə 1351; 2022, № 5, maddə 455, № 12, maddə 1443) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında Dövlət əmlakının özəlləşdirilməsinin II Dövlət Proqramı"nın 5.11-ci bəndində "Maliyyə Bazarlarına Nəzarət Palatası" sözləri "Mərkəzi Bankı" sözləri ilə əvəz edilsin.

**3.** Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 17 iyul tarixli 533 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 7, maddə 470; 2006, № 7, maddə 590; 2009, № 3, maddə 163; 2010, № 7, maddə 610; 2014, № 5, maddə 477; 2016, № 8, maddə 1384, № 9, maddə 1470; 2022, № 12, maddə 1444; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 iyun tarixli 2167 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "İnvestisiya müsabiqəsinin keçirilməsi Qaydaları"nın 3.1-ci bəndinin ikinci cümləsində "Maliyyə Bazarlarına Nəzarət Palatası" sözləri "Mərkəzi Bankı" sözləri ilə əvəz edilsin.

**4.** "Azərbaycan Respublikasında lotereya fəaliyyətinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 23 noyabr tarixli 599 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 11, maddə 707; 2003, № 10, maddə 585; 2004, № 12, maddə 1004; 2009, № 3, maddə 163; 2014, № 6, maddə 644; 2016, № 7, maddə 1252, № 8, maddə 1384; 2021, № 12, maddə 1422) 7-ci hissəsindən "və Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası" sözləri çıxarılsın.

**5.** Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 12 sentyabr tarixli 292 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 9, maddə 798, № 10, maddə 918; 2006, № 5, maddə 408; 2007, № 3, maddə 232, № 8, maddə 765; 2008, № 1, maddə 7, № 8, maddə 719; 2009, № 3, maddə 163; 2013, № 6, maddə 654; 2014, № 2, maddə 112, № 9, maddə 1027, № 10, maddə 1220; 2015, № 7, maddə 829; 2016, № 1, maddə 45, № 6, maddə 1039, № 8, maddə 1375; 2017, № 3, maddə 353, № 8, maddə 1521, № 11, maddə 1996; 2018, № 3, maddə 436, № 9, maddə 1840; 2019, № 7, maddə 1224; 2022, № 5, maddə 471, № 8, maddə 838; 2023, № 2, maddə 245, № 3, maddə 358, № 4, maddə 502) ilə təsdiq edilmiş "Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların dövriyyəsinə xüsusi icazə verən mərkəzi icra hakimiyyəti orqanlarının Siyahısı"nın 7-ci hissəsinin "Xüsusi icazə verən icra hakimiyyəti orqanı" sütununda "Maliyyə Bazarlarına Nəzarət Palatasının" sözləri "Mərkəzi Bankının" sözləri ilə əvəz edilsin.

**6.** Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 iyun tarixli 586 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 6, maddə 599; 2009, № 3, maddə 163; 2010, № 2, maddə 80, № 7, maddə 610; 2014, № 5, maddə 477; 2016, № 7, maddə 1260, № 8, maddələr 1377, 1384; 2017, № 6, maddə 1080; 2018, № 6, maddə 1200; 2021, № 12, maddə 1351; 2023, № 4, maddə 503) ilə təsdiq edilmiş "Səhmdar cəmiyyətlərində dövlətə məxsus səhmlərin idarəetməyə verilməsi Qaydaları"nın 4.2-ci bəndinin ikinci cümləsində "Maliyyə Bazarlarına Nəzarət Palatasının" sözləri "Mərkəzi Bankının" sözləri ilə əvəz edilsin.

**7.** Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 7 avqust tarixli 575 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 8, maddə 905; 2016, № 9, maddə 1470) ilə təsdiq edilmiş "Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatı tərəfindən dövlət zəmanəti əsasında emissiya ediləcək istiqrazların buraxılması, həcmi, müddəti və ödənilmə şərtləri"nin 8-ci hissəsində "Maliyyə Bazarlarına Nəzarət Palatasında" sözləri "Mərkəzi Bankında" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 2 avqust 2023-cü il**

---

## Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunun fəaliyyətinin təmin edilməsi haqqında" 2017-ci il 29 noyabr tarixli 1691 nömrəli, "Azərbaycan Respublikasının Gənclər Fondunun vəsaitindən istifadə, o cümlədən Fondun vəsaiti hesabına güzəştli kreditlərin verilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" 2018-ci il 29 avqust tarixli 253 nömrəli, "Kənd təsərrüfatına dövlət dəstəyinin və aqrar sahədə lizinq fəaliyyətinin təkmilləşdirilməsi haqqında" 2018-ci il 19 dekabr tarixli 413 nömrəli, "Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin tabeliyində İnnovasiyalar Agentliyinin vəsaitindən istifadə Qaydası"nın təsdiq edilməsi haqqında" 2019-cu il 14 iyun tarixli 742 nömrəli, "Azərbaycan Respublikası Sahibkarlığın İnkişafı Fondunun vəsaiti hesabına güzəştli kreditlərin verilməsi Qaydası"nın təsdiq edilməsi və "Azərbaycan Respublikasında sahibkarlığın inkişafına dövlət dəstəyi mexanizminin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 31 iyul tarixli 224 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" 2020-ci il 4 iyun tarixli 1052 nömrəli və "İşğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sahibkarların maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsi istiqamətində zəruri dövlət dəstəyinin gücləndirilməsi və "Azərbaycan Respublikası adından borc alınması və zəmanət verilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 dekabr tarixli 410 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" 2023-cü il 9 yanvar tarixli 1957 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

# Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 6 iyul tarixli 934-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun icrasını təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 29 noyabr tarixli 1691 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 11, maddə 2030, № 12 (I kitab), maddə 2330; 2018, № 5, maddə 901, № 10, maddə 1991, № 12 (I kitab), maddə 2592; 2019, № 5, maddə 857, № 12, maddə 1923; 2020, № 5, maddə 541; 2021, № 9, maddə 986; 2022, № 8, maddə 892; 2023, № 1, maddə 90) ilə təsdiq edilmiş "Sahibkarlar tərəfindən manatla alınan kreditlərə təminat verilməsi Qaydası"nın 6.2-ci, 6.3-cü və 10.4-cü bəndləri ləğv edilsin.

**2.** Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 29 avqust tarixli 253 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 8, maddə 1703; 2020, № 4, maddə 397, № 12 (I kitab), maddə 1483; 2023, № 3, maddə 347; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 iyun tarixli 2169 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Gənclər Fondunun vəsaitindən istifadə, o cümlədən Fondun vəsaiti hesabına güzəştli kreditlərin verilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. 3.2-ci bənddə "Maliyyə Bazarlarına Nəzarət Palatasının (bundan sonra – Nəzarət Palatası)" sözləri "Mərkəzi Bankının (bundan sonra – Mərkəzi Bank)" sözləri ilə əvəz edilsin;

2.2. 3.6-cı bənd ləğv edilsin;

2.3. 5.3-cü və 5.4-cü (hər iki halda) bəndlərdə ismin müvafiq hallarında "Nəzarət Palatası" sözləri ismin müvafiq hallarında "Mərkəzi Bank" sözləri ilə əvəz edilsin.

**3.** Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 19 dekabr tarixli 413 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 12 (I kitab), maddə 2570; 2020, № 4, maddə 402; 2022, № 2, maddə 95, № 8, maddə 846) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyinin vəsaitindən istifadə Qaydası"nın 1.7-ci bəndi ləğv edilsin.

**4.** Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 14 iyun tarixli 742 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 6, maddə 1034) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin tabeliyində İnnovasiyalar Agentliyinin vəsaitindən istifadə Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

4.1. 4.2-ci bənddə "Maliyyə Bazarlarına Nəzarət Palatasının" sözləri "Mərkəzi Bankının" sözləri ilə əvəz edilsin;

4.2. 4.3-cü və 4.4-cü bəndlər ləğv edilsin;

4.3. 4.20-ci bəndin birinci və ikinci cümlələrində ismin müvafiq hallarında "Maliyyə Bazarlarına Nəzarət Palatası" sözləri ismin müvafiq hallarında "Mərkəzi Bank" sözləri ilə əvəz edilsin.

**5.** Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 4 iyun tarixli 1052 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 6, maddə 694) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Sahibkarlığın İnkişafı Fondunun vəsaiti hesabına güzəştli kreditlərin verilməsi Qaydası"nın 1.5-ci və 1.6-cı bəndləri ləğv edilsin.

**6.** Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 9 yanvar tarixli 1957 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 1, maddə 45) ilə təsdiq edilmiş "İşğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sahibkarlıq subyektlərinə verilən kreditlərin dövlət zəmanəti ilə təmin edilməsi və kredit faizlərinin subsidiyalaşdırılması Qaydası"nın 5.3-cü bəndi ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 2 avqust 2023-cü il**

---

## "Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Millətlər Təşkilatının Sənaye İnkişafı Təşkilatı (BMTSİT) arasında 2022 – 2026-cı illər üzrə Əməkdaşlıq Çərçivəsi"nin təsdiq edilməsi haqqında

# Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** 2022-ci il noyabrın 14-də imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Millətlər Təşkilatının Sənaye İnkişafı Təşkilatı (BMTSİT) arasında 2022 – 2026-cı illər üzrə Əməkdaşlıq Çərçivəsi" təsdiq edilsin.

**2.** Bu Fərmanın 1-ci hissəsində göstərilən Əməkdaşlıq Çərçivəsi qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Nazirlər Kabineti onun müddəalarının həyata keçirilməsini təmin etsin.

**3.** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Əməkdaşlıq Çərçivəsinin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Birləşmiş Millətlər Təşkilatının Sənaye İnkişafı Təşkilatına bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 2 avqust 2023-cü il**

# Qərbi Azərbaycan İcması bir qrup fransız deputatın qərəzli müraciətini kəskin qınayıb

**Qərbi Azərbaycan İcması bir qrup fransız deputatın Azərbaycana qarşı düşmənçiliyə çağıran, beynəlxalq hüquqa həqarət olan qərəzli müraciətini kəskin şəkildə pisləyir və bunu Fransa cəmiyyətində tüğyan edən irqçiliyin, islamofobiyanın və azərbaycanofobiyanın bariz göstəricisi kimi dəyərləndirir.**

Qərbi Azərbaycan İcmasından verilən məlumata görə, fransız deputatlara xatırladılıb ki, onların iddia etdiyi "etnik təmizləmə" siyasəti öz torpaqlarını Ermənistanın 30 illik işğalından azad edən və hazırda Qarabağ bölgəsində yaşayan erməni sakinlərin reinteqrasiyasında qərarlı olan Azərbaycan tərəfindən deyil, qərbi azərbaycanlıları Ermənistandan deportasiya etmiş, onların qayıdış hüququnu inkar edən, onilliklər boyu Azərbaycan ərazilərini işğal altında saxlamış Ermənistan tərəfindən törədilib.

Fransız deputatların diqqətinə çatdırılıb ki, ciddi-cəhddə müdafiə etdikləri Avropa İttifaqının Ermənistandakı Missiyasının hər gün patrul apardığı ərazilərin əksəri vaxtilə qərbi azərbaycanlıların yaşadığı və 30 il öncə deportasiya edildiyi ərazilərdir.

Əgər fransız deputatları həqiqətən də iddia etdikləri "beynəlxalq hüquq", "demokratik dəyərlər" maraqlandırsaydı, onda onlar separatizmi, revanşizmi, cəzasızlığı təşviq edən Ermənistanı və qondarma qurumun qalıqlarını deyil, sülh və birgəyaşayış ideyalarını təşviq edən Qərbi Azərbaycan İcmasını, onun Ermənistanla dialoq təklifini və Qərbi azərbaycanlıların Ermənistanda öz dədə-baba yurdlarına qayıdışını dəstəkləməliydilər.

Qərbi Azərbaycan İcması fransız deputatlardan Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə qarşı qəsddən, bölgədə vəziyyəti gərginləşdirən fəaliyyətdən çəkinməyi və ölkəmizin daxili işlərinə qarışmamağı tələb edib. Həmin deputatlar öz ölkələrində hökm sürən irqçiliyə və islamofobiyaya qarşı mübarizə aparmağa, Korsika dilini qadağan etməməyə və müstəmləkə təfəkküründən əl çəkməyə çağırılıb.

## Azərbaycan Respublikası Prezidentinin "Rəqəmsal Ticarət Qovşağı kimi Azərbaycan Respublikasının mövqeyinin gücləndirilməsi və xarici ticarət əməliyyatlarının genişləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" 2017-ci il 22 fevral tarixli 1255 nömrəli, "Ödəmə qabiliyyətini itirmiş bankların rezolyusiyası və sağlamlaşdırma tədbirləri çərçivəsində qeyri-işlək (toksik) aktivlərin təqdim edilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" 2017-ci il 3 may tarixli 1360 nömrəli, "Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri və konsulluqları vasitəsilə qeyri-rezidentlərə elektron imza sertifikatının verilməsi Qaydası"nın və "www.azexport.az" internet portalı haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" 2017-ci il 12 sentyabr tarixli 1598 nömrəli, "Azərbaycan Respublikası regionlarının 2019–2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında" 2019-cu il 29 yanvar tarixli 500 nömrəli, "Xüsusi rabitə ilə bağlı bəzi məsələlər haqqında" 2019-cu il 11 aprel tarixli 622 nömrəli və "Azərbaycan Respublikası Maliyyə Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" 2019-cu il 16 oktyabr tarixli 842 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 6 iyul tarixli 934-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun icrasını təmin etmək məqsədilə **qərara alıram:**

**1.** "Rəqəmsal Ticarət Qovşağı kimi Azərbaycan Respublikasının mövqeyinin gücləndirilməsi və xarici ticarət əməliyyatlarının genişləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 22 fevral tarixli 1255 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 2, maddə 199; 2018, № 6, maddə 1236; 2021, № 1, maddə 43; 2022, № 12, maddə 1442; 2023, № 2, maddə 245) 7-ci hissəsində "Maliyyə Bazarlarına Nəzarət Palatası" sözləri "Mərkəzi Bankı" sözləri ilə əvəz edilsin.

**2.** "Ödəmə qabiliyyətini itirmiş bankların rezolyusiyası və sağlamlaşdırma tədbirləri çərçivəsində qeyri-işlək (toksik) aktivlərin təqdim edilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1360 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 764) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 3-cü hissədə "Maliyyə Bazarlarına Nəzarət Palatası" sözləri "Mərkəzi Bankı" sözləri ilə əvəz edilsin;

2.2. həmin Fərmanla təsdiq edilmiş "Ödəmə qabiliyyətini itirmiş bankların rezolyusiyası və sağlamlaşdırma tədbirləri çərçivəsində qeyri-işlək (toksik) aktivlərin təqdim edilməsi Qaydası"nın 2.1-ci, 3.1-ci və 3.2-ci bəndlərində ismin müvafiq hallarında "Maliyyə Bazarlarına Nəzarət Palatası" sözləri ismin müvafiq hallarında "Mərkəzi Bankı" sözləri ilə əvəz edilsin.

**3.** Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 12 sentyabr tarixli 1598 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 9, maddə 1645; 2019, № 6, maddə 1031; 2021, № 1, maddə 44; 2022, № 5, maddə 467, № 8, maddə 856; 2023, № 2, maddə 245) ilə təsdiq edilmiş "www.azexport.az" internet portalı haqqında Əsasnamə"nin 4.2.11-ci yarımbəndində "Maliyyə Bazarlarına Nəzarət Palatası" sözləri "Mərkəzi Bankı" sözləri ilə əvəz edilsin.

**4.** Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 29 yanvar tarixli 500 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 1, maddə 90, № 11, maddə 1719; 2020, № 8, maddə 1039, № 12 (I kitab), maddə 1479; 2021, № 3, maddə 225, № 5, maddə 452, № 6 (I kitab), maddə 572, № 9, maddə 989, № 10, maddə 1103; 2022, № 5, maddə 462, № 6, maddə 599, № 12, maddə 1438) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının 2019–2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın "7. Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planı" hissəsində aşağıdakı dəyişikliklər edilsin:

4.1. 7.1.44-cü yarımbəndin "İcraçılar" sütununda "Maliyyə Bazarlarına Nəzarət Palatası" sözləri "Mərkəzi Bank" sözləri ilə əvəz edilsin;

4.2. 7.1.45-ci yarımbəndin "İcraçılar" sütunundan "Maliyyə Bazarlarına Nəzarət Palatası," sözləri çıxarılsın.

**5.** Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 aprel tarixli 622 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 4, maddə 622; 2020, № 1, maddə 12, № 4, maddə 424, № 6, maddə 708; 2021, № 2, maddə 119, № 5, maddə 452, № 6 (I kitab), maddə 574; 2022, № 2, maddə 116, № 4, maddə 305, № 8, maddə 848, № 12, maddə 1436; 2023, № 3, maddə 374, № 4, maddə 479) ilə təsdiq edilmiş Əlavə 1 – "Hökumət rabitəsi ilə təmin olunan vəzifəli şəxslərin siyahısı"nın 29.6-cı bəndi ləğv edilsin.

**6.** Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 16 oktyabr tarixli 842 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 10, maddə 1587; 2022, № 12, maddə 1425) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Borcunun və Maliyyə Öhdəliklərinin İdarə Edilməsi Agentliyi haqqında Əsasnamə"nin 4.0.17-ci yarımbəndində "Maliyyə Bazarlarına Nəzarət Palatasına" sözləri "Mərkəzi Bankına" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 2 avqust 2023-cü il**

## Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasının fəaliyyətinin təmin edilməsi ilə bağlı əlavə tədbirlər haqqında" 2018-ci il 4 oktyabr tarixli 288 nömrəli Fərmanında dəyişiklik edilməsi və "Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası publik hüquqi şəxsin yaradılması haqqında" 2016-cı il 3 fevral tarixli 760 nömrəli Fərmanının ləğv edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 6 iyul tarixli 934-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun icrasını təmin etmək məqsədilə **qərara alıram:**

**1.** "Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasının fəaliyyətinin təmin edilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 4 oktyabr tarixli 288 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 10, maddə 1988; 2019, № 3, maddə 411) 1-ci və 3-cü hissələri ləğv edilsin.

**2.** "Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası publik hüquqi şəxsin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 3 fevral tarixli 760 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 224; 2019, № 1, maddə 82, № 2, maddə 213) ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 2 avqust 2023-cü il**

## "Bərpa olunan enerji mənbələrinin ərazisində elektrik enerjisi istehsalçısının seçilməsi Qaydası"nın təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikasının Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında" Azərbaycan Respublikasının 2021-ci il 31 may tarixli 339-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 12 iyul tarixli 1387 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

**1.** "Bərpa olunan enerji mənbələrinin ərazisində elektrik enerjisi istehsalçısının seçilməsi Qaydası" təsdiq edilsin (əlavə olunur).

**2.** Azərbaycan Respublikasının Energetika Nazirliyi bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 2 avqust 2023-cü il**

Azərbaycan Respublikası Prezidentinin
2023-cü il 2 avqust tarixli Fərmanı ilə təsdiq edilmişdir

## Bərpa olunan enerji mənbələrinin ərazisində elektrik enerjisi istehsalçısının seçilməsi qaydası

**1. Ümumi müddəalar**

1.1. Bu Qayda "Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında" Azərbaycan Respublikası Qanununun (bundan sonra – Qanun) 8.4, 8.6 və 9.3-cü maddələrinə əsasən, bərpa olunan enerji mənbələrinin ərazisində elektrik enerjisi istehsalçısının seçilməsi qaydasını, habelə istehsalçı ilə bağlanılan müqavilələrin xüsusiyyət və şərtlərini, eləcə də bərpa olunan enerji mənbələrinin ərazisində elektrik enerjisi istehsalçısının seçilməsi zamanı zəmanətli tariflərin formalaşdırılması meyarlarını müəyyən edir.

1.2. Bu Qaydada istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

1.2.1. hərrac – bərpa olunan enerji mənbələri ərazisində Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilən güc həddindən yuxarı elektrik enerjisi istehsal edəcək istehsalçının seçilməsi və elektrik enerjisinin satınalma müqaviləsində tətbiq ediləcək zəmanətli tarifin müəyyən edilməsi üçün açıq auksion və müsabiqə formasında keçirilən prosedur;

1.2.2. hərrac iştirakçısı – bu Qaydaya uyğun olaraq hərracda iştirak üçün təklif verən hüquqi şəxslər və ya hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər;

1.2.3. istehsalçı – elektrik stansiyasında elektrik enerjisi istehsal edən şəxs;

1.2.4. ixtisas uyğunluğunun müəyyənləşdirilməsi sənədi – ixtisas uyğunluğunun müəyyənləşdirilməsi mərhələsində səlahiyyətli orqan tərəfindən hərrac iştirakçılarına təqdim edilən və hərracda iştirak üçün tələbləri ehtiva edən sənəd;

1.2.5. ilkin texniki-iqtisadi əsaslandırma – layihənin icra müddətini, texniki, maliyyə, iqtisadi, ekoloji və sosial baxımdan icrasının mümkünlüyünü, habelə zəmanətləri və Qanunda nəzərdə tutulmuş təminatları ehtiva edən sənəd;

1.2.6. layihə – bərpa olunan enerji mənbələrinin ərazisində elektrik stansiyasının tikintisinə (quraşdırılmasına, cari və əsaslı təmirinə, yenidən qurulmasına, bərpasına), idarə edilməsinə və istismarına yönəlmiş təşkilati, hüquqi, elmi, texnoloji və iqtisadi tədbirlərin məcmusu;

1.2.7. müqavilə üzrə öhdəliklərin icrasına təminat – istehsalçının imzalanmış müqavilələr üzrə səlahiyyətli orqan qarşısında götürdüyü öhdəliklərə verilən təminat (bank zəmanəti, akkreditiv, qiymətli kağızlar, nağd pul vəsaiti, depozitlər və digər maliyyə aktivləri);

1.2.8. təkliflər sorğusu sənədi – hərracın qalibinin müəyyənləşdirilməsi mərhələsində səlahiyyətli orqan tərəfindən hərrac iştirakçılarına təqdim edilən, ixtisas uyğunluğu tələblərinə cavab verən və layihənin hüquqi, texniki və maliyyə aspektlərinə dair tələbləri ehtiva edən sənəd;

1.2.9. səlahiyyətli orqan – Qanunun 8.1-ci maddəsinə uyğun olaraq, bərpa olunan enerji mənbələrinin ərazisində elektrik enerjisi istehsalçısının seçilməsini həyata keçirən Azərbaycan Respublikasının Energetika Nazirliyi.

1.3. Bu Qaydada istifadə olunan digər anlayışlar Azərbaycan Respublikasının normativ hüquqi aktları ilə müəyyənləşdirilmiş mənaları ifadə edir.

1.4. Bərpa olunan enerji mənbələrinin ərazisində elektrik enerjisi istehsalçısının seçilməsi ilə bağlı tələb edilən məlumatlar (sənədlər) "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 30.5-ci maddəsində müəyyən edilmiş qaydada əldə olunur.

**2. Layihənin həyata keçirilməsinə dair şərtlər və tələblər**

2.1. Səlahiyyətli orqan, layihənin xüsusiyyətlərini nəzərə almaqla, onun həyata keçirilməsi ilə bağlı aşağıdakı tədbirləri görür:

2.1.1. layihənin icra ediləcəyi bərpa olunan enerji mənbələrinin ərazisi və elektrik stansiyasının gücü, elektrik enerjisi şəbəkəsinə qoşulma və infrastruktur məsələlərini həll edir;

2.1.2. dövlət və istehsalçı tərəfindən verilən təminatları, onların həcmini və müddətini müəyyən edir;

2.1.3. layihənin predmeti olan elektrik stansiyalarının tikintisi (quraşdırılması, cari və əsaslı təmiri, yenidən qurulması, bərpası) işlərinin başlanma və bitmə tarixlərini, tərəflər arasında tətbiq ediləcək dəbbə pulunun məbləğini müəyyən edir;

2.1.4. namizədlərə dair ixtisas uyğunluğunun müəyyənləşdirilməsi sənədində əks olunmuş meyarları (maliyyə göstəricilərini, həyata keçirdiyi layihələri, maddi-texniki potensialını, texnoloji həlləri, icra planını, yerli işçi qüvvəsi və yerli məhsullardan istifadə) müəyyən edir;

2.1.5. layihənin istismar müddəti başa çatdıqdan sonra elektrik stansiyasının utilizasiyası şərtlərini müəyyən edir;

2.1.6. təminat müddəti başa çatdıqdan sonra elektrik enerjisinin satışı və torpaqdan istifadə ilə bağlı məsələləri həll edir;

2.1.7. "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən tələb olunan lisenziyaların və icazələrin siyahısını müəyyən edir;

2.1.8. müqavilə tərəfləri arasında mübahisələrin həlli üsullarına dair təklifləri təqdim edir;

2.1.9. istehsalçının seçimi üçün təqdim ediləcək bərpa olunan enerji mənbələrinin ərazisi üçün Qanunun 6-cı maddəsi ilə müəyyən edilmiş tədbirləri həyata keçirir;

2.1.10. Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Qanunda və Azərbaycan Respublikasının digər qanunlarında nəzərdə tutulan digər şərtlərə riayət olunması üçün tədbirlər görür.

2.2. Layihənin səlahiyyətli orqan tərəfindən hazırlanan ilkin texniki-iqtisadi əsaslandırmasında ərazi üzrə bərpa olunan enerji mənbələrinin potensialı, layihənin gücü, layihənin ekoloji və sosial aspektləri, ərazi üzrə aparılmış tədqiqatlar, elektrik enerjisi şəbəkəsinə qoşulma, infrastruktur, topoqrafik məlumatlar, maliyyə təhlili, layihənin ilkin dəyəri ilə bağlı məlumatlar və layihənin texnoloji aspektləri əks olunur.

2.3. Qanunun 1.1.4-cü maddəsində nəzərdə tutulan obyektlərin layihələndirilməsi "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Azərbaycan Respublikası Qanununun əlavəsində nəzərdə tutulmuş fəaliyyət növlərinə aid olduqda, bu obyektlərə dair ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) sənədi hazırlanmalı və həmin sənədin dövlət ekoloji ekspertizası aparılmalıdır. ƏMTQ sənədinin hazırlanmasını hərrac və ya birbaşa cəlbetmə üsulu ilə seçilmiş istehsalçı təmin edir.

**3. Müqavilələrin şərtləri**

3.1. Qanunun 8.4-cü maddəsinə uyğun olaraq, aşağıdakı müqavilələr bağlanılır:

3.1.1. investisiya müqaviləsi – səlahiyyətli orqanla istehsalçı arasında;

3.1.2. elektrik enerjisinin satınalma müqaviləsi – zəmanətli alıcı ilə istehsalçı arasında;

3.1.3. elektrik şəbəkəsinə qoşulma müqaviləsi – elektrik stansiyasının qoşulacağı şəbəkədən asılı olaraq, dövlət elektroenergetika müəssisəsi və ya enerji təchizatı müəssisəsi ilə istehsalçı arasında.

3.2. Bu Qaydanın 3.1-ci bəndində nəzərdə tutulan müqavilələrə Azərbaycan Respublikası Mülki Məcəlləsinin, Qanunun, Azərbaycan Respublikasının digər qanunlarının, habelə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin tələbləri nəzərə alınmaqla aşağıdakılara dair məlumatlar daxil edilir:

3.2.1. müqavilənin tərəfləri;

3.2.2. müqavilənin predmeti və anlayışlar;

3.2.3. müqavilənin müddəti;

3.2.4. müqavilənin qüvvəyəminmə tarixi;

3.2.5. layihənin ümumi prinsipləri;

3.2.6. müqavilə üzrə tərəflərin öhdəlikləri, məsuliyyəti və təminatlar;

3.2.7. fors-major hallar;

3.2.8. müqaviləyə xitam verilməsinin əsasları;

3.2.9. müqaviləyə vaxtından əvvəl xitam verildikdə tərəflərin hüquq və öhdəlikləri;

3.2.10. sığorta məsələləri;

3.2.11. müqavilə üzrə tətbiq olunacaq normativ hüquqi aktlar;

3.2.12. mübahisələrin həlli qaydası;

3.2.13. müqavilədən irəli gələn məsələlərlə bağlı tərəflərin məlumatlandırılması qaydası;

3.2.14. müqavilənin dili;

3.2.15. xərclər;

3.2.16. müqavilədə dəyişiklik edilməsi qaydası və şərtləri;

3.2.17. məxfilik rejiminin təmin edilməsi şərtləri;

3.2.18. Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Qanunda və Azərbaycan Respublikasının digər qanunlarında, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə nəzərdə tutulan digər şərtlər.

3.3. Bu Qaydanın 3.1.1-ci yarımbəndində nəzərdə tutulan müqaviləyə bu Qaydanın 3.2-ci bəndində göstərilənlərdən əlavə, aşağıdakı şərtlər daxil edilir:

3.3.1. "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq alınmalı olan lisenziya və icazələrin siyahısı, habelə onların alınması ilə bağlı səlahiyyətli orqan və istehsalçının öhdəlikləri;

3.3.2. istehsalçı tərəfindən layihənin yerinə yetirilməsi təminatının şərtləri;

3.3.3. istehsalçının ölkənin iqtisadi inkişafına töhfələri ilə bağlı öhdəlikləri (yerli işçi qüvvəsi və podratçıların cəlbi, təlimlərin təşkili və s.);

3.3.4. səlahiyyətli orqan tərəfindən istehsalçıya layihənin icrası ilə bağlı verilən müstəsna hüquqların (layihədən əldə olunan gəlir, investisiya təşviqi sənədində nəzərdə tutulan güzəştlər və s.) məzmunu.

3.4. Bu Qaydanın 3.1.2-ci yarımbəndində nəzərdə tutulan müqaviləyə bu Qaydanın 3.2-ci bəndində göstərilənlərdən əlavə, aşağıdakı şərtlər daxil edilir:

3.4.1. layihənin predmeti olan elektrik stansiyasının istismar müddəti başa çatdıqdan sonra utilizasiya şərtləri;

3.4.2. tərəflərə layihə ilə bağlı xidmətlər göstərən mütəxəssisin təyin olunması qaydası, onun hüquq və vəzifələri, xidmət haqqının ödənilməsi şərtləri;

3.4.3. elektrik stansiyasının tikintisi (quraşdırılması, cari və əsaslı təmiri, yenidən qurulması, bərpası) müddətində hər hansı gecikmələr və tətbiq ediləbiləcək dəbbə pulu da daxil olmaqla elektrik enerjisinin alqı-satqısı ilə bağlı əməliyyatlar;

3.4.4. zəmanətli tarifin və digər ödəmələrin müəyyənləşdirildiyi valyuta və ödəniş şərtləri;

3.4.5. vergilər, gömrük və digər dövlət ödənişləri haqqında məlumat;

3.4.6. imzalanacaq digər müqavilələr haqqında məlumat;

3.4.7. Qanuna uyğun olaraq investora verilən təminatlar və onların yerinə yetirilməsi şərtləri, habelə investor tərəfindən verilən təminatlar;

3.4.8. ölçmələrə, ölçü cihazlarına dair tələblər;

3.4.9. hesablaşma, ödəniş şərtləri və ödəniş müddəti.

3.5. Bu Qaydanın 3.1.3-cü yarımbəndində nəzərdə tutulan müqaviləyə bu Qaydanın 3.2-ci bəndində göstərilənlərdən əlavə, aşağıdakı şərtlər daxil edilir:

3.5.1. elektrik stansiyasının elektrik enerjisi şəbəkəsinə qoşulması ilə bağlı tələblər;

3.5.2. qoşulma qurğuları ilə bağlı tərəflərin öhdəlikləri;

3.5.3. elektrik stansiyasının tikintisinə və istismarına dair tələblər;

3.5.4. elektrik stansiyasına və qoşulma qurğularına münasibətdə mülkiyyət hüququ;

3.5.5. elektrik enerjisi verilişinin dayandırılması və yenidən bərpası şərtləri;

3.5.6. qoşulma haqları;

3.5.7. elektrik stansiyasının və digər tikililərin idarə edilməsi müddətində texniki xidmət və təmirlə bağlı tələblər;

3.5.8. həyata keçirilən fəaliyyət haqqında səlahiyyətli orqana təqdim olunan dövri (aylıq, rüblük, illik) hesabatlar;

3.5.9. bərpa olunan enerji mənbəyi ilə bağlı proqnoz məlumatları;

3.5.10. təhlükəsizlik qaydaları və mühafizə avadanlığı;

3.5.11. ölçmələrə, ölçü cihazlarına dair tələblər;

3.5.12. hesablaşma, ödəniş şərtləri və ödəniş müddəti.

*(ardı 7-ci səhifədə)*

Azərbaycan Respublikası Prezidentinin
2023-cü il 2 avqust tarixli Fərmanı ilə təsdiq edilmişdir

# Bərpa olunan enerji mənbələrinin ərazisində elektrik enerjisi istehsalçısının seçilməsi qaydası

(əvvəli 6-cı səhifədə)

3.6. Elektrik enerjisinin satınalma müqaviləsi üzrə verilmiş təminatın müddəti müəyyənləşdirilərkən investisiya xərclərinin (əldə ediləcək gəlir daxil olmaqla) və investisiya məqsədilə götürülmüş kreditlərin geri qaytarılması müddəti, habelə layihənin xüsusiyyətləri, ərazidə bərpa olunan enerji mənbələrinin potensialı və investisiyanın məbləği nəzərə alınmalıdır.

3.7. Təminat müddəti başa çatdıqdan sonra istehsalçı ilə elektrik enerjisinin alıcısı arasında münasibətlər elektroenergetika sahəsinə aid normativ hüquqi aktlarla tənzimlənir.

3.8. Təminat müddətinin başa çatması torpaqdan və su obyektlərindən istifadə, infrastruktur məsələləri, o cümlədən istehsal olunan enerjinin elektrik enerjisi şəbəkəsi ilə ötürülməsi ilə bağlı tərəflərin hüquq və öhdəliklərinə təsir etmir. Bu hüquq və öhdəliklər tərəflər arasında bağlanılmış müqavilələrə və Azərbaycan Respublikasının mülki qanunvericiliyinə uyğun olaraq tənzimlənir.

3.9. Elektrik stansiyasının utilizasiyası səlahiyyətli orqanla istehsalçı arasında bağlanılan investisiya müqaviləsi ilə müəyyən edilmiş elektrik stansiyasının istismar müddəti başa çatdıqdan sonra həyata keçirilir. Utilizasiya şərtləri həmin müqavilə ilə müəyyən edilir.

3.10. Elektrik stansiyasının utilizasiyası istehsalçı tərəfindən təmin edildikdən sonra tərəflər arasında imzalanmış bütün müqavilələr üzrə öhdəliklər (müqavilələrdə nəzərdə tutulan fərqli hallar istisna olmaqla) başa çatmış hesab olunur.

3.11. Bu Qaydaya və hərrac şərtlərinə uyğun olaraq hərrac iştirakçısı olan istehsalçı aşağıdakılarla bağlı təminat verir:

3.11.1. iştirakçılar tərəfindən təqdim edilən hərrac təklifinə;

3.11.2. layihənin tikintisi ilə bağlı öhdəliklərin imzalanacaq müqavilə ilə müəyyən edilən müddətdə və qaydada icrasına.

3.12. Səlahiyyətli orqan hərrac təklifinin təminatını ilkin texniki-iqtisadi əsaslandırmada əksini tapmış layihənin ilkin dəyərinin 1 faizi məbləğində müəyyənləşdirir. Təminatın qüvvədəolma müddəti hərrac təklifinin qüvvədəolma müddətindən 30 (otuz) təqvim günü çox olmalıdır.

3.13. Səlahiyyətli orqan müqavilə üzrə öhdəliklərin icrasına təminatı ilkin texniki-iqtisadi əsaslandırmada əksini tapmış layihənin ilkin dəyərinin 2–5 faizi məbləğində müəyyənləşdirir. Təminatın qüvvədəolma müddəti elektrik stansiyasının istismara verildiyi müddətdən 30 (otuz) təqvim günü çox olmalıdır.

3.14. Bu Qaydanın 3.1-ci bəndində göstərilən müqavilələrdə nəzərdə tutulduğu halda, səlahiyyətli orqan müqavilələrin şərtlərinə əməl olunmasına dair monitorinq aparır.

**4. Zəmanətli tariflərin formalaşdırılması meyarları**

4.1. Zəmanətli tariflər bərpa olunan enerji mənbələrinin ərazisində elektrik enerjisi istehsalçısının seçilməsi üçün keçirilən hərrac vasitəsilə, istehsalçı birbaşa cəlbetmə yolu ilə seçildikdə isə Qanunun 9.3-cü maddəsinə uyğun olaraq, istehsalçı ilə səlahiyyətli orqan arasında əldə edilmiş razılıq əsasında müəyyən edilir.

4.2. İstehsalçı birbaşa cəlbetmə yolu ilə seçildikdə, zəmanətli tariflərin müəyyənləşdirilməsi zamanı investisiya xərcləri (əldə ediləcək gəlir daxil olmaqla), bərpa olunan enerji mənbələrinin potensialı və elektrik enerjisinin istehsal gücü əsasında ehtimal olunan elektrik enerjisi istehsalının həcmi, layihənin xüsusiyyətləri, quraşdırılacaq qurğuların göstəriciləri, investisiyanın geri qaytarılma müddəti nəzərə alınır.

4.3. Bərpa olunan enerji mənbələrinin ərazisində elektrik enerjisi istehsalçısının seçilməsi zamanı səlahiyyətli orqan zəmanətli tarifin yuxarı həddini müəyyən edir. Zəmanətli tarifin yuxarı həddi mövcud istehsalçıdan satınalma tarifindən yüksək olduğu təqdirdə, səlahiyyətli orqan Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırmaqla, zəmanətli tarifin yuxarı həddini müəyyən edir.

4.4. Hərrac iştirakçıları zəmanətli tarifin yuxarı həddi barəsində məlumatlandırılır və bu həddən yüksək təkliflər nəzərə alınmır. Elektrik enerjisi istehsalçısı birbaşa cəlbetmə yolu ilə seçildikdə, müəyyənləşdirilən zəmanətli tariflər yuxarı həddən yüksək ola bilməz.

**5. Bərpa olunan enerji mənbələrinin ərazisində elektrik enerjisi istehsalçısının seçilməsi üsulları**

5.1. Bərpa olunan enerji mənbələrinin ərazisində elektrik enerjisi istehsalçısının seçilməsi üçün Qanunun 8.1-ci maddəsinə uyğun olaraq, səlahiyyətli orqan aşağıdakı üsullardan birini tətbiq edir:

5.1.1. birbaşa cəlbetmə;

5.1.2. hərracın keçirilməsi.

5.2. Dövlətin maraqları və strateji əhəmiyyət baxımından zəruri olan pilot və digər layihələr birbaşa cəlbetmə üsulu əsasında həyata keçirilir. Bu zaman səlahiyyətli orqan müvafiq əsaslandırmanı hazırlayır və birbaşa cəlbetmə üsuluna icazə verilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidentinə müraciət edir.

5.3. Bərpa olunan enerji mənbələrinin ərazisində elektrik enerjisi istehsalçısının seçilməsi üçün keçirilən hərrac baş tutmadıqda, elektrik enerjisi istehsalçısı bu Qaydanın 5.2-ci bəndinə uyğun olaraq seçilir.

5.4. Azərbaycan Respublikası Prezidentinin elektrik enerjisi istehsalçısının birbaşa cəlbetmə yolu ilə seçilməsinə dair razılığı əsasında səlahiyyətli orqan birbaşa cəlbetmə üsulu ilə istehsalçının seçilməsi üçün danışıqlara başlayır və danışıqların nəticəsinə uyğun olaraq, Qanunun 8.4-cü maddəsinə əsasən investisiya müqaviləsi bağlanılır.

5.5. Hərracın keçirilməsi zamanı hərrac iştirakçılarına bərabər və tamhüquqlu iştirak imkanı yaradılır.

5.6. Hərracın keçirilməsi zamanı hərracın baş tutmuş hesab edilməsi üçün hərracın ixtisas uyğunluğunun müəyyənləşdirilməsi və təkliflər sorğusu sənədinin hazırlanması mərhələlərinin hər birində azı 2 (iki) namizəd iştirak etməlidir. Namizədlərin sayı ikidən az olduqda və ya hərracın iştirakçısı olmadıqda, hərrac baş tutmamış hesab edilir.

5.7. Elektrik enerjisinin tarifi tək meyar olduqda hərrac açıq auksion formasında, tariflə yanaşı bu Qaydanın 5.9-cu bəndində nəzərdə tutulan digər meyarların qiymətləndirilməsi nəzərdə tutulduqda isə hərrac açıq müsabiqə formasında keçirilir.

5.8. Hərrac auksion formasında keçirildiyi halda ən aşağı qiymət təklifi etmiş şəxs, müsabiqə formasında keçirildiyi halda isə hərrac komissiyasının rəyinə əsasən bu Qaydanın 5.9-cu bəndində nəzərdə tutulan meyarlar üzrə ən əlverişli şərtlər təklif etmiş şəxs hərracın qalibi sayılır.

5.9. Səlahiyyətli orqan hərracın müsabiqə formasında elektrik enerjisi istehsalçısını seçmək üçün elektrik enerjisinin tarifindən əlavə, istehsalçının maliyyə göstəriciləri, həyata keçirdiyi layihələr, maddi-texniki potensialı, texnoloji həlləri, icra planı, yerli işçi qüvvəsi və yerli məhsullardan istifadə kimi meyarları da tətbiq edir.

**6. Elektrik enerjisi istehsalçısının hərrac yolu ilə seçilməsi**

6.1. Səlahiyyətli orqan hərracın keçirilməsi üçün aşağıdakı tədbirləri həyata keçirir:

6.1.1. hərrac komissiyası yaradır;

6.1.2. ixtisas uyğunluğunun müəyyənləşdirilməsi sənədini hazırlayır;

6.1.3. təkliflər sorğusu sənədini hazırlayır;

6.1.4. hərrac elanını dərc edir;

6.1.5. hərracın formasını müəyyən edir;

6.1.6. əlaqələndirici şəxsi müəyyən edir.

6.2. İxtisas uyğunluğunun müəyyənləşdirilməsi və təkliflər sorğusu sənədləri, habelə hərrac iştirakçılarına təqdim olunan digər məlumatlar Azərbaycan dilində və beynəlxalq ticarətdə geniş istifadə olunan dillərdən birində tərtib edilir. Hərrac iştirakçıları tələb olunan sənədləri və məlumatları Azərbaycan dilində və beynəlxalq ticarətdə geniş istifadə olunan dillərdən birində təqdim edirlər. Azərbaycan dilində təqdim edilməli olan sənədlərin siyahısı hərrac komissiyası tərəfindən müəyyən olunur.

6.3. Hərrac iştirakçılarından daxil olmuş təkliflərə baxılma, ixtisas uyğunluğunun müəyyənləşdirilməsi və hərracın qalibinin seçilməsi məqsədilə səlahiyyətli orqan hərrac komissiyası yaradır. Hərrac komissiyası bu Qaydanın 3.1.1-ci yarımbəndində qeyd olunmuş müqavilə bağlanılanadək fəaliyyət göstərir.

6.4. Hərrac komissiyası sədr də daxil olmaqla 11 (on bir) üzvdən ibarət olmaqla səlahiyyətli orqan tərəfindən yaradılır. Hərrac komissiyasının sədrini səlahiyyətli orqanın rəhbəri səlahiyyətli orqanın nümayəndələri arasından təyin edir. Hərrac komissiyasının tərkibi aşağıdakı dövlət orqanlarının (qurumlarının) nümayəndələrindən formalaşdırılır:

6.4.1. səlahiyyətli orqanın nümayəndələri – 4 nəfər;

6.4.2. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin nümayəndəsi – 2 nəfər;

6.4.3. Azərbaycan Respublikası Maliyyə Nazirliyinin nümayəndəsi – 1 nəfər;

6.4.4. Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin nümayəndəsi – 1 nəfər;

6.4.5. zəmanətli alıcının nümayəndəsi – 1 nəfər;

6.4.6. elektrik stansiyasının qoşulduğu şəbəkədən asılı olaraq, dövlət elektroenergetika müəssisəsinin və ya enerji təchizatı müəssisəsinin nümayəndəsi – 1 nəfər;

6.4.7. bərpa olunan enerji mənbələri ərazisinin yerləşdiyi müvafiq inzibati ərazi vahidi üzrə yerli icra hakimiyyəti orqanının nümayəndəsi – 1 nəfər.

6.5. Hərrac komissiyası fəaliyyətinə müstəqil ekspertləri və mütəxəssisləri cəlb edə bilər.

6.6. Hərrac komissiyasının qərarları açıq səsvermə yolu ilə komissiya üzvlərinin sadə səs çoxluğu ilə qəbul edilir. Səslər bərabər olduqda, hərrac komissiyası sədrinin səsi həlledicidir. Hərrac komissiyanın sədri sonda səs verir. Hərrac komissiyasının iclasları onun üzvlərinin azı üçdə ikisi iştirak etdikdə səlahiyyətlidir.

6.7. Səlahiyyətli orqan onlayn və çap mediasında, habelə beynəlxalq miqyasda yayılan mediada ixtisas uyğunluğunun müəyyənləşdirilməsi sənədinin açıqlanmasına azı 10 (on) iş günü qalmış hərrac elanını dərc edir.

6.8. Hərrac elanında aşağıdakı məlumatlar göstərilir:

6.8.1. hərracı keçirən səlahiyyətli orqan haqqında məlumat;

6.8.2. hərracın forması (açıq auksion və ya müsabiqə);

6.8.3. hərracla bağlı ümumi məlumatlar, o cümlədən bərpa olunan enerji mənbələrinin növü, layihənin həyata keçiriləcəyi bərpa olunan enerji mənbələrinin ərazisi və elektrik stansiyasının gücü;

6.8.4. ixtisas uyğunluğunun müəyyənləşdirilməsi sənədinin əldə edilməsi ilə bağlı məlumatlar, ixtisas uyğunluğunun müəyyənləşdirilməsi sənədinin açıqlanması və bu mərhələnin başaçatma tarixi;

6.8.5. sənəd qəbuluna məsul şəxsin və əlavə məlumat almaq üçün əlaqələndirici şəxsin soyadı, adı, atasının adı, vəzifəsi və əlaqə vasitələri (telefon nömrəsi, elektron poçt ünvanı);

6.8.6. hərracda iştirakla bağlı təkliflərin hazırlandığı dil (dillər).

6.9. Hərrac elanı Azərbaycan dilində və beynəlxalq ticarətdə geniş istifadə olunan dillərdən birində dərc edilir.

6.10. Hərrac komissiyası ixtisas uyğunluğunun müəyyənləşdirilməsi mərhələsində iştirak üçün nəzərdə tutulmuş meyarlara uyğun gələn iştirakçılara bilavasitə özü də məlumat verə bilər.

6.11. İxtisas uyğunluğunun müəyyənləşdirilməsi və təkliflər sorğusu sənədləri hərrac komissiyası tərəfindən bu Qaydanın 7-ci və 8-ci hissələrinə uyğun olaraq iştirak hüququ qazanmış hərrac iştirakçısına göndərilir. Sənədlər iştirakçıya səlahiyyətli orqan tərəfindən təqdim edilir, yaxud sifarişli poçt göndərişi və ya elektron poçt vasitəsilə göndərilir. İştirakçı sənədləri bilavasitə səlahiyyətli orqandan da götürə bilər.

6.12. Hərrac iştirakçısı təkliflərini hərrac komissiyası tərəfindən verilmiş təlimatlara və formaya uyğun olaraq təqdim edir. Bu Qaydanın tələbləri pozulmaqla, habelə müddət başa çatandan sonra təqdim olunan təkliflər qəbul edilmir.

**7. İxtisas uyğunluğunun müəyyənləşdirilməsi**

7.1. İştirakçıların ixtisas göstəricilərinin qiymətləndirilməsi və təkliflər sorğusu göndəriləcək iştirakçıların siyahısını müəyyənləşdirmək məqsədilə ixtisas uyğunluğunun müəyyənləşdirilməsi sənədi hazırlanır. İxtisas uyğunluğunun müəyyənləşdirilməsi mərhələsi ixtisas uyğunluğunun müəyyənləşdirilməsi sənədinin açıqlanması tarixindən ən geci 90 (doxsan) iş günü ərzində yekunlaşır.

7.2. İxtisas uyğunluğunun müəyyənləşdirilməsi sənədini səlahiyyətli orqan hazırlayır və hərracda iştirak üçün müraciət etmiş iştirakçılara müraciət edildiyi tarixdən ən geci 5 (beş) iş günü ərzində bu Qaydanın 6.11-ci bəndinin ikinci cümləsində nəzərdə tutulan qaydada göndərir.

7.3. İxtisas uyğunluğunun müəyyənləşdirilməsi sənədinə, bu Qaydanın 2.2-ci bəndinə əsasən hazırlanmış ilkin texniki-iqtisadi əsaslandırmaya uyğun olaraq, layihə haqqında qısa məlumat əlavə olunur.

7.4. Hərrac komissiyası hərracın ixtisas uyğunluğunun müəyyənləşdirilməsi mərhələsinin keçirilməsi vaxtı və yeri, sənədlərin təqdim olunması üsulu, yeri və son müddəti barədə məlumatları, habelə həmin mərhələdə iştirak üçün təkliflərin hazırlanması, təqdim edilməsi, izah verilməsi ilə bağlı təlimatı, əlaqələndirici şəxs barədə məlumatı iştirakçılara təqdim edir.

7.5. Hərrac iştirakçıları ixtisas uyğunluğunun qiymətləndirilməsi ilə bağlı məlumatları ixtisas uyğunluğunun müəyyənləşdirilməsi sənədinin açıqlanması tarixindən ən geci 50 (əlli) iş günü ərzində səlahiyyətli orqana 2 (iki) nüsxədə təqdim edirlər.

7.6. Səlahiyyətli orqan bu Qaydanın 7.5-ci bəndi ilə müəyyən edilmiş müddətin başa çatmasına 20 (iyirmi) iş günü qalana qədər ixtisas uyğunluğunun müəyyənləşdirilməsi sənədində dəyişiklik edə bilər. Bununla əlaqədar hərrac komissiyası hərrac iştirakçılarını məlumatlandırır və dəyişikliklə bağlı iştirakçılar tərəfindən məlumatların təqdim edilməsi üçün imkan yaradır.

7.7. Hərrac komissiyası zərflərin açılmasını, hərrac iştirakçısı tərəfindən təqdim edilmiş sənədlərə və məlumatlara baxılmanı, onların qiymətləndirilməsini, habelə təkliflər sorğusu mərhələsində iştirak edəcək hərrac iştirakçılarının müəyyənləşdirilməsini həyata keçirir.

7.8. Zərflər açılarkən təqdim edilən məlumatlarda hər hansı bir çatışmazlıq aşkar olunduqda, hərrac komissiyası bu barədə iştirakçıya zərflərin açıldığı gündən 3 (üç) iş günü ərzində məlumat verərək, çatışmazlığın aradan qaldırılmasını təklif edir. İştirakçı məlumatı aldığı gündən 5 (beş) iş günü ərzində çatışmazlığı aradan qaldırmadıqda, hərracdan kənarlaşdırılır və hərrac komissiyası tərəfindən 3 (üç) iş günü ərzində bu barədə ona məlumat verilir.

7.9. Hərrac komissiyasının ixtisas uyğunluğunun müəyyənləşdirilməsinə dair qərarı ixtisas uyğunluğunun müəyyənləşdirilməsi sənədində nəzərdə tutulmuş meyarlara əsasən qəbul edilir.

7.10. Bu Qaydanın 7.8-ci bəndində nəzərdə tutulan prosedurlar başa çatdıqdan sonra təkliflər sorğusu göndəriləcək hərrac iştirakçılarının siyahısı hərrac komissiyası tərəfindən təsdiq edilir.

7.11. Bu Qaydanın 7.12-ci bəndinə uyğun olaraq, iştirakçıların siyahısı təsdiq edildikdən sonra 5 (beş) iş günündən gec olmayaraq, hərrac iştirakçısına ixtisas uyğunluğunun müəyyənləşdirilməsi mərhələsinin nəticəsi haqqında yazılı məlumat verilir.

7.12. Məlumatın alındığı gündən 5 (beş) iş günü ərzində qərara yenidən baxılma ilə bağlı hərrac iştirakçısı hərrac komissiyasına müraciət etmək hüququna malikdir. Müraciətə onun verildiyi tarixdən 3 (üç) iş günü ərzində baxılır. Hərrac iştirakçısına və ya onun səlahiyyətli nümayəndəsinə müraciətin nəticəsi barədə 3 (üç) iş günündən gec olmayaraq məlumat verilir.

7.13. Bu Qaydanın 7.12-ci bəndində nəzərdə tutulan müraciətlərə baxıldıqdan sonra hərrac komissiyası ixtisas uyğunluğunun müəyyənləşdirilməsi mərhələsini yekunlaşdırır.

**8. Təkliflər sorğusu**

8.1. Təkliflər sorğusu mərhələsinin məqsədi ixtisas uyğunluğunun müəyyənləşdirilməsi mərhələsindən keçmiş hərrac iştirakçıları arasında qiymətləndirmə aparmaqla hərracın qalibini müəyyənləşdirməkdir.

8.2. Təkliflər sorğusu sənədini aşağıdakı məlumatlar əks olunmaqla, səlahiyyətli orqan hazırlayır:

8.2.1. hərraca çıxarılan layihənin ətraflı təsviri (layihənin məqsədi, layihənin həyata keçiriləcəyi yer, elektrik stansiyasının gücü);

8.2.2. təkliflər sorğusu sənədinin hazırlanmasına və təqdim edilməsinə dair təlimat;

8.2.3. hərraca çıxarılan layihənin texniki şərtləri;

8.2.4. hərraca çıxarılan layihənin icrası zamanı müqavilə münasibətlərinə tətbiq edilən normativ hüquqi aktlar;

8.2.5. layihənin həyata keçirilməsi üçün zəruri olan lisenziya və icazələrin siyahısı;

8.2.6. layihənin icrası üzrə istehsalçı ilə bağlanılacaq müqavilələr;

8.2.7. infrastruktur (nəqliyyat, su və elektrik enerji şəbəkələri) barədə məlumatlar;

8.2.8. hərracın qiymətləndirmə meyarları;

8.2.9. layihənin icrası ilə bağlı ekoloji tələblər;

8.2.10. səlahiyyətli orqan və zəmanətli alıcı, layihənin icrası ilə bağlı digər dövlət orqanları (qurumları) və yerli özünüidarəetmə orqanları haqqında məlumatlar.

8.3. Təkliflər sorğusu sənədi bu Qaydanın 7-ci hissəsinə uyğun olaraq təkliflər sorğusu mərhələsində iştirak hüququ qazanmış hərrac iştirakçılarına hərracın ixtisas uyğunluğunun müəyyənləşdirilməsi mərhələsi başa çatdıqdan sonra 5 (beş) iş günü ərzində bu Qaydanın 6.11-ci bəndinin ikinci cümləsində nəzərdə tutulmuş qaydada göndərilir.

8.4. Hərracın təkliflər sorğusu mərhələsi təkliflər sorğusu sənədinin göndərildiyi tarixdən ən geci 200 (iki yüz) iş günü ərzində keçirilir.

8.5. Hərrac iştirakçısı təkliflər sorğusu sənədini aldığı tarixdən ən geci 120 (yüz iyirmi) iş günü ərzində bu Qaydanın 8.2.2-ci yarımbəndinə uyğun olaraq, təkliflərini qapalı zərfdə 2 (iki) nüsxədə təqdim edir.

8.6. Səlahiyyətli orqan təkliflər sorğusu sənədi göndərilmiş hərrac iştirakçılarının layihənin həyata keçiriləcəyi ərazi ilə tanışlıq və layihə ilə bağlı məlumatların təqdim edilməsi üçün müzakirələr təşkil edir.

8.7. Hərracın müsabiqə forması aşağıdakı qaydada həyata keçirilir:

8.7.1. hərrac komissiyasının üzvləri müsabiqə zamanı səlahiyyətli orqan tərəfindən hazırlanmış təkliflər sorğusu sənədi, habelə istehsalçı qarşısında müəyyən edilən şərtlər və tələblər çərçivəsində hazırlanmış hərrac iştirakçılarının təkliflərinin qiymətləndirilmə meyarlarını rəhbər tuturlar;

8.7.2. bütün zərflər açıldıqdan və qiymətləndirmə başa çatdıqdan sonra hərrac komissiyası ayrı-ayrılıqda bütün iştirakçılara dair qiymətləndirmə nəticələrini əks etdirən qiymətləndirilmə formasını doldurur. Təkliflərin qiymətləndirilməsi forması səlahiyyətli orqan tərəfindən müəyyən olunur;

8.7.3. hərrac iştirakçısının qiymətləndirilmə meyarları üzrə balları toplanaraq yekun balı müəyyən edilir, ən yüksək bal toplamış iştirakçı müsabiqənin qalibi elan edilir;

8.7.4. iki və daha artıq iştirakçının yekun balı eyni olduqda, hərrac komissiyası ən aşağı tarif təklifi təqdim etmiş iştirakçını müsabiqənin qalibi elan edir.

8.8. Elektrik enerjisinin tarifi qiymətləndirmə meyarı olduğu halda hərracın auksion forması aşağıdakı ardıcıllıqla keçirilir:

8.8.1. hərrac elanı ilə təqdim edilmiş tarifdən yuxarı tarif təklifləri təqdim etmiş hərrac iştirakçılarının təklifləri qəbul olunmur və geri qaytarılır;

8.8.2. hərrac komissiyası tərəfindən təklif zərfləri açıldıqdan sonra təqdim olunmuş təkliflərə əsasən qiymət sıralanır və iştirakçılardan (hərrac iştirakçılarının sayı 5-dən çox olduqda 5, 5-dən az olduqda isə iştirakçıların sayına uyğun) qiymət təklifinin aşağı salınması istiqamətində yeni təkliflər alınır. Həmin proses sıralamada ən yüksək qiymət təklifi vermiş iştirakçıdan başlayır və təklif edilmiş ən aşağı qiymət təklifi əsas götürülür. Azalma sırası ilə iştirakçılar tərəfindən hər dəfə təklif edilən əvvəlki ən aşağı qiymətdən hərrac komissiyası tərəfindən müəyyən edilmiş həddə uyğun azaltma edilir;

8.8.3. təklif sahiblərinin təklifləri hərrac komissiyası tərəfindən aktla rəsmiləşdirilir. Bu zaman həmin akt hərrac komissiyası üzvləri və təklif sahibləri tərəfindən imzalanır;

8.8.4. auksion son təklifə çatdıqda dayandırılır. Son təklifini verən və yeni təklif irəli sürməyən iştirakçı qiymət azaltma ilə bağlı bu Qaydanın 8.8.3-cü yarımbəndində nəzərdə tutulan aktı imzalayaraq auksionda bir daha təklif vermir.

8.5. Elektrik enerjisinin zəmanətli alıcı tərəfindən satın alınması üçün ən aşağı qiymət təklifi vermiş iştirakçı auksionun qalibi hesab olunur.

**9. Yekun müddəalar**

9.1. Hərracın nəticəsi hərrac komissiyası və hərracın qalibi tərəfindən imzalanmış protokolla rəsmiləşdirilir. Nəticə ilə razı olmayan komissiya üzvləri xüsusi rəy əlavə etməklə protokolu imzalayırlar.

9.2. Hərracda ilk 3 (üç) yeri tutmuş iştirakçılar istisna olmaqla, digər iştirakçıların təminatı hərrac başa çatandan sonra 3 (üç) iş günü ərzində geri qaytarılır.

9.3. Hərracın qalibi ilə səlahiyyətli orqan arasında investisiya müqaviləsi hərrac başa çatandan sonra 20 (iyirmi) iş günü ərzində imzalanır və hərracın qalibi müqavilə üzrə öhdəliklərin icrasına təminatı təqdim edir.

9.4. Hərracın qalibi müqaviləni imzalamaqdan imtina etdiyi təqdirdə, verdiyi hərrac təklifinin təminatını itirir, səlahiyyətli orqan hərracda ondan sonrakı yeri tutmuş iştirakçıya investisiya müqaviləsinin imzalanması təklifini göndərir.

9.5. İnvestisiya müqaviləsi imzalandıqdan sonra 3 (üç) iş günü ərzində bu Qaydanın 9.2-ci bəndində nəzərdə tutulmuş digər iştirakçıların təminatı geri qaytarılır.

9.6. Qanuna, bu Qaydaya və investisiya müqaviləsinə uyğun olaraq investisiya müqaviləsini imzalamış hərracın qalibi ilə zəmanətli alıcı arasında elektrik enerjisinin satınalma müqaviləsi, elektrik stansiyasının qoşulacağı şəbəkədən asılı olaraq dövlət elektroenergetika müəssisəsi və ya enerji təchizatı müəssisəsi arasında isə elektrik şəbəkəsinə qoşulma müqaviləsi bağlanılır.

# Qalibiyyət missiyasını uğurla reallaşdıran lider

**Dövlət başçımızın daha bir möhtəşəm və mükəmməl müsahibəsini eşitdik, oxuduq və məmnun olduq. Bu müsahibənin ilk cümlələrini oxuyarkən elə güman edirdim ki, indicə cənab Prezidentin 44 günlük İkinci Qarabağ müharibəsi günlərində şahidi olduğumuz müsahibələrinin davamını görəcəyik. Çünki yenə də söhbət Azərbaycanın haqq işindən, Ermənistanın işğalçı siyasətinin fəsadlarından, İkinci Qarabağ müharibəsinin yaratdığı yeni reallıqlardan gedirdi. Üstəlik, müsahibə götürən də yenə Avropa mətbuatı, müsahibə verən isə türk dünyasının uğurlarını gözü götürməyən çoxsaylı bədxahların qarşısında mərdanəliklə dayanan sərkərdə, Azərbaycan Prezidenti idi.**



*Müharibədə qalib gəlmək mənim həyatımın, siyasi həyatımın missiyası idi. Müharibə də uğurla başa çatdı. Biz bir çox amillərə baxmadan müharibədə qalib gəldik: siyasi amillərə, bizim hərbçilərimiz üçün bir neçə müdafiə səddinin qırılmasını çətinləşdirən işğal edilmiş ərazilərdə uzunmüddətli infrastruktur layihələrinin olması amillərinə baxmadan. Bəzi yerlərdə onların minalarla dolu beş, digər yerlərdə isə yeddi müdafiə səddi var idi.*

*Azərbaycan Prezidenti İlham Əliyevin "Euronews" televiziyasına müsahibəsindən. Şuşa, 22 iyun 2023-cü il*

Ancaq gözlədiyimin əksinə oldu. Bu, 44 günlük müharibə dövrünün müsahibələrindən köklü surətdə fərqlənirdi. Çünki "Euronews"un əməkdaşı da hansısa ittihamlarla çıxış etmirdi (biz həmin günlərdə avropalı sıravi jurnalistlərin Azərbaycan Prezidenti ilə söhbət zamanı çoxsaylı ittihamlarla danışdığını az görməmişdik), dövlət başçımız da "basdığını kəsmək" iddiasından uzaq idi. Yəni yüzlərlə məsələdə müqəssir olan Ermənistan haqqında danışan Azərbaycan lideri olduqca yumşaq mövqe nümayiş etdirirdi. Bu fakt isə bir daha sübut edirdi ki, Azərbaycan həqiqətən sülhün tərəfdarıdır. Amma ədalətli sülhün. Dövlətimizin və xalqımızın maraqlarını, mənafelərini təmin edən sülhün. Bu zaman onu da xatırladaq ki, cənab Prezident dövlətimizin maraqlarını, xalqımızın mənafelərini müdafiə edərkən qətiyyən beynəlxalq hüququn prinsip və əsaslarını unutmur, əksinə, bütün bəşəri dəyərlərə hörmət və ehtiramla yanaşmağın nümunəsini yaradır.

Dövlət başçımızın cavablarındakı bəzi məqamları xatırlatmazdan əvvəl avropalı jurnalistin bir ifadəsini yada salmaq istəyirəm. "Euronews"un əməkdaşı Şuşa haqqında danışarkən dedi ki, cənab Prezident, bizi burada qəbul etdiyinizə görə Sizə çox minnətdarıq: "Bu bölgə Cənubi Qafqazın yeni tarixində bəzi ən zorakı epizodların cərəyan etdiyi səhnə olub". Fikrimizcə, Avropa mətbuatının təmsilçisi bu fikirlərlə erməni işğalının, barbarlığının, vəhşiliyinin miqyasından xəbərdar olduğunu demək istəyirdi. Yəni söhbət müasir Cənubi Qafqaz reallıqlarının hamıya gün kimi aydın olmasından gedirdi.

Azərbaycan Prezidenti isə İkinci Qarabağ müharibəsindən sonra yaranmış yeni reallıqlar barədə mülahizələrini dilə gətirdi. Cənab Prezident xatırlatdı ki, o, İkinci Qarabağ müharibəsindən sonra vəziyyətin fərqli olacağını düşünürdü: "Biz sülh üçün hazır idik və əslində bir az gözlədik ki, beynəlxalq iştirakçılar bizə müəyyən yeni təkliflər versinlər. 2020-ci il noyabrın 10-da Bəyanatı imzaladığımız zaman vəziyyət, əslində, dayanıqlı sülhü təmin etmirdi. O, sülh razılaşması deyildi, Bəyanat idi. Əslində, Ermənistanın kapitulyasiya aktı idi. Buna görə biz Ermənistanla münaqişənin yekun həll variantını tapmaq məqsədilə müəyyən təşəbbüslərlə çıxış etməyə başladıq və ictimaiyyət qarşısında bunu açıqladıq".

Doğrudan da, Azərbaycan həmin günlərdə sülh sazişinin imzalanması üçün lazım olan bütün addımları atmışdı. Çox keçmədi ki, Azərbaycan sülh sazişinin prinsiplərini müəyyən etdi və və qarşı tərəfə göndərdi. Həmin prinsiplər ölkələrin ərazi bütövlüyünün, suverenliyin və beynəlxalq sərhədlərin qarşılıqlı tanınması, sərhədlərin delimitasiyası, gücdən istifadə etməmə və ya güclə təhdid etməmə kimi beynəlxalq hüququn hamıya məlum olan prinsipləri idi. Ancaq qarşı tərəf və onların himayədarları heç bir normal addım atmadıqları kimi, normal təklifləri də qəbul etmək istəmədilər. Nəticədə, regiondakı gərginliyin artmasına səbəb oldular.

Dövlət başçımızın bu müsahibəsi zamanı məni – bəlkə də hamını maraqlandıran bir məqam da ortaya çıxdı. Daha doğrusu, indiyədək heç bir mətbuat təmsilçisi Azərbaycan Prezidentinə belə sual verməmişdi. "Euronews"un müxbiri soruşdu ki, qarşı tərəfə nə tövsiyə edərdiniz?

Dövlət başçımız xatırlatdı ki, həyatımda ilk dəfədir ki, mənə bu sual verilir. Ona görə də cavab vermək üçün sualın iki hissəyə bölünməsini təklif etdi: "Birincisi, əgər onlar mənim söylədiklərimə qulaq asırlarsa, mənim Ermənistandakı ermənilərə mesajım belədir ki, biz onların dövləti ilə sülh istəyirik, bizim Ermənistana qarşı ərazi iddialarımız yoxdur, baxmayaraq ki, müharibədən əvvəl yüz minlərlə azərbaycanlı Ermənistanda yaşayıb və bütövlüklə etnik təmizləməyə məruz qalıb, onların mədəni və dini irsi tamamilə məhv edilib. Bununla belə, bizim heç bir ərazi iddiamız yoxdur. Lakin biz düşünürük ki, Azərbaycan və Ermənistan əlaqələrini normallaşdıranda və diplomatik əlaqələr quranda, Ermənistandan zorla deportasiya olunmuş azərbaycanlıların qayıtmaq hüququ var".

Fikrimizcə, olduqca ədalətli, məntiqli və dünya təcrübəsinə əsaslanan cavabdır. Üstəlik, belə arqumenti heç bir erməninin nə zamansa dilə gətirəcəyinə də inanmaq olmur.

O ki qaldı, Azərbaycanın Qarabağ iqtisadi rayonunda yaşayan ermənilərə Azərbaycan Prezidentinin verəcəyi tövsiyəyə, cənab dövlət başçısı bu missiyanı yerinə yetirmək istəyindən də uzaq olduğunu söylədi və əlavə etdi ki, Qarabağdakı ermənilərə gəlincə, onlar qondarma liderlərinin arxasınca getməməlidirlər. Bu "liderlər", – hazırkı və bundan əvvəlki "liderlər", – onlara bütün bu müddət ərzində – müharibədən əvvəl, müharibə zamanı qalib gəldiklərini deyəndə yalan danışıblar. Hətta biz Şuşaya nəzarəti ələ alanda onlar deyirdilər ki, Şuşa onların nəzarəti altındadır. Onlar bunu çox yaxşı bilirlər. Onlar Xankəndidə hakimiyyəti ələ keçirmiş və əsas məqsədi öz maraqlarını güdmək olan bugünkü rejimin girovuna çevrilməməlidirlər.

Bəli, zaman başqadır. İndi artıq heç kəsi aldatmaq mümkün deyil. Erməni siyasətçiləri də tarixi "mifyaratma" ənənəsindən ayrılmalı, günün reallıqları ilə barışmalıdırlar. Həmin bədnam ənənədən ayrılsalar, yaxud tarixən içərisində yaşadıqları xülyalardan ayılsalar, onda Cənubi Qafqaza sülh də gələcək, bu regiondakı nəinki hər üç xalq, hətta, etnik azlıqlar da azadlıq, firavanlıq içərisində yaşayacaq, gələcəyə daha böyük ümidlərlə baxacaqlar. Hələlik isə pandemiya şəklini almış ermənilik xəstəliyi regionun aydın sabahını şübhə altına almaqdadır.

*İttifaq MİRZƏBƏYLİ,*
*"Xalq qəzeti"*

# "Sem dayı" da bu yandan çıxdı

**ABŞ Beynəlxalq İnkişaf Agentliyinin rəhbəri Samanta Pauer özünün Twitter hesabında Qarabağ erməniləri ilə bağlı status paylaşıb. Statusunda "Qarabağda ərzaq təhlükəsizliyinin mövcud olmamasından" narahatlığını bildirən Pauer bölgədə dərman çatışmazlığının mövcudluğunu vurğulayıb: "Laçın dəhlizi Dağlıq Qarabağ əhalisinin zəruri mallarla təchizatı üçün həlledici əhəmiyyətə malikdir. Mən Dövlət katibi Blinkenin dəhliz vasitəsilə kommersiya və humanitar yüklərin azad tranzitinə dair çağırışına qoşuluram".**

Okeanın o tayından separatçılara ən böyük dəstək isə siyasətçi Sem Braunbekdən gəlib. Qarabağdakı "xristianların" vəziyyətinin acınacaqlı olduğunu bildirən Braunbek Azərbaycana qarşı sanksiyalar tətbiq etməyin vacibliyini vurğulayıb. O qeyd edib ki, Azərbaycana qarşı sanksiyaların tətbiqi "işlərin daha da pisləşməsinin qarşısını ala bilər": "Dağlıq Qarabağda xristianların vəziyyəti getdikcə pisləşir. Laçın dəhlizinin açıq qalması ilə bağlı razılaşmaya baxmayaraq, yol bloklanıb. İşlər daha da pisləşməzdən əvvəl Azərbaycana humanitar qanun pozuntularına görə sanksiya tətbiq edilməlidir".

Göründüyü kimi, erməni lobbisi ABŞ-dakı ermənipərəst dairələri hərəkətə gətirib və onların dini təəssübkeşliyi ilə separatçıların beynəlxalq miqyasda müdafiəsini təşkil etməyə çalışır. Qarabağdakı ermənilərin "blokada"da saxlanılması, bölgədə humanitar böhranın olması barədə yalanın ayaq açlb yeriməsi də məhz buna xidmət edir.

## Vicdan dəllalları "ədalət mücahidi" rolunda...

İstər Samanta Pauer, istərsə də Sem Braunbekin bəyanatında bir-birini təkrarlayan xeyli məqam var. Bunlar Qarabağ ermənilərinin blokada vəziyyətində olması, humanitar böhranla üz-üzə qalması, ərzaq və dərman təchizatından məhrum edilməsi və s. kimi yalanlardır. Qeyd edək ki, hər iki şəxs heç vaxt Laçın sərhəd nəzarət-buraxılış məntəqəsində olmayıb, bu məntəqədən istifadə edən ermənilərin foto-video görüntüləri ilə bağlı Azərbaycan tərəfinin mütəmadi ictimailəşdirdiyi məlumatları məqsədli şəkildə görməzdən gəlib. Ən əsası, rəsmi Bakının Laçın sərhəd buraxılış məntəqəsində hərəkəti ara-sıra hansı səbəbdən məhdudlaşdırdığı haqqında təkidlə susub. Çünki hər iki şəxsə yaxşı məlumdur ki, Azərbaycanın Laçın sərhəd-keçid məntəqəsindən istifadəni məhdudlaşdırmasına səbəb ermənilərin mütəmadi şəkildə bölgədə həyata keçirdiyi terror aktları olub.

Əslində, bölgədə heç bir blokadanın olmadığı, Qarabağ ermənilərinin sosial rifahının İrəvan ermənilərindən daha yaxşı olması da Samanta və Braunbekə bəlli olan həqiqətlərdəndir. Əgər Xankəndidə və ətraf ərazilərdəki ermənilərin vəziyyəti həqiqətən də kritik olsaydı, o zaman Ermənistandan bura gecə-gündüz axın edən yük avtomobilləri silah deyil, ərzaq daşımış olardı. Hansı ki, Azərbaycan Respublikasının Müdafiə Nazirliyi dəfələrlə Ermənistandan Rusiya sülhməramlılarının müşayiəti altında Qarabağdakı ermənilərə silah-sursat daşınması faktına diqqət yönəldib, bununla bağlı çoxsaylı sübutları, foto-video görüntüləri təqdim edib. Bütün bu faktlar fonunda okeanın o tayındakı ermənipərəst siyasətçilərin hansısa blokdadan danışması onların öz vicdanlarını satdığını, ədalətsiz olduqları halda, "ədalət mücahidi" rolunda çıxış etdiyini göstərir.

## Proseslərə dini don geyindirmək cəhdi...

Samanta Pauer və Sem Braunbekin açıqlamalarında qeyri-etik məqamlar da mövcuddur. Bunlardan biri onların Azərbaycanla ultimativ dildə danışması, nə etmək və necə etməklə bağlı ölkəmizə göstəriş verməsidir. Sem Braunbekin bəyanatında gülüş doğuran məqam isə amerikalı siyasətçinin proseslər dini motivdən yanaşması, xristian təəssübkeşliyi mövqeyindən çıxış etməsidir.

Xatırladaq ki, İlham Əliyev dəfələrlə Ermənistanın münaqişəyə dini don geyindirməyə çalışdığını qeyd edib və bunun yolverilməz olduğunu bildirib. Dövlət başçısının hələ 2016-cı ilin 8 iyun tarixində müqəddəs Ramazan ayı münasibətilə müsəlman ölkələrinin Azərbaycandakı diplomatik nümayəndəliklərini qəbul edərkən səsləndirdiyi fikirlər bu baxımdan xüsusi önəm kəsb edir: "Ermənistanın rəhbərliyi Avropa ölkələrində olarkən daim münaqişə ilə bağlı həm təhrif edilmiş məlumatları ötürür, eyni zamanda, bu münaqişəyə dini don geyindirməyə çalışır. Bir çox hallarda Ermənistan rəhbərliyi qeyd edir ki, onlar bu çətin coğrafi vəziyyətdə - üç müsəlman ölkəsinin əhatəsində xristian dəyərlərini müdafiə edirlər. Bu, böyük riyakarlıqdır. Siz - Azərbaycanda yaşayan insanlar yaxşı bilirsiniz ki, Azərbaycanda dini, milli zəmində heç vaxt heç bir münaqişə, yaxud da ki, anlaşılmazlıq olmamışdır. Azərbaycanda məscidlərlə bərabər, kilsələr, sinaqoqlar tikilir. Erməni kilsəsi şəhərin mərkəzində toxunulmaz olaraq qalır və eyni zamanda, Azərbaycan dövləti o kilsənin təmirinə vəsait ayırıb. Ona görə Ermənistan prezidentinin və digər şəxslərin belə ucuz, nalayiq çıxışları, əlbəttə, bir daha demək istəyirəm ki, riyakarlığın təzahürüdür. Bu, bir daha onu göstərir ki, Ermənistan rəhbərliyi müsəlman ölkələrinə düşmən gözü ilə baxır, əks təqdirdə, belə cəfəng bəyanatlar verməzdi".

Şübhəsiz, Ermənistanın və onun havadarlarının münaqişəyə dini don geyindirməkdə məqsədi bəşəriyyəti qarşıdurmanın dini motivlərdən qaynaqlandığına inandırmaq, xristian dünyasından daha böyük yardımlar almaqdır. Bu isə onu göstərir ki, rəsmi İrəvan və xaricdəki erməni lobbisi öz siyasi məqsədlərinə nail olmaq üçün bəşəriyyətin dini duyğuları ilə oynamağa, dini öz məqsədi yolunda vasitəyə çevirməyə çalışır. Bu faktın özü Ermənistan və onun havadarlarının ölkəmizə qarşı mübarizədə necə ikrahedici üsullardan istifadə etməsinə sübutdur.

*S.ƏLİYEV*

# Ələbaxımlığı dövlət siyasətinə çevirən İrəvanın "böyük ianə" planı

(əvvəli 1-ci səhifədə)

## Qarabağdakı ermənilərin sayı süni şəkildə artırılır

Simonyanın çağırışında diqqətçəkən məqamlardan biri Qarabağda məskunlaşan ermənilərin sayını artırması, onları, əslində, olduğundan bir neçə dəfə çox təqdim etməsidir. Erməni spiker Qarabağda 120 min erməninin yaşadığını iddia etsə də, əslində, bu rəqəmin ən yaxşı halda 30 minədək olduğu məlumdur. Qeyd edək ki, Rusiyanın Müdafiə Nazirliyinin rəsmi məlumatına görə, Qarabağda 52 min 700 erməni yaşayır. Şübhəsiz, bu rəqəmin də şişirdilməsi ehtimalı böyükdür. Xatırladaq ki, 2021-ci ildə baş separatçı Arayik Arutyunyanın özü bölgədə cəmi 30 min ermənin yaşadığını vurğulamışdı. 30 illik işğal dönəmində buraya Ermənistandan və digər ölkələrdən minlərlə ermənin gəldiyini nəzərə alsaq, deməli, bu gün Qarabağda yaşayan ermənilərin ən az yarısının bölgə ilə tarixi əlaqələri yoxdur. Bu və ya digər faktlar göstərir ki, Simonyan Qarabağdakı ermənilərin sayını süni şəkildə artırır. Bununla da "blokada"dan "əziyyət çəkən" ermənilərin sayının daha çox olduğunu beynəlxalq ictimaiyyətin diqqətinə çatdırmağa çalışır.

Bundan başqa, Simonyan Qarabağ ermənilərinin sayını şişirtməklə beynəlxalq aləmdən daha çox yardım almağı, ianə toplamağı hədəfləyir. Erməni spiker yaxşı anlayır ki, hər bir beynəlxalq yardım ehtiyacı olanların sayına və tələbatına uyğun şəkildə təşkil olunur. Bu isə o deməkdir ki, yardıma ehtiyacı olanların sayı nə qədər çoxdursa, yardımın miqyası da bir o qədər böyük olacaq. Məhz bu səbəbdən də Simonyan və digər erməni rəsmiləri Qarabağdakı ermənilərin sayını hər fürsətdə artırmağa can atırlar. Məqsəd Qarabağ erməniləri adına mümkün qədər çox ianə almaq, beynəlxalq birliyin mümkün humanitar dəstəyindən sui-istifadə etməkdir.

Məsələnin üçüncü – siyasi tərəfi də mövcuddur. Ermənistan Qarabağda yaşayan ermənilərin sayını, əslində, olduğundan çox göstərməklə gələcəkdə rəsmi Bakını şantaj etməyi planlaşdırır. Rəsmi İrəvan yaxşı başa düşür ki, Qarabağda yaşayan ermənilərin sayı ilə bağlı real məlumatı sona kimi gizlədə bilməyəcək və əsl həqiqət gec-tez üzə çıxacaq. Məlum olacaq ki, Qarabağda nəinki 120 min, heç 30 min də erməni yaşamır. Məhz bu zaman rəsmi İrəvan öz yalanına bəraət qazandırmaq, eləcə də Bakını əlavə təzyiqlərə məruz qoymaq üçün "yoxa çıxan" ermənilərin Azərbaycanın təzyiqi ilə bölgəni tərk etdiyini bildirəcək. İrəvan beynəlxalq təşkilatları inandırmağa çalışacaq ki, məhz "blokada" və "həyati təhlükə" səbəbi ilə on minlərlə erməni Qarabağı tərk edib və bu səbəbdən də onların sayı belə azdır.

## Simonyan Bakıdan icazəsiz beynəlxalq təşkilatları ölkəmizə dəvət edir

Simonyan müraciətində beynəlxalq təşkilatları rəsmi Bakının razılığı olmadan Azərbaycana – Laçına dəvət edir. Bildirir ki, beynəlxalq qurumlar nə olursa-olsun bölgədə müşahidə missiyaları həyata keçirməli, konkret tədbirlər görməlidirlər: "Beynəlxalq təşkilatlar öz mandatları və xüsusi olaraq belə vəziyyətlərlə məşğul olmaq üçün hazırlanmış mövcud alətlər çərçivəsində operativ şəkildə hərəkət etməlidirlər. Beynəlxalq humanitar təşkilatlar, xüsusən də Birləşmiş Millətlər Təşkilatının agentlikləri maneələr qarşısında belə dəhliz və region boyunca monitorinq missiyaları həyata keçirməlidirlər".

Beynəlxalq təşkilatlarla diktə dilində danışan, onlara göstərişlər verən Simonyan "unudur" ki, Laçın da, Xankəndi də Azərbaycana məxsusdur. Bu ərazilərə kimisə yalnız rəsmi Bakı dəvət edə bilər. Rəsmi Bakının razılığı olmadan hansısa qurumu Azərbaycana dəvət etmək sadəcə korafəhmlik deyil, həm də siyasi təxribatdır. Bu, beynəlxalq qanunlarla da yolverilməzdir.

Habelə, Simonyan beynəlxalq birlikdən dəstək almaq üçün öncə onları Qarabağdakı ermənilərin, həqiqətən də, blokadada olması yalanına inandırmalı, bunun üçün konkret və təkzibedilməz sübutlar təqdim etməlidir. Erməni spiker isbat etməlidir ki, Qarabağ ermənilərinin ətraf aləmlə əlaqəsi tam məhdudlaşıb və bu, onların həyatı üçün həqiqətən də təhlükəlidir. Simonyanın isə öz yalanını əsaslandıracaq hansısa faktı təqdim etməsi mümkün deyil.

*Ə.SEYMUR*

# Dövlət əhəmiyyətli xüsusi tapşırıq



***(əvvəli qəzetin 2 avqust 2023-cü il tarixli sayında)***

Səhər saat 09:55 radələrində heç bir yoxlama olmadan bizim arxamızca gələn yük maşını təyyarəyə yaxınlaşdı. Məni görən kimi Cavanşir bəy dərhal təyyarənin arxa qapısını açdı. Dərhal yükləməyə başladıq. Sonuncu yeşikləri təyyarəyə qoyurduq ki, yanımızda bir "QAZ-69" dayandı. İçərisindən bir podpolkovnik və iki rus əsgəri düşdü. Podpolkovnik nə apardığımızı Ramiz müəllimdən soruşanda Şubay kişiyə işarə etdim, dərhal paltosunun altından avtomatı mənə uzatdı. Avtomatı podpolkovnikə tuşlayıb qoruyucunu açdım. Ruslar şoka düşmüşdülər. Görünür, indiyədək onların üzərinə silah çəkən olmamışdı. Ramiz müəllim mənə "lazım deyil, Urfullah" deyəndə, mən onların başa düşməsi üçün rusca xəbərdarlıq etdim: "Bunların üçünü də gəbərdəcəyəm!".

Təyyarə artıq yüklənmişdi. Üzümü Cavanşirə tutaraq: "Motoru işə sal" – dedim. Podpolkovnik əllərini göyə qaldırıb əsgərləri ilə maşına oturdu. Mən Ramiz müəllimlə və digər dostlarla sağollaşıb təyyarəyə mindim. Üç dəqiqə keçməmişdi ki, biz sürətlə havaya qalxdıq.

Sonralar aeroportun mühafizə xidmətinin rəisi mənə dedi ki, siz gedəndən bir saatdan artıq podpolkovnikin avtomobili orada qalmış, yerindən tərpənməmişdi. Podpolkovnikdən soruşdum ki, burada niyə dayanmısınız? Sanki yuxudan ayıldı, sürücüsünə "Getdik!" əmrini verib oradan uzaqlaşdılar. Mən özüm o rusu bir daha oralarda görmədim. Bir saat 10 dəqiqədən sonra biz Naxçıvan aeroportuna eniş edəcəkdik. Dağlıq Qarabağın üzərindən uçurduq. Yükümüz ağır olduğundan yüksəklik 3000 metri göstərirdi. Aşağıda alışıb yanan şəhər və kəndlərimiz aydın görünürdü...

Naxçıvan Hava Limanında əsgərlərimiz yükü dərhal boşaltdılar. Qısa istirahətdən sonra biz Gəncəyə uçduq. Dostlarım bizi gözləyirdilər. Heç bir maneə olmadan təyyarəni yenidən yükləyib Naxçıvana geri qayıtdıq. Təyyarəni boşaldıb, Cavanşirə 3 gün sonra Gəncəyə gəlməsini tapşırdım. Məndə qəti bir inam yaranmışdı ki, qısa zaman ərzində tapşırığa əməl edəcəyik.

İş yerimə saat 18:00 radələrində qayıtdım. DMMK sədri Elman Abbasovla görüşəndə alayda bir problem olduğunu söylədi. Bildirdi ki, 30 nəfərə yaxın zabit və gizir Qarabağa döyüşmək üçün göndərilmələrini tələb edir. Qərargah rəisi ilə əlaqə saxlayıb alayın iclas zalında sabah 11:00 radələrində görüşə gələcəyimi bildirdim. Alayın iclas zalında məni gözləyirdilər. Görüşün rəyasət heyətindəki yerimə yerləşdim. Onları eşitmək üçün tribunaya dəvət etdim. Növbə ilə üç könüllü zabit çıxış etdi. Çıxışlar eyni məzmunlu idi. Xocalı soyqırımının intiqamını almaq üçün bütün tərkiblə Qarabağa göndərilmələrini tələb edirdilər. Onların heç biri Naxçıvanın sərhəd kəndlərində olmamış, həqiqi hərbi xidmət keçməmiş könüllülər idi. Növbəti çıxış üçün tribunaya heç kim gəlmədi. Mən çıxışımda Naxçıvanın sərhəd kəndlərində müdafiə postlarının yaradılmasından, bir ov tüfəngi ilə onlarca könüllünün növbə çəkməsindən, baş verən erməni təxribatlarının Azərbaycanın qəhrəman oğlu Afiyəddin Cəlilov tərəfindən qarşısının necə alındığından danışdım. Onların danışdıqlarından daha çox Xocalıda törədilmiş erməni vandalizmi barədə məlumat verdim. Ermənilərin növbəti hədəfinin Naxçıvan olduğunu söylədim. Çox keçmədən burada ağır döyüşlərin gözləndiyini dedim. Naxçıvanın onlara böyük ehtiyacı olduğu halda, xidmət yerini dəyişmək tələbinin nə dərəcə doğru olduğunu soruşanda 3 nəfərdən başqa hamısı bir ağızdan dedi ki, siz haqlısınız, komandir. Çox keçmədən ermənilərin Naxçıvana cəbhə boyu hücum edəcəklərini bilən bütün əhali doğma yurdumuzun müdafiəsinə qalxdı.

Blokada vəziyyəti vaxtilə dünyaya meydan oxuyan bir imperiyanın Naxçıvandakı hərbi hissələrini çox miskin hala gətirmişdi. Əsgərləri aclıq çəkir, həftələrlə yuyunmadıqlarından müxtəlif xəstəliklərə düçar olurdular. Hərbi nizam-intizamdan əsər-əlamət qalmamışdı, oğurluq, itaətsizlik baş alıb gedirdi. Hazırladığımız planın icrasına başlamaq üçün Heydər Əliyevdən icazə istədim. İlkin olaraq hərbi hissələrdəki türkləri çıxarıb Bakıya, oradan da vətənlərinə yola salacaqdıq. Həmin gün 3 özbək əsgərini Bakıya yola saldıq. Bir neçə gündən sonra bizə yüzlərlə əsgər müraciət etdi. Hətta onların arasında ruslar da var idi. Onlar bizə, Ali Məclisə yazılı olaraq təşəkkür edirdilər. Əvvəl özlərini ev sahibi kimi aparanlar indi qonaq kimi davranırdılar. Zabitlərin özləri hərbi hissələrdən silah-sursatı oğurlayaraq bizə satmaq istəyirdilər. Moskvanın niyyəti isə silah-sursatı, ağır texnikanı İrəvana aparıb ermənilərə təhvil vermək idi. Onlar Naxçıvanda Heydər Əliyev kimi bir dühanın varlığını unutmuşdular.

Ertəsi gün Gəncəyə, oradan da Marquşavana getdim. Ağır döyüşlər gedirdi. Elşən Əliyevlə topun yanında görüşdük. Bir gün sonra Gəncəyə gedəcəyini dedi. Axşamüstü Gəncədə Milli Məclisin üzvü, Gəncə Şəhər Fövqəladə Müdafiə Qərargahının rəisi Çingiz Sadıxovla görüşdüm. Məni çox səmimi qarşıladı. "Kəpəz" mehmanxanasında mənə bir otaq ayrılmasına göstəriş verdi. Mənə bir "Qaz-69" markalı avtomobil ayırdı və s.

Məndən Namiq Həsənovu tanıyıb-tanımadığımı soruşdu. Daxili işlər nazirinin müavini kimi Namiq müəllim çox böyük bir missiyanı həyata keçirirdi. Siyasi məsələlər üzrə bütün danışıqlarda iştirak edirdi, böyük nüfuz sahibi idi. Çingiz müəllim Namiq müəllimlə birlikdə Ali Partiya Məktəbində oxuduğunu bildirdi. Anbardan bizə lazım olan silah-sursatın aparılmasına icazə verildi. Anbardakı mövcud arsenallara baxaraq, vacib olanlarını seçib ayırdım. Təxminən 50 ton yük idi. Yüklər böyük ağır yeşiklərə yığıldı. Yükü qısa zamanda daşımaq üçün riskli bir qərar qəbul etdim. Onları tarasız aparmaq istəyirdim.

An-26 dəqiq vaxtında Gəncəyə eniş etdi. İki yük maşını ilə təyyarəyə yaxınlaşdıq. Yeşikləri açıb mərmiləri göstərdiyim şəkildə yükləməyə başladıq. Təhlükəsizlik tədbirlərindən biri də mərmi başlıqlarını ayırmağımız oldu.

Artıq Gəncə Aeroportunda bütün ehtiyat tədbirlərini görmüşdüm. Bizə qarşı ruslardan heç bir təhlükə gözlənilmirdi. Aeroportun polis rəisi İlqar müəllimdən bizə lazımi köməyin göstərilməsini xahiş etdim. Aeroportun polisləri yüklərimizi qoruyurdular. Vaxtdan səmərəli istifadə üçün yükləri öncədən aeroporta gətirirdik. Gündə iki dəfə Naxçıvana uçurduq.

Axşam Gəncədə şəhər nəqliyyat prokuroru Hüseyn Əlizadənin yaşadığı evə getdim. Hüseyn müəllimin ailəsi bir neçə il idi ki, Özbəkistandan Gəncəyə köçmüşdü. Onların evindən telefonla Heydər Əliyevlə əlaqə saxlayırdım. Mənə deyirdilər ki, hər gün bizə gəl, başqa yerdə şam eləmə. Mən isə Heydər Əliyevlə telefonla danışmaq zərurəti yarananda onlara gedirdim.

AN-26 təyyarəsi ermənilərin diqqətini cəlb etmişdi. Cavanşir dedi ki, bizə atəş açırlar. Gündə iki dəfə uçuş həyata keçirmək təhlükəli olmuşdu. Ona dedim ki, mümkün qədər döyüş zonasının üzərindən yox, bir qədər kənardan uçaq. Uçuş vaxtını özümüz müəyyənləşdirirdik. Çalışırdım ki, uçuş saatlarımız fərqli olsun. Düşmən atəş açırdı. Ekipajın həyatını təhlükə qarşısında qoya bilməzdik. Pilotlar (4 nəfər idi) qəhrəmanlıq göstərirdilər. Nə isə etməli idik. Ancaq nə?

Məlum səbəblərdən Heydər Əliyevə görə Naxçıvana kömək etmək təhlükəli idi. Ən yaxşı halda kömək edənlər təqibə məruz qalır, işdən çıxarılırdılar. Amma çoxları heç nədən qorxmayaraq, yüksək vətənpərvərlik, Heydər Əliyevə böyük rəğbət göstərərək, bizə yardım edirdilər. Onlardan biri də Gəncə Şəhər Nizami rayon prokuroru Mahmud Nəbiyev idi. Onun köməkliyi ilə 15 təyyarə "yükünü" vaxtında Naxçıvana çatdıra bildik. Bundan əlavə, Sumqayıtdan boru prokat zavodundan 2000 metr boru gətirilməsini xahiş etdim. Bir həftə ərzində borular Gəncə şəhərinə gətirildi. Bir neçə dəfə məni evlərinə dəvət etdi. Sonralar məlum oldu ki, həmin günlərdə mənə sui-qəsd törədiləcəkdi. Onun atası Yusif Nəbiyev Naxçıvanda Nazirlər Sovetinin Sədri işləmişdi.

Azərbaycanda sovet dövrü görülən bütün işləri həmişə raykomun birinci katibinin adına çıxardılar. "Naxçıvanda sənaye obyektləri, tədris müəssisələri, klublar, yollar, binalar və s. Yusif Nəbiyevin vaxtında tikilib" deyirdilər. Allah ona rəhmət eləsin! Heç kim onun qapısından əliboş qayıtmayıb. Heydər Əliyevə Mahmud Nəbiyev haqqında məlumat verəndə Yusif Nəbiyevlə bağlı xoş xatirələrindən danışmışdı. Allah Mahmud müəllimə də rəhmət eləsin. O, Bakı Ağır Cinayətlər Məhkəməsinin sədri olmuşdu. 2022-ci ilin dekabrında vəfat etdi.

Gəncə Şəhər İcra Hakimiyyətində Fiqan İmaməliyevlə tanışlığımız da yerinə düşmüşdü. Əslən Naxçıvanın Xok kəndindən idi. Atası Nəbi İmaməliyev Azərbaycanda ilk milis (polis) polkovniki olmuşdu. Naxçıvan şəhərində Atatürk prospektində Cəmşid Naxçıvanskinin ev muzeyi ilə üzbəüz ikimərtəbəli binaya polkovnik Nəbi İmaməliyevin barelyefi asılmışdı. Fiqan müəllim Gəncə Şəhər İcra Hakimiyyətində sənaye, nəqliyyat, rabitə şöbəsinin rəisi idi. Ən böyük məsələ "yükü" daşımaq idi. Təhlükəli olduğundan heç kim qorxulu, qanunsuz "yükü" daşımaq istəmirdi. Problemlərimizin bir çoxu, o cümlədən, "yükün" daşınması həll olundu.

Digər mühüm məsələ isə Gəncə-Naxçıvan və əks-tərəfə sərnişin daşınmasında fasiləyə yol verilməməsi idi. Fiqan müəllim bu vacib məsələni ciddi nəzarətdə saxlayırdı. Hər dəfə icra hakimiyyətinə gələndə Fiqan müəllimlə mühüm məsələləri müzakirə edərək, onun məsləhəti ilə bəzi tədbirləri uğurla həyata keçirirdim. Ona zərər gələcəyindən ehtiyat edirdim. Fiqan müəllim isə "Naxçıvan bizim ürəyimizdir, hamının borcudur ki, Vətənə kömək etsin" – deyirdi. Ayrıca məni icra başçısının müavini Nizami Əhmədovla da tanış etmişdi.

İmkan olduqca Ağstafa, Tovuz, Qazax, Şəmkir, Xanlar (indiki Göygöl), Tərtər, Goranboy, Mingəçevir, Yevlax və s. rayonlara gedib müəyyən əlaqələr yaratdıq. Qarabağın bəzi rayonlarına da getdik.

Döyüş gedən rayonlarda bizi ən çox maraqlandıran düşmənin taktikası idi. Həm nizami ordunun, həm də könüllülərin. Bu məsələləri biz Dövlət Milli Müdafiə Komitəsində müzakirə edirdik. Gəncədən Naxçıvana Yak-40 sərnişin təyyarəsi uçurdu. Aeroportun komandiri Firudin Qasımova dedim ki, təyyarənin oturacaqları sökülərək bizim sərəncamımıza verilsin. Nə razılıq lazımdırsa, rəhbərlikdən alarıq. Bir günə Yak-40 bizə verildi. Beş tona qədər yüklə 4000 metr yüksəklikdə uçurduq. Təyyarə sürətli olduğundan gündə 3 dəfə Gəncə-Naxçıvan reysi həyata keçirildik.

Gəncədə prospekt və küçələrdə mağarlar qurulurdu. Hər gün, demək olar ki, şəhərə bir neçə şəhid gətirilirdi. Şəhər yas içində idi.

Naxçıvan təkcə iqtisadi blokadaya alınmamışdı. Burada, eyni zamanda, informasiya blokadası, qıtlığı hökm sürürdü. Respublika televiziyasının xəbərləri videokasetə köçürülür, bir gün sonra isə Naxçıvan televiziyasında translyasiya olurdu. Naxçıvan həqiqətlərinin nəinki dünyaya, hətta Bakıya çatdırılması probleme çevrilmişdi. Bu problemi qismən həll etmək, Naxçıvana humanitar yardım göstərmək üçün Gəncədə Naxçıvana Yardım Xeyriyyə Cəmiyyətinin yaradılmasına icazə istədim. Heydər Əliyev təklifimi bəyəndi.

Gəncədə Alimlər evi fəaliyyət göstərirdi. Müdiri Kazım Axundov idi. Bir müddət əvvəl Fiqan müəllim məni Musa Musayevlə tanış etmişdi. Yük maşını lazım olduğu üçün gəncəlilərin "Musayevin qarajı" deyilən müəssisəyə getmişdim. Doğma övladı kimi məni qarşıladı Musa dayı. "Gedək yeməkxanaya, mən acmışam" – dedi, əslində, məni yeməyə dəvət edirdi. Musa dayı elə belə kişilərdən deyildi ha. Babası Kəlbə Musa Naxçıvanda məşhur adam olmuşdu. Çəkdirdiyi kəhriz 100 ildən çoxdur ki, əhaliyə xidmət edir. Musa dayı ilə Alimlər evinə getdik. Kazım müəllimdən cəmiyyət mərkəzinin Alimlər evində yerləşməsinə razılıq aldıq.

Tezliklə Alimlər evinə Gəncədə yaşayan qeyrətli naxçıvanlılar və Gəncəbasarın qəhrəman övladları toplaşdılar. Cəmiyyətə Hüseyn Əlizadəni sədr, Musa dayı ilə Firudin Şimşəyi müavin seçdik. Cəmiyyətin ən fəal üzvləri Gəncə Ağsaqqallar Şurasının sədri Ağa Ağayev, Çingiz Sadıxov, Metalbazanın müdiri Əli müəllim, Əkbər Nəsirov, Salman Məmmədov, akademik Mikayıl Rəhimov, Nurəddin Babayev, Vahid Şirəliyev, Hüseyn Vəliyev, Əli Mehdiyev, Əhmədov Əhməd, Fiqan İmaməliyev, milis polkovniki Natiq Həsənov, İbrahim Cəfərov, Rafiq və Rauf Şəfiyev qardaşları, Teyyub Hacıyev, Mərdan müəllim, Vilyam Hacıyev, Elşən Əliyev, Səməndər Qurbanov, Vaqif müəllim, milis kapitanı İbrahim, qarajın işçiləri Vaqif və Əli müəllim, Ziyad Abbasov, Arif Hüseynov, Firudin Qasımov, Eldəniz Nəcəfli, Mətləb Əliyev, Mərdan Tağıyev, Qəzənfər Əliyev, Qalib Rəhimli, Mətləb Abdullayev və başqaları idi.

Salman Məmmədovun anası Əsmət xanım Naxçıvana gəlmiş, yüz min manatlıq dərman ləvazimatını Apteklər İdarəsinə vermiş, on min manatı Sədərəkdə müalicəyə ehtiyacı olan yaralılara paylamışdı. Cəmiyyət hər gün fəaliyyət göstərirdi. Cəmiyyət üzvlərinin, onların tələbələrinin köməyi ilə təyyarənin yüklənməsini də həyata keçirirdik. Həftədə bir dəfə rəhbər heyət toplanırdı. Mən Naxçıvandakı mövcud vəziyyətlə bağlı məlumat verirdim. Sonra görüləcək işlər barədə qərar qəbul edirdik. Mənim təklifimlə cəmiyyət adından Gəncədə şəhid ailələrinə, yaralılara maddi və mənəvi yardım göstərilməyə başlandı. Cəmiyyətin xətti ilə Naxçıvanın Müdafiə və İnkişaf Fonduna iki milyon manatdan artıq vəsait köçürüldü. Cəmiyyətin qərarı ilə rəhmətlik Əkbər Nəsirov və Əli Mehdiyevin Heydər Əliyevlə görüşünü təşkil etdim. Görüşdən sonra Naxçıvan televiziyasında çıxışları oldu. Cəmiyyət üzvləri əsl qəhrəmanlıq göstərirdilər. Təmənnasız vətəndaşlıq borclarını yerinə yetirirdilər.



Cəmiyyətin fəaliyyətini həmin dövrdə Türkiyədən gəlmiş "Tərcüman" qəzetinin jurnalisti də işıqlandırmışdı. Sağ qalmış qəhrəmanlarımıza Allahdan cansağlığı arzulayıram. Demək istəyirəm ki, sizin qəhrəmanlığınız heç bir zaman unudulmayacaq. Heydər Əliyevin göstərişi ilə Naxçıvan Dövlət televiziyasının əməkdaşları, yazıçı- jurnalist Asim Yadigar və operator Nurəddin Əliyev Gəncə şəhərinə ezam olundular. Cəmiyyətin, qəhrəman pilotların fəaliyyətləri videolentə alaraq Naxçıvan Dövlət televiziyasında işıqlandırdılar.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev cəmiyyət üzvlərinə bir teleqram ünvanladı: "Möhtərəm bacılar və qardaşlar! Gəncə şəhərində Naxçıvana Yardım Xeyriyyə Cəmiyyətinin yaranması qədim Naxçıvan diyarında böyük hörmət və minnətdarlıq hissi ilə qarşılanmışdır. Cəmiyyətin üzvlərinə, Gəncə şəhər sakinlərinə naxçıvanlıların səmimi salamını və dərin məhəbbətini bildiririk. Həmrəylik və yardım üçün minnətdarıq. Gələcək fəaliyyətinizdə uğurlar, Azərbaycanın qədim diyarları - Gəncə və Naxçıvan arasında qardaşlıq və dostluq münasibətlərinin daha da inkişaf etməsini arzulayırıq. Bütün gəncəlilərə cansağlığı, səadət diləyirik!"

**(ardı var)**

***Urfullah QURBANOV,***
***Naxçıvan Muxtar Respublikası Dövlət Müdafiə Komitəsinin əks-kəşfiyyat şöbəsinin sabiq rəisi, Heydər Əliyevin səlahiyyətli hərbi nümayəndəsi***

# Biz müharibə yox, sülh istəyirik

## *Dövlət başçımızın İrəvana ünvanladığı mesaj aydın, konkret və birmənalı oldu*



**Məğlub tərəfə seçim imkanı verməyin özü siyasi mədəniyyətin göstəricisidir. Bununla Azərbaycan Prezidenti İlham Əliyev artıq neçənci dəfədir ki, ermənilərə sağlam düşüncəyə, beynəlxalq hüquqa və əlbəttə ki, xoş mərama söykənən çağırışlar edir. Bizi 30 il ərzində doğma yurdumuzda yaşamaqdan məhrum etmiş işğalçıların bir kəsiminin həmin torpaqlarda yaşamaq hüququnun tanınacağını həm də dünyanın diqqətinə çatdırır. Müharibədə məğlub olmuş tərəfə belə güzəşti indiyədək kim təklif edib? Tarix belə bir nümunə tanımır.**

Avropanın nüfuzlu "Euronews" telekanalına müsahibəsində Azərbaycan Prezidenti İlham Əliyev Hayastan iqtidarını beynəlxalq ictimaiyyətin sülh təşəbbüslərinə qarşı çıxmamağa çağırıb: "Onlar başa düşməlidirlər ki, əgər Azərbaycanla sülh sazişi imzalamaq istəmirlərsə, gələcəkdə vəziyyət proqnozlaşdırılmayan olacaq". Dünyada, o cümlədən Cənubi Qafqaz bölgəsində geosiyasi vəziyyətin çox kəskin şəkildə dəyişdiyini söyləyən dövlətimizin başçısı deyib: "Onların təhlükəsizliyi ilə bağlı ümidlərinin bir qismi tamamilə yoxa çıxdı. İndi onlar yeni təhlükəsizlik qarantları axtarırlar. Kim bu ərazidə döyüş meydanında Azərbaycanla qarşıdurmaya hazırdır? Xüsusilə bizim müharibə zamanı nümayiş etdirdiklərimizdən və müharibədən sonra müdafiə imkanlarımızı artırdığımız bir vaxtda? Ermənilərə görə bizə qarşı döyüşməyə hazır olan kimsə varmı? Mən buna şübhə edirəm". Azərbaycanın problemin sülh yolu ilə həllinin tərəfdarı olduğunu bir daha bəyan edən dövlətimizin başçısı "biz nə bu gün, nə də gələcəkdə daha bir müharibə istəmirik" – dedi. Əlavə edib ki, mənim Ermənistandakı ermənilərə mesajım belədir ki, biz onların dövləti ilə sülh istəyirik. Onlara digər mesajım ondan ibarətdir ki, hazırkı geosiyasi vəziyyəti və qüvvələr balansını aydın dərk etmək lazımdır. Hər şey aydın şəkildə, dolğun və başadüşülən tərzdə İrəvanın diqqətinə çatdırıldı. Bundan sonra qərar qəbul etmək onların öhdəsinə buraxılır: "Ermənistan hökumətinə çatdırdığım başqa bir mesaj ondan ibarətdir ki, onlar üçün seçim ən yaxşı və qat-qat yaxşı arasında deyil. Onlar üçün seçim çox pis və qəbulolunan arasındadır".

Azərbaycanın Qarabağ iqtisadi rayonunda yaşayan ermənilərə ünvanladığı mesajında İlham Əliyev onları qondarma liderlərin, yalançı "nazirlərin" arxasınca getməməyə çağırıb. Qeyd edib ki, liderlər onlara daim yalan danışıblar. Qarabağ erməniləri başa düşməlidirlər ki, təhlükəsizlik təminatları, hüquqlarının, o cümlədən təhsil, mədəniyyət, dini, bələdiyyə hüquqlarının təmin edilməsi ilə Azərbaycan cəmiyyətinin bir hissəsi olaraq normal həyat yaşayacaqlar. Onlar daha manipulyasiyanın girovu olmayacaqlar. Düşünürəm ki, diqqətlə dinləsələr, məni anlayacaqlar. Onlar bilirlər ki, mən öz sözümə əməl edirəm. Cənab Prezident daim dediyi sözünün arxasında durması ilə hətta ermənilərin də etmadını qazanıb,– desək, heç də mübaliğəyə yol vermiş olmarıq. Nəyi nə vaxt edəcəyini dəqiq hesablayan strateq-diplomat müsahibəsində onu da qeyd edib ki, Qarabağda, hazırda müvəqqəti olaraq rusiyalı sülhməramlıların nəzarəti altında olan ərazidəki insanlar Azərbaycanda yaşayırlar: "Onlar ölkəmizdəki digər çoxsaylı milli azlıqlar kimi, Azərbaycan vətəndaşları olaraq yaşayacaqlarına, yoxsa Azərbaycanı tərk edəcəklərinə dair seçim etməlidirlər". Prezident İlham Əliyev müsahibəsində sadə ermənilərin reinteqrasiyaya hazır olduğunu, amma bu yolda süni maneələrlə üzləşdiklərini də açıq söyləyib: "Qarabağdakı ermənilərə xatırlatmaq istərdim ki, biz onlarla təmaslara dərhal başladıq. Faktiki olaraq biz erməni əhalinin yaşadığı bir neçə kənddən keçən yeni Laçın yolunu tikməyə başlayanda iki xalqın nümayəndələri arasında təmaslar oldu. Mənə məlumat verildi ki, yolun inşası ilə məşğul olan bizim işçilərlə erməni icması arasında ünsiyyət qurulub və onlar demək olar, dostlaşıblar". Bu incə məqamla bağlı dövlətimizin başçısı qeyd edib ki, sadə insanların əksəriyyətinin ürəyində nifrət yoxdur. Yəni, sıravi ermənilər azərbaycanlılarla dinc yanaşı yaşamağa, mehriban qonşuluq münasibətləri qurmağa özləri meyillidirlər.

Dövlətimizin başçısı müsahibəsində tərəflər arasında gərginlik yarada biləcək xüsusi bir məqamın olmadığına diqqəti yönəldib: "Əsas məsələ Ermənistanın bizim ərazi bütövlüyümüzü tanıması idi. Ermənistan baş naziri Nikol Paşinyan və digər rəsmilər bunu dəfələrlə dilə gətiriblər. Növbəti məqam isə nəqliyyat-kommunikasiya xətlərinin açılmasıdır. Bu məsələ ilə bağlı da rəsmi İrəvanın müsbət açıqlamalarını bir neçə dəfə görmüşük". Bundan sonra Azərbaycan Qarabağla bağlı hansı addımları atacağını özü seçəcək. Seçimlərdən biri də rus sülhməramlılarının nəzarətində olan ərazimizdə revanşist-separatçıların mümkün silahlı təxribatına cavab olaraq növbəti antiterror əməliyyatının reallaşdırılması ola bilər. Məhz Ermənistan silahlı qüvvələrinin tör-töküntüsü Qarabağ iqtisadi rayonumuzdan çıxarıldıqdan sonra "Qordi düyünü"nün açılması da avtomatik asanlaşacaq. Əslində, tərəfləri sülh sazişinə aparan yolda ən böyük maneənin bu amilin olduğunu deməklə səhvə yol vermiş olmarıq. Əks-təqdirdə münaqişənin dinc yolla həllində çoxsaylı vasitəçilərin göstərdiyi təşəbbüslərin, bir-birini əvəzləyən dialoq raundlarının müsbət sonluqla bitəcəyi sual altındadır. Bakı qarşı tərəfə doğru atacağı xoşməramlı addımları ilə bu skeptik proqnozun reallaşmasına imkan vermək fikrində deyil. İndi hamıya aydındır ki, Azərbaycan sülh razılaşmasından öncə Qarabağda yaşayan etnik ermənilərlə məsələni köklü şəkildə həll etməkdə qərarlıdır. Onlar ya vətəndaşlığımızı qəbul etməli, cəmiyyətimizə reinteqrasiya olmalı, ya da torpaqlarımızı tərk etməldirlər. Yalnız bu məsələ öz həllini tapandan sonra sülhdən danışmaq mümkündür.

"Euronews" telekanalına müsahibəsində münasibətlərin tənzimlənməsi prosesindən danışan Prezident İlham Əliyev sülh sazişinin əsas bəndlərinin nazirlər tərəfindən tərtib edildiyini bildirib. Azərbaycan lideri, həmçinin Ermənistan tərəfindən konstruktiv yanaşma görünəcəyi, ən vacibi isə onların Azərbaycanın ərazi bütövlüyünü şübhə altına alan bütün iddialarını kənara qoyacaqları təqdirdə tezliklə, bəlkə də, ilin sonunadək sülh sazişinin imzalana biləcəyinə ümid etdiyini söyləyib.

Prezident İlham Əliyev müsahibəsində həm İrəvandakı revanşistlərə, həm də Qarabağdakı separatçılara öz ismarıclarını verib. Bundan nəticə çıxarmaq və düzgün qərar qəbul etmək qalır qarşı tərəfin öhdəsinə. Amma qərar qəbul etməzdən əvvəl yaxşı-yaxşı düşünsünlər. Bu şans onlara bir daha verilməyəcək.

***İmran BƏDİRXANLI,***
***"Xalq qəzeti"***

### Ekspert rəyi

**Tofiq ABBASOV,**
**politoloq**



– Cənab Prezident "Euronews"a müsahibəsində Qarabağ deyilən problemin qalmadığını, onun Azərbaycanın daxili məsələsi olduğunu bir daha bəyan etdi. O ki qaldı, 25-30 min erməninin cəmiyyətə reinteqrasiyasına, bəli, dövlət başçımız bu yolda heç bir maneənin, çətinliyin olmadığını nəzərə çatdırdı. Əvvəllər olduğu kimi, indi də bu məsələdə cənab Prezidentin sözü də, əməlləri də həmahəngdir. Bildirildi ki, yol açıqdır, yaşıl işıq yandırılıb və Qarabağ erməniləri bu prosesdə heç nədən qorxmayaraq bu addımı ata bilərlər.

Amma bu zaman İlham Əliyev oradakı qondarma müdirlərin, "prezidentlərin", "nazirlərin" pozucu fəaliyyətini əbəs yerə xatırlatmır. Biz həmin fəaliyyətlərdən xəbərdarıq, indi də "Euronews"un çoxmilyonluq auditoriyası bu barədə birinci şəxsin dilindən düzgün və dolğun məlumat aldı. Ona görə Prezident açıq şəkildə bildirdi ki, erməni icması əgər separatçıların, "özfəaliyyət dövləti" yaradan "rəislərin", "liderlərin" əsarətindən qurtulmaq istəyirsə, bunu etsinlər. Onların çətinliyi həm də ondadır ki, əlisilahlı quldurlar sadə insanları qorxu altında saxlayır, seçim imkanı vermirlər. Təsadüfi deyil ki, dövlət başçımız üzünü onlara tutub deyir ki, taleyiniz öz əlinizdədir. Əlbəttə, bu prosesin müxtəlif aspektləri var. Həmin "rəislər" öz "imtiyazlarını" itirmək istəmirlər. Ora xaricdən qaçaqmalçılıq yolu ilə silah-sursat gəlirdi, maliyyə dəstəyi də alırdılar. Artıq onların bu "biznes-projelərinə" son qoyuldu. Vaxt da tükənir. Dörd tərəfləri Azərbaycandır. Heç bir dəhliz-filan söhbəti ola bilməz. Bakı onlara Laçın yoluna alternativ Ağdam yolunu təklif edib. Bəs "blokada" məsələsini ortaya atanlar kimlərdir? Əlisilahlı qeyri-qanuni dəstələr, həmin o "müdirlər"dir. Bunlar hətta dinc soydaşlarının qanını tökməyə belə hazırdırlar ki, dünyaya "etnik təmizləmə", "soyqırımı" qışqıra bilsinlər və bunu Azərbaycan hakimiyyətinin ayağına yazsınlar. Ancaq, bu, yalnız o zaman baş tuta bilərdi ki, biz bütün yolları bağlayıb, erməniləri dörd divar arasında saxlayardıq. Xeyr, Azərbaycan onlara yol da verir, alternativ təkliflər də. İlham Əliyev "Euronews"a müsahibəsində bütün bu reallıqlar barədə dünya birliyində, beynəlxalq ictimaiyyətdə düzgün təsəvvür yaratdı.

# İrəvanın bir yolu var: Reallıqla barışmalıdır

**(əvvəli 1-ci səhifədə)**

Zaxarovanın sözlərinə görə, Ukraynadakı xüsusi hərbi əməliyyat fonunda xarici siyasətin müəyyən sahələrinin Moskva üçün daha az prioritet olduğunun bildirilməsi, sadəcə olaraq, faktiki əsaslara malik deyil. Onun dediklərindən belə çıxıb ki, Paşinyanın gəldiyi qənaət özünün şəxsi mühakiməsi, rəyi, emosiyalarının məhsuludur.

Rusiya XİN sözçüsü onu da bildirib ki, Rusiya Ermənistan – Azərbaycan münasibətlərinin normallaşması prosesinin irəliləməsində tam maraqlı idi və bundan sonra da maraqlıdır. "Biz regionda davamlı sülh və harmoniyaya nail olmaq üçün hər şeyi edirik. Cənubi Qafqazda öz öhdəliklərimizi tam şəkildə yerinə yetiririk. Son bir neçə ay ərzində Rusiya Federasiyasının iştirakı ilə ən yüksək səviyyədə bütöv bir silsilə təmaslar baş veribsə, hansı fəaliyyətin azalmasından danışmaq olar? Əsas olanları sadalayaq: mayın 25-də Moskvada üçtərəfli görüş, iyunun 2-də nəqliyyat kommunikasiyalarının açılması üzrə üçtərəfli işçi qrupunun on ikinci iclası, mayın 19-da və iyulun 25-də Moskvada Rusiya Federasiyası, Azərbaycan və Ermənistan XİN rəhbərləri arasında danışıqlar. Bu azalmadır?", – deyən xanım sözçü Paşinyanın iddiası ilə bağlı sualı cavablandırarkən, bir qədər də konspriativ tonda fikir bildirməsi ilə yadda qalıb. O deyib ki, əsas olan həqiqətlərlə üz-üzə qalmaqdır, eyni zamanda, Bakı və İrəvanın əldə etdiyi razılaşmanın ardıcıl şəkildə həyata keçirilməsidir. Bu məsələdə Rusiya tərəflərə hər cür kömək göstərməyə hazırdır.

Bu yerdə vurğulayaq ki, razılaşmanı yerinə yetirməyən tərəf Ermənistandır. Yaxşı olardı ki, Zaxarova bunu açıqdan-açığa bildirərdi. İndiki Rusiyanın bir sıra rəsmiləri həqiqətləri yalnız üzərlərində Ermənistan tərəfindən təzyiq hiss edəndə dilə gətirirlər. Elə Zaxarova kimi.

***

Həqiqətləri dilə gətirməkdən söz düşmüşkən, M.Zaxarova Azərbaycanın Qarabağa Ermənistandan gələn humanitar yüklərin keçməsinə, guya, icazə verməməsinə və mövcud xüsusda Rusiya sülhməramlılarının fəaliyyətsizliyinə dair erməni jurnalistlərin suallarını cavablandırarkən maraqlı məqama toxunub. Deyib ki, İrəvanın bölgəyə humanitar karvan göndərilməsi məsələsini Azərbaycan hakimiyyəti ilə razılaşdırmamasına baxmayaraq, Rusiya sülhməramlı kontingenti problemin həlli yollarının axtarışına fəal qoşulub və hər iki tərəflə daimi əlaqə qurub. Eyni zamanda, "bütün bunların fonunda biz hesab edirik ki, Rusiya sülhməramlılarına qarşı hər hansı ittihamlar düzgün deyil".

Bəli, Zaxarovanın fikirlərindən belə nəticəyə gəlmək olar ki, Moskva Ermənistandan Qarabağa humanitar yüklər göndərilməsinin Azərbaycanla razılaşdırılmalı olduğu məntiqini qəbul edir. Hesab edirik ki, Rusiya XİN sözçüsünün ənənəvi brifinqə damğasını vuran fikir məhz budur.

M.Zaxarovanın Vaqif Xaçatryan adlı terrorçu və caninin Azərbaycan tərəfindən saxlanılması ilə bağlı sualı cavablandırarkən söylədiklərinə gəlincə, o, ölkəsinin Bakı ilə Xankəndi arasında danışıqların başlanmasının tərəfdarı olduğunu vurğulayıb və bildirib ki, Rusiya sülhməramlıları əvvəllər iki nümayəndə heyətinin görüşlərinin təşkilinə kömək ediblər və bundan sonra da buna lazımi yardım göstərməyə hazırdırlar. "Rusiya heç bir ilkin şərt irəli sürmür. Hazırda Qarabağda gərginliyin artması fonunda, mövqeləri ciddi şəkildə bir-birindən fərqlənən tərəflərin yanaşmalarını yaxınlaşdırmaq üçün əzmlə çalışır".

***Ə.RÜSTƏMOV, "Xalq qəzeti"***

# Səudiyyə Ərəbistanı gömrük xidmətinin rəhbəri ölkəmizdə



**Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Şahin Bağırov və Səudiyyə Ərəbistanı Krallığının Zəkat, Vergi və Gömrük Xidmətinin rəhbəri Suhail bin Muhammed Abanminin rəhbərlik etdiyi nümayəndə heyəti arasında görüş keçirilib.**

DGK-dan bildirilib ki, görüşdə iki ölkənin gömrük xidmətləri arasındakı yaranan əməkdaşlıqdan məmnunluqla bəhs edilib, mövcud əlaqələrin daha da genişləndirilməsinin vacibliyi vurğulanıb.

Görüşdə risklərin idarəolunması, elektron ticarət, hüquqpozmalar, gömrük sistemində süni intellektin tətbiqi ilə bağlı müzakirələr aparılıb, hər iki ölkənin gömrük orqanlarının əldə etdiyi təcrübələrin öyrənilməsi və paylaşılması məqsədilə işçi qrupların yaradılması qərara alınıb.

# Amerikalı jurnalistlər Füzulidə və Zəngilanın Ağalı kəndində

**Azərbaycanın işğaldan azad edilmiş rayonlarına səfər çərçivəsində bir qrup amerikalı jurnalist və media eksperti Füzuli rayonunu ziyarət edib.**




Füzuliyə gedərkən qonaqlar yolboyu erməni barbarlığının təcəssümü olan dağıdılmış, viran qoyulmuş kəndləri, qəsəbələri seyr edib və Merdinli kəndindəki məscidə baxıblar. İşğal illərində Qarabağ ərazisində yerləşən bir çox məscidlərin erməni vandalları tərəfindən dağıdıldığı, onların bir qismindən başqa məqsədlər üçün istifadə olunduğu, bəzi məscidlərdə, o cümlədən Merdinli kənd məscidində mal-qara və donuz saxlanıldığı diqqətə çatdırılıb.

Daha sonra Zəngilan rayonunun Ağalı kəndinə gedən qonaqlara məlumat verilib ki, "ağıllı kənd" konsepsiyası əsasında yenidən salınmış bu yaşayış məntəqəsinə Böyük Qayıdış Proqramına uyğun olaraq əhali köçürülüb və bu proses davam etməkdədir.

Amerikalı jurnalistlərə müsahibəsində kənd sakinlərindən biri deyib ki, işğal zamanı Zəngilanı tərk edərkən 20 yaşı olub. Rayon azad edildikdən sonra isə 50 yaşında ailəsi ilə birlikdə Ağalı kəndinə qayıdıb. Qeyd edib ki, artıq 8 aydır doğma yurdunda yaşayır, çalışır və dövlətimizin Ağalı sakinləri üçün yaratdığı şəraitdən çox razıdır.

***Q.QASIMOV,***
***"Xalq qəzeti"***

# Fərid Səfərlinin İranda məhkəməsi keçirilir

**Fərid Səfərli barədə məlumat Xarici İşlər Nazirliyinə daxil olan gündən etibarən vətəndaşın aqibətinin və sağlamlıq vəziyyətinin öyrənilməsi istiqamətində həm Xarici İşlər Nazirliyi, həm də ölkəmizin Təbriz şəhərindəki Baş konsulluğu tərəfindən müvafiq iş aparılıb.**

Bu barədə Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Ayxan Hacızadə jurnalistlərin suallarını cavablandırarkən deyib.

Fərid Səfərlinin ailəsi və özü ilə əlaqə saxlanılıb. Təbrizdəki Baş konsulluğumuz tərəfindən Fərid Səfərli ilə görüşlər keçirilib, demək olar, gündəlik əsasda onunla telefon vasitəsilə əlaqə saxlanılıb. Fərid Səfərlinin valideyni ilə telefon əlaqəsi saxlamasına imkan yaradılıb.

Bununla yanaşı, İran tərəfinə məhkəmə iclaslarının keçirilmə tarixləri və Baş konsulluğumuzun rəsmilərinin iclaslarda iştirakı barədə sorğu ünvanlansa da, tərəfimizdən edilmiş bu müraciətlər İran tərəfindən cavablandırılmayıb və məhkəmə iclaslarında iştirak mümkün olmayıb. Bununla yanaşı, müraciətlərimizə baxmayaraq, təqsirləndirilən şəxs tərcüməçi ilə də təmin olunmayıb.

Eyni zamanda, müəyyən edilib ki, 19 iyul tarixində keçirilmiş məhkəmə iclası zamanı F.Səfərliyə qarşı irəli sürülmüş "casusluq" ittihamı "casusluq etmək niyyəti" ittihamı ilə əvəz olunub.

Fərid Səfərlinin valideyninin oğlunu ziyarət etməsi üçün hazırda iş aparılır.

***"Xalq qəzeti"***

# 6,7 milyard dollar xarici borc ÜDM-in 10 faizini təşkil edir

## *Daxili borc isə 5 milyard manata yaxındır*

**Prezident İlham Əliyev bu ilin ilk yarısının sosial-iqtisadi yekunlarına həsr olunan müşavirədəki çıxışında ölkəmizin xarici dövlət borcunun idarə edilməsi istiqamətində həyata keçirilən tədbirlərin daim diqqətdə saxlanıldığını, nəticədə qarşıya qoyulan məqsədlərə nail olunduğunu bildirib. Dövlətimizin başçısı daha sonra mütləq rəqəmlərdə Azərbaycanın xarici borcunun 6,7 milyard dollara endiyini və bunun isə ümumi daxili məhsulun (ÜDM) təxminən 10 faizini təşkil etdiyini vurğulayıb.**



Maliyyə Nazirliyinin “2023-cü ilin dövlət və icmal büdcələrinin yarımillik icrasına dair arayış və ilin sonuna gözləntilər sənədi”ndə də həmin göstəricilər öz ifadəsini tapıb. Eyni zamanda, adıçəkilən sənəddə hesabat dövrünə daxili dövlət borcunun isə 4 milyard 970,3 milyon manata çatdığı və cari il üzrə proqnozlaşdırılan ÜDM-in 4,5 faizi həcmində olduğu xatırladılaraq daxili dövlət borcunun daxili maliyyə bazarında yerləşdirilmiş dövlət qiymətli kağızları üzrə qalıq borc təşkil etdiyi göstərilib.

Yeri gəlmişkən, hesabat dövründə daxili dövlət borcunun 27,5 faizi 1 illik, 52,1 faizi 2 və 3 illik, 20,4 faizi isə 5 il və daha artıq müddətli dövlət qiymətli kağızlarının payına düşüb. Xarici dövlət borcu üzrə imzalanmış müqavilələr çərçivəsində cari ilin ilk altı ayı ərzində 113,3 milyon manat istifadə edilib.

Bu ilin birinci yarısında daxili maliyyə bazarında yerləşdirilən dövlət istiqrazları üzrə dövlət büdcəsinə 1 milyard 15 milyon manat məbləğində vəsait daxil olub. Həmin vəsaitin 724,1 milyon manat hissəsi xarici və daxili dövlət borcu üzrə vaxtı çatan əsas borc ödənişlərinin yenidən maliyyələşdirilməsinə, 290,9 milyon manat hissəsi isə dövlət büdcəsi xərclərinin maliyyələşdirilməsinə yönəldilib.

Maliyyə Nazirliyinin yaydığı sənəddə daha sonra vurğulanır ki, 2024-cü il yanvarın 1-nə Azərbaycan Respublikasının xarici dövlət borcunun 6 milyard 381 milyon ABŞ dolları (10 milyard 847 milyon manat), daxili dövlət borcunun isə 6 milyard 688 milyon manat olmaqla ümumi dövlət borcunun 17 milyard 536 milyon manat təşkil edəcəyi gözlənilir.

Gələn il yanvarın 1-nə xarici dövlət borcunun 49 faizi 5 ilədək, 42,6 faizi 5-10 il ərzində, 8,4 faizi isə 10 ildən artıq müddətə kreditorlara ödəniləcək. Xarici dövlət borcu üzrə yeni cəlb olunacaq borc öhdəliklərinin 10 ilədək müddətə müvafiq istinad dərəcəsi üstəgəl 0,65 faiz dərəcəsi ilə, 10-20 illik müvafiq istinad dərəcəsi üstəgəl 0,8 faiz dərəcəsi ilə, 20 ildən artıq müddətə isə müvafiq istinad dərəcəsi üstəgəl 0,9 faiz dərəcəsi ilə cəlb olunacaq.

Daxili dövlət borcunun 40,5 faizini daxili maliyyə bazarlarında emissiya olunmuş dövlət istiqrazları təşkil edəcək. İlin sonuna dövriyyədə olan dövlət istiqrazlarının 13 faizi 1 illik, 66,1 faizi 2-3 illik, 20,9 faizi isə 5-7 illik istiqrazların payına düşəcək. Daxili dövlət borcuna xidmət xərcləri 265 milyon təşkil edəcək.

Yenidən baxılmış 2023-cü ilin dövlət büdcəsinin kəsiri 155 milyon manat artırılaraq 2 milyard 734,3 milyon manat məbləğinə çatdırılıb. Kəsirin artımının maliyyələşdirilməsi daxili borclanmadan cəlb olunan vəsait və özəlləşmədən əlavə daxilolmalar hesabına təmin ediləcək. Kəsirin cari ilin sonuna gözlənilən ümumi daxili məhsula nisbəti 2,5 faiz həcmində olacaq.

Göründüyü kimi, indiki bu cür sosial-iqtisadi şərait və dövlətimizin başçısının uğurlu siyasəti təbii ki, xarici dövlət borcunun səmərəli idarə edilməsinə əlverişli şərait yaradıb. Maliyyə Nazirliyinin məlumatına görə, hökumət 2023-cü ilin dövlət büdcəsində dövlət borcuna və öhdəliklərinə xidmətlə bağlı 1 milyard 5 milyon manat məbləğində xərclər nəzərdə tutub.

Xarici borclanma hesabına icrası davam etdirilən layihələr çərçivəsində vəsait istifadəsi üzrə təqdim edilən məlumatlara əsasən, hazırda yuxarıda vurğulandığı kimi, birbaşa xarici dövlət borcunun səviyyəsi ümumi daxili məhsulun təxminən 10 faizini təşkil edir.

Daxili dövlət borcalmasının həcminin artırılması, dövlət qiymətli kağızlar bazarının inkişafının dəstəklənməsi, dövlət borcunun orta və uzunmüddətli gəlirlik əyrisinin formalaşdırılması və “Azərbaycan Respublikasında dövlət borcunun idarə edilməsinə dair orta və uzun müddət üçün Strategiya”sına uyğun olaraq xarici borcun daxili borcla əvəzlənməsi istiqamətində məqsədyönlü borclanma siyasətinin həyata keçirilməsi nəticəsində 2022-ci ilin sonu ilə müqayisədə birbaşa daxili dövlət borcunun səviyyəsi mütləq ifadədə 180,5 milyon manat məbləğində artmaqla aprelin 1-nə 4 milyard 368,7 milyon manat təşkil edib.

“Azərbaycan Respublikasında dövlət borcunun idarə edilməsinə dair orta və uzun müddət üçün Strategiya”sı haqqında danışarkən bir mühüm məqamı xüsusi qeyd edək. Belə ki, adıçəkilən sənəddə istifadə olunan bir sıra makroiqtisadi göstəricilər, o cümlədən, ümumi daxili məhsul və manatın ABŞ dollarına qarşı məzənnə göstəriciləri ortamüddətli dövr üçün (2022–2025) qəbul edilmiş makrofiskal çərçivəyə əsaslanır.

Eyni zamanda, sözügedən strategiyada dövlət borcalmaları üzrə müəyyənləşdirilən strateji məqsədlərə çatmaq üçün bir sıra prioritet tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur. Onlar sırasında 2022–2025-ci illər üzrə dövlət borcunun ümumi daxili məhsula nisbətinin yuxarı həddinin 2025-ci ilin sonunadək 20 faizdən aşağı səviyyədə saxlanılması diqqət çəkir. Eyni zamanda, xarici dövlət borcunun ümumi daxili məhsula nisbətinin 10 faizə çatdırılması qarşıya mühüm vəzifə kimi qoyulur və yenilənən strategiya həmin məqsədə çatmaq üçün 2025-ci ilədək gerçəkləşdiriləcək tədbirləri əhatə edir.

Bu məqamda Maliyyə Nazirliyinin məlumatına əsaslanaraq qeyd edək ki, 2022–2025-ci illər üzrə yenilənən strategiyada ortamüddətli dövr ərzində dövlət büdcəsi qarşısında makroiqtisadi sabitliyə xələl gətirilməməsi, büdcənin gəlir və xərclərinin ahəngdarlığının təmin edilməsi, habelə tədiyə balansının tarazlığının pozulmasının qarşısının alınması, Dövlət Neft Fondunun aktivlərinin iqtisadi təhlükəsizliyinin qorunması, düşməndən təmizlənən ərazilərdə bərpa-quruculuq layihələrinin, habelə dövlətin əsas funksiyalarının (sosial təminat, səhiyyə, müdafiə, dövlət borcuna xidmət və s.) maliyyələşdirilməsi kimi bir sıra çağırışlar meydana gəlib.

***Vaqif BAYRAMOV,***
***“Xalq qəzeti”***

### Ekspert rəyi



**Vəkil HÜSEYNOV,**
**iqtisadçı-ekspert**

Azərbaycan həyata keçirilən uzaqgörən siyasət nəticəsində xarici dövlət borcu ilə əlaqədar davamlı şəkildə müsbət göstəricilər əldə edir. Bunun əsas səbəblərindən biri xarici dövlət borcunun daxili dövlət borcu ilə əvəzlənməsi, dövlət borcunun idarəsi üzrə strategiyanın uğurla gerçəkləşdirilməsidir.

Son illər xarici dövlət borcunun əhəmiyyətli şəkildə azaldılaraq 6,7 milyard dollar səviyyəsinə endirilməsi və bu göstəricinin ümumi daxili məhsulun təxminən 10 faizini təşkil etməsi “Azərbaycan Respublikasında dövlət borcunun idarə edilməsinə dair orta və uzun müddət üçün Strategiya”nın icrasının diqqət mərkəzində saxlanılmasının məntiqi nəticəsidir.

Burada xatırladaq ki, “Fitch Ratings” kimi nüfuzlu beynəlxalq agentlik ölkəmizin xarici valyutada uzunmüddətli emitent defolt reytinqini müsbət proqnozla “BB+” səviyyəsində təsdiqləyib. Reytinq ölkəmizin çox güclü xarici balansı, müvafiq ölkələr qrupunda ən aşağı dövlət borcu və suveren fond aktivlərindən maliyyələşmə çevikliyi ilə dəstəklənib.

Azərbaycanın xarici dövlət borcunun davamlı olaraq azaldılması dövlətin beynəlxalq maliyyə institutlarından asılılığının minimuma enməsinə gətirib çıxarıb. Xarici borc əsasən dövlət istiqraz emissiyası vasitəsilə aşağı salınıb.

Respublikamızda istiqraz bazarı isə son illər sürətlə inkişaf etməkdədir və dövlətin bazarı stimullaşdırmaq üçün atdığı əhəmiyyətli addımlar əhalinin vəsaitlərini bu yöndə investisiya etməsinə imkan yaradır. Xarici dövlət borcunun Maliyyə Nazirliyinin istiqrazları vasitəsilə azaldılması da dövlət istiqrazları bazarına müsbət təsir göstərir. Fiziki şəxslərin bank depozitlərinin faiz gəlirlərinin vergiyə cəlb olunması isə əmanətçiləri bu bazara yatırım etməyə həvəsləndirir. Çünki dövlət istiqrazlarının faiz gəlirləri vergidən azaddır.

# Xəzər sahillərindən Pamir zirvələrinə dostluq körpüsü

## *Azərbaycanın Qırğızıstanla yükdaşıma sahəsində əməkdaşlığı daha da genişlənəcək*

**(əvvəli 1-ci səhifədə)**

Hazırda Azərbaycan Mərkəzi Asiya dövləti olan Qırğızıstanla BMT, ATƏT, İslam Əməkdaşlıq Təşkilatı, Türk Dövlətləri Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı və digər beynəlxalq qurumlar çərçivəsində fəal əməkdaşlıq edir, bir çox məsələlərdə bir-birini dəstəkləyirlər.

İyulun 26-da Qırğızıstanın Çolpan-Ata şəhərində keçirilən Azərbaycan Respublikası ilə Qırğız Respublikası arasında iqtisadi və humanitar sahələrdə əməkdaşlıq üzrə birgə Hökumətlərarası Komissiyanın 5-ci iclası, eləcə də rəsmi şəxslərin və iş adamlarının iştirakı ilə keçirilən biznes forum münasibətlərin dərinləşdirilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir. Bugünlərdə isə iki ölkəni təmsil edən aparıcı qurumlar arasında imzalanmış bir sıra vacib sənədlər də iqtisadi sahədə əlaqələrin genişləndirilməsi baxımından yaxşı fürsət sayıla bilər. Bu baxımdan Azərbaycanın Abşeron Logistika Mərkəzi ilə “Qırğızıstan Dəmir Yolu” dövlət müəssisəsi, həmçinin “Qırğızıstan Poçt” ASC və “Smart Logistics” arasında qarşılıqlı əməkdaşlıq haqqında memorandumlar xüsusi əhəmiyyət kəsb edir.



Abşeron Logistika Mərkəzindən bildiriblər ki, “Qırğızıstan Dəmir Yolu” dövlət müəssisəsi ilə imzalanan memorandumun məqsədi yükdaşımalar sahəsində beynəlxalq əməkdaşlığı inkişaf etdirmək, dəmir yolu nəqliyyatı ilə yükdaşımaları təkmilləşdirmək, nəqliyyat və logistika sisteminin irəliyə doğru tərəqqi etməsi üçün plan və strategiyaları hazırlamaqdan ibarətdir. Bununla yanaşı, qarşılıqlı əməkdaşlıq çərçivəsində tranzit və idxal-ixrac yükləri üçün müasir logistik həllərin hazırlanması da nəzərdə tutulub.

Mərkəz ilə “Qırğızıstan Poçt” ASC arasında imzalanan memorandumda isə beynəlxalq logistika sahəsində istehsal, iqtisadi rəqabətliliyi artırmaq, yeni logistik həllərin təklifi istiqamətində əməkdaşlıq qurmaq, müxtəlif nəqliyyat növləri üzrə daşımaların təkmilləşdirilməsi məsələləri öz əksini tapıb.

Abşeron Logistika Mərkəzi ilə “Smart Logistics” MMC arasında logistik xidmətlər sahəsində qarşılıqlı əməkdaşlıq haqqında imzalanan memorandumda isə yüklərin qəbulu, yenidən hesablanması, saxlanılması, emalının təşkili, habelə yüklərin anbar sahəsinə yerləşdirilməsi, daşınma sifarişlərinin formalaşdırılması, çıxışa hazırlanması, müvafiq nəqliyyat və göndərilmə sənədlərinin tərtib edilməsi istiqamətində qarşılıqlı təcrübələrin mübadiləsi əks olunub.

Qeyd olunan memorandumlar Gəncə İş Adamları İctimai Birliyi və Azərbaycan–Qırğızıstan Ticarət Evinin birgə təşkilatçılığı ilə Qırğızıstanda baş tutan işgüzar forum zamanı imzalanıb. Bir çox şirkətlərin iştirak etdiyi tədbirin əsas məqsədi isə ölkələrarası iqtisadi ticarətin gücləndirilməsi və inkişaf etdirilməsidir.

Yeri gəlmişkən, iyulun 21-də “4-cü Sənaye İnqilabı dövründə Yeni Media” mövzusunda Şuşa keçirilən Qlobal Media Forumunun açılış mərasimində Qırğızıstanı təmsil edən Nurcan Qasımalıyevanın Azərbaycanın Mərkəzi Asiya ölkələri, xüsusən də Qırğızıstanla münasibətlərinin mövcud vəziyyəti ilə bağlı sualını cavablandıran Prezident İlham Əliyev iki ölkə arasında münasibətlərin dinamik, dostluq səviyyəsində olduğunu bildirmişdi.

Dövlətimizin başçısı ölkə rəhbərləri səviyyəsində qarşılıqlı səfərlərin bir çox sahələrdə əlaqələrin inkişafına təkan verməklə yanaşı, Xəzər dənizindən keçməklə Azərbaycan, Gürcüstan, Türkiyə vasitəsilə Avropaya çıxan nəqliyyat yollarının Mərkəzi Asiya ölkələri üçün ən mühüm nəqliyyat marşrutlarından biri olacağını vurğulamışdı. Ölkəmizin müasir nəqliyyat infrastrukturunun yükdaşıma üçün əlverişli olduğunu diqqətə çatdıran Prezident İlham Əliyev, həmçinin Azərbaycan və Qırğızıstan arasında münasibətlərin gözəl gələcəyinə də əminliyini ifadə etmişdi.

Hələlik isə iki Azərbaycan və Qırğızıstan hökumətlərinin iştirakı ilə investisiyaların təşviqi və qarşılıqlı qorunması haqqında, ticarət-iqtisadi əməkdaşlığı haqqında sazişlərin imzalanmasına, tərəflərin iqtisadi sahədə münasibətləri genişləndirmək niyyətlərinə baxmayaraq, iki ölkə arasında iqtisadi münasibətlər elə də yüksək səviyyədə deyil. Bunu Azərbaycanla Qırğızıstan arasında əmtəə dövriyyəsinin mövcud vəziyyəti də sübut edir.

2020-ci ildə iki ölkə arasında illik ticarət dövriyyəsinin həcmi cəmi 5 milyard 417,18 milyon dollar, 2021-ci ildə isə 9 milyard 18,17 milyon dollar olub. Bununla belə, 2022-ci ildə dövlət başçılarının qarşılıqlı səfərləri ölkələrimiz arasında bir çox sahələrdə əməkdaşlığa təkan verməklə yanaşı, əmtəə dövriyyəsinin də artmasına səbəb olub. Elə ötən il iki ölkə arasında ticarət dövriyyəsinin 10 dolları ötməsi də bunu təsdiqləyir.

2023-cü ilin əvvəlindən etibarən isə Azərbaycan və Qırğızıstan arasında idxal-ixrac əməliyyatlarının həcmində kəskin artım müşahidə olunur. Təkcə onu qeyd etmək kifayətdir ki, cari ilin yanvar-fevral aylarında iki ölkə arasında əmtəə dövriyyəsi 3 milyard 262 milyon dollar təşkil edib ki, bu da əvvəlki ilin müvafiq dövrünə nisbətən 2,88 dəfə çoxdur. Bununla belə, ölkələrimiz arasında əmtəə dövriyyəsinin indiki vəziyyəti heç də mövcud reallığı tam əks etdirmir. Xatırladaq ki, ötən ilin aprel və oktyabr aylarında Azərbaycan və Qırğızıstan Prezidentlərinin qarşılıqlı səfərləri zamanı da bu məsələyə münasibət bildirilmiş, ticari-iqtisadi əlaqələrin, o cümlədən əmtəə dövriyyəsinin genişləndirilməsi ilə bağlı nümayəndə heyətlərinin üzvlərinə müvafiq tapşırıqlar verilmişdi. Heç şübhəsiz, bütün bunlar, eləcə də imzalanmış yeni sənədlər ölkələrimiz arasında iqtisadi əlaqələrin genişlənməsinə və qarşılıqlı ticarətin həcminin artırılmasına imkan verəcək.

***Mirbağır YAQUBZADƏ,***
***“Xalq qəzeti”***



# Türkmənbaşıdan Ələtə konteyner daşımaları 2,9 dəfə çoxalıb

**Türkmənistanın dəniz ticarət donanmasının mediada yayılan məlumatına əsasən, cari ilin birinci yarısında bu ölkənin Türkmənbaşı beynəlxalq dəniz limanı ilə Bakı Beynəlxalq Dəniz Ticarət Limanı arasında daşınan konteynerlərin sayı 2 362 TEU-ya çatıb. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə 2,9 dəfə çoxdur.**

Yük daşımaların ümumi həcmindən 25 faizi idxal, 34 faizi ixrac, 41 faizi isə tranzit daşımaların payına düşüb. Cari ilin ilk 6 ayında Türkmənistan gəmiləri ilə yük daşımalarının ümumi həcmi 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə 31,4 faiz artaraq 1 milyon 150 min ton təşkil edib.

***“Xalq qəzeti”***

# Mərkəzi Bankın valyuta ehtiyatları artıb

**Azərbaycan Mərkəzi Bankının (AMB) məlumatına əsasən, bu il avqustun 1-nə ölkənin baş bankının valyuta ehtiyatları 9 milyard 244 milyon ABŞ dolları təşkil edib. Bu, ötən ayın eyni dövrü ilə müqayisədə 48,1 milyon dollar çoxdur.**




Beləliklə, AMB-nin valyuta ehtiyatları son 1 ildə isə 24,8 faiz və ya 1 milyard 836,8 milyon dollar artıb. Belə ki, 2022-ci ilin eyni dövründə bankın valyuta ehtiyatları 7 milyard 407,2 milyon dollar təşkil edib. İlin əvvəli ilə müqayisədə isə ehtiyatlar 2,8 faiz artıb.

***“Xalq qəzeti”***

# Orta illik inflyasiya 10,4 faiz proqnozlaşdırılır

**Maliyyə Nazirliyinin yaydığı sənəddə cari il ölkədə orta illik inflyasiyanın 10,4 faiz səviyyəsində olacağı proqnozlaşdırılır.**

Qeyd edək ki, 2023-cü ildə orta illik inflyasiya ilkin proqnozlar zamanı 6,9 faiz səviyyəsində nəzərdə tutulsa da, yenidən baxılma zamanı faktiki göstəricilər, gözlənilən meyillər nəzərə alınmaqla 10,4 faiz səviyyəsində olacağı proqnozlaşdırılır ki, bu da ilkin proqnozdan 3,5 faiz bəndi çoxdur.




***“Xalq qəzeti”***

2 Avqust Milli Kino Günüdür

# Azərbaycan kinosu yeni yüksəliş yolunda

*Yubiley ilində birləşmiş Azərbaycan kinematoqrafiyasından hamı böyük uğurlar gözləyir*

**Dünən Nizami Kino Mərkəzində Milli Kino Günü münasibətilə bayram toplantısı keçirildi.**





Mərasimin əvvəlində xüsusi olaraq hazırlanmış, Azərbaycan kinosunun keçdiyi yola işıq salan, həmçinin ümummilli lider Heydər Əliyevin kinoya və bu sahədə çalışan sənətkarlara hərtərəfli qayğı və diqqətini ayrı-ayrı kadrlarda əks etdirən video-çarx nümayiş etdirildi.

Azərbaycan kinosunun 125, "Azərbaycanfilm" kinostudiyasının 100 illik yubileylərinin də qeyd edildiyi kino günündə çıxış edən Mədəniyyət naziri Adil Kərimli milli kinematoqrafiyanın keçdiyi uzun və uğurlu yoldan danışdı. Nazir milli-mənəvi dəyərlərin yaşadılmasında və dünyaya çatdırılmasında, gənc nəslin vətənpərvərlik ruhunda böyüməsində kinonun müstəsna rol oynadığını qeyd etməklə yanaşı, son illər sahəyə dövlət qayğısının artırılmasını da xüsusi olaraq vurğuladı. O, bu sahədə mövcud qüsurların aşkar edilməsində və aradan qaldırılmasında birgə fəaliyyətin vacibliyini vurğuladı. Nazir ümummilli lider Heydər Əliyevin sənətin bu növünə daim qayğı ilə yanaşdığını, ayrı-ayrı filmlərin ərsəyə gəlməsində onun müstəsna xidmətlərini tədbir iştirakçılarının nəzərinə çatdırdı.

A.Kərimli çıxışında xalqımızın dəyərli sənətkarları, Xalq artistləri Şəfiqə Məmmədova və Rasim Balayevin rəhbərlik etdikləri kinematoqrafiya ittifaqlarının birləşib bu sahəni arzuedilən müstəviyə çıxaracağına əminliyini bildirdi. Hər iki sənətkarı səhnəyə dəvət edən nazir onlara milli kinonun inkişafında göstərdikləri xidmətlərə görə Mədəniyyət Nazirliyinin xüsusi Fəxri diplomlarını təqdim elədi.

Yubiley mərasimində çıxış edən Xalq artisti Şəfiqə Məmmədova 2 Avqust Milli Kino Günü münasibətilə Azərbaycan Kinematoqrafçılar İttifaqının təsis etdiyi Milli Kino Mükafatının yubiley ilində bir deyil, iki nəfərə veriləcəyini açıqladı. Yubiley ilinin laureatları Ayaz Salayev və Aydın Kazımzadə oldular. Ş.Məmmədova yubiley münasibətilə ittifaq üzvlərinin Fəxri fərmanla təltif etdiyini bildirdi və mükafatlandırılanların siyahısını oxudu.

Xalq artisti Rasim Balayev son illər hökumət, o cümlədən Mədəniyyət Nazirliyi tərəfindən sahəyə artan diqqəti razılıqla qeyd etdi və milli kinematoqrafiyanın tənəzzül illərindən, nəhayət, inkişaf dövrünə qədəm qoyacağına, gözəl filmlərlə tamaşaçıları sevindirəcəyinə inamını ifadə etdi. Sonra o, başçılıq etdiyi qurumun mükafatlarını laureatlara təqdim elədi.

Sonda "Avanqard" kamera orkestrinin ifasında milli kino musiqimizdən nümunələr ifa olundu.

Mərasimdə Özbəkistanın Mədəniyyət naziri Ozodbek Nazarbekov da iştirak edirdi. O, avqustun 1-dən 4-dək Bakıda keçirilən Özbəkistan Mədəniyyəti Günləri çərçivəsində Azərbaycanda səfərdədir.

**İ.HƏSƏNQALA,**
**"Xalq qəzeti"**

# Özbək sənətçilərin ürək sözləri

## *Fərrux Zakirov: "Təəssüratlarımız zəngindir"*



**Ölkəmizə təşrif gətirənlərdən biri məşhur estrada müğənnisi, bəstəkar və aktyor, Özbəkistanın Xalq artisti Fərrux Zakirov hər bir azərbaycanlının yaxşı tanıdığı sənətkardır. Atası Kərim Zakirov da Xalq artisti olub, bariton səsə malik opera müğənnisi kimi tanınıb. Anası Şahistə Səidova isə xalq mahnılarının mahir ifaçısı və Muqimi adına Musiqili Komediya və Dram Teatrının solisti idi. Bax, belə bir sənət ocağının yetirməsidir tenor səsli Fərrux Zakirov. O, 50 ildir ki, səhnədədir. Musiqisevərlər onun mərhum müğənni, yazıçı, şair, rəssam və aktyor Batır Zakirovun kiçik qardaşı olduğunu da bilirlər.**

Fərrux bəy Orta Asiya respublikalarının hamısının Xalq artisti adına layiq görülüb. Bir ara Özbəkistanın Mədəniyyət naziri də olub. Ötən əsrin 70-ci illərində onun yaratdığı "Yalla" qrupu dövrünün ən məşhur musiqi kollektivlərindən idi. Onların ifa etdikləri "Uçküdük (Üç quyu)", "Qız bola" kimi mahnıları keçmiş SSRİ-də dillər əzbəri olub. Bunlardan başqa, qrupun "Səmərqəndin mavi günbəzləri", "Bu, sevgidir", "Nəsrəddinin mahnısı", "Yalla", "Sevdiyim gözlər olmadan", "Şəhrisabz", "Parılda Daşkənd", "Cinnuni" və s. mahnıları da daim xatırlanır.

**Fərrux Zakirov ailə ənənəsinin davamı barədə danışanda dedi:**

– Atam, anam və böyük qardaşımı bilirsiniz. Məndən 3 yaş kiçik qardaşım – mərhum Cəmşid teatr və kino aktyoru, teleaparıcı olub, Özbəkistanın Əməkdar artisti idi. Bacım Luiza və qızı Nərgiz də müğənnidirlər. Gözümüzü açandan incəsənət mühitində, musiqi aləmində olmuşuq.

**Görkəmli sənətçi Bakı təəssüratlarını da həvəslə bölüşdü:**

– Burada ömrə yazılacaq unudulmaz günlər keçiririk, – dedi. – Öncə Mədəniyyət nazirimiz Ozodbek Nazarbekovun rəhbərliyi ilə nümayəndə heyətimiz Fəxri xiyabanı və Şəhidlər xiyabanını ziyarət etdi. Azərbaycan xalqının ümummilli lideri, özbək xalqının isə yaxın dostu olmuş Heydər Əliyevlə akademik Zərifə Əliyevanın, eləcə də Azərbaycanın azadlığı və ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərin məzarlarını ziyarət elədik.

Siz azərbaycanlıların özbək musiqisinə sevgisini nəzərə alaraq, konsert proqramımıza ən yaxşı mahnılarımızı daxil etmişik. Dövlət Simfonik Orkestrinin müşayiəti ilə ilk açılış konsertimiz yüksək səviyyədə keçdi, çox bəyənildi. Əminik ki, növbəti çıxışlarımız da tələbkar Bakı tamaşaçılarının xoşuna gələcək, hamıda məmnunluq yaradacaq.

***"Xalq qəzeti"***

# Özbəkistan Mədəniyyəti Günləri davam edir

**Bakıda Özbəkistan mədəniyyəti günləri çərçivəsində rəngarəng tədbirlər keçirilib. Azərbaycan Milli Kitabxanasında "Özbək ədəbiyyatı guşəsi"nin açılışı xüsusilə yaddaqalan olub.**



Tədbirdə Azərbaycanın mədəniyyət naziri Adil Kərimli, Özbəkistanın mədəniyyət naziri Ozodbek Nazarbekov, Özbəkistanın ölkəmizdəki səfiri Bahrom Əşrəfxanov, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti, Günay Əfəndiyeva, Yazıçılar Birliyinin sədri Anar, mədəniyyət xadimləri iştirak ediblər.

Əvvəlcə qonaqlar "Özbək ədəbiyyatı guşəsi" ilə tanış olublar. Kitabxananın direktoru, professor Kərim Tahirov Azərbaycan Milli Kitabxanasının Özbəkistan Milli Kitabxanası ilə qarşılıqlı əməkdaşlıq çərçivəsində fəaliyyətindən danışıb. O, kitabxananın fondunda mövcud olan özbək ədəbiyyatı və qardaş xalqın ədəbiyyatına dair Milli Kitabxanada yaradılan daimi guşə haqqında nümayəndə heyətinə məlumat verib.

**Özbəkistanın mədəniyyət naziri Ozodbek Nazarbekov** xalqlarımız arasında dərin tarixi-mədəni əlaqələrin olduğunu qeyd edib. Özbəkistan Mədəniyyət Günlərinin Azərbaycanın paytaxtında keçirilməsinin dost ölkənin tarixi, mədəniyyəti, adət-ənənələri ilə daha yaxından tanış olmaq, həmçinin iki ölkə arasında mədəni əlaqələri genişləndirmək üçün imkanlar yaratdığını vurğulayıb.

Sonra Abdulla Qədiriyə həsr olunmuş videoçarx nümayiş etdirilib.

Tədbir çərçivəsində Milli Kitabxanada özbək ədəbiyyatının görkəmli nümayəndəsi Abdulla Qadirinin "Ötən günlər" əsərinin Azərbaycan dilinə tərcümə olunmuş yeni nəşri təqdim olunub.

**Kitaba "Ön söz"ü AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun şöbə müdiri, filologiya elmləri doktoru Almaz Ülvi yazıb. Müəllif yazıçının qələmə aldığı ağrı-acılı həyatın oxucunun qəlbini ağrıtdığını bildirdi:** "Bu qədər ağır notların baş alıb getdiyi əsər niyə 100 ildir ki, sevə-sevə oxunur, təkrar-təkrar nəşr olunur, həm də dünyanın bir çox dillərinə tərcümə edilib. "Ötən günlər"in sadə və axıcı dillə yazılması, personajların xarakterlərinin təfərrüatında ilıq bir təbəssüm görünməsi, eşqin saflığı, ucalığı, ailə–el adət-ənənəsinin təqdimi və nəhayət, təbiət lövhələrindən yazılı etüdlər əsərə rəng qatır. Sanki göy qurşağı rənginə bələnmiş gözəllik faciə və tale ağrılarını öz sehrində gizlətməyə çalışır".

Təqdimatdan sonra Özbəkistan Mədəniyyəti Günləri çərçivəsində keçirilən tədbirlər və iştirakçıların təəssüratları ilə bağlı müsahibə aldıq.

**Filologiya elmləri doktoru, professor Bahodır Kərimov** Azərbaycanla Özbəkistan arasında ədəbi-mədəni əlaqələrin çox qədim tarixinin olduğunu dedi. Azərbaycanlıların və özbəklərin eyni kökə, mədəniyyətə, qədim tarixi münasibətlərə və ənənələrə malik olduğunu bildirən B.Kərimov vurğuladı ki, xalqlarımızın tarixində, milli maraqlarında, onların yaşadıqları həyat tərzində ümumi cəhətlər çoxdur: Qədim tarixə və mədəni irsə malik olan Azərbaycan və Özbəkistan xalqları arasında mədəni əlaqələr minillər boyu inkişaf etmişdir. Özbək ədəbiyyatının dahi mütəfəkkiri Əlişir Nəvai Nizami Gəncəvi yaradıcılığından bəhrələnib və o da "Xəmsə" yazıb. Əlişir Nəvai və Nizami Gəncəvi öz irsləri ilə bütün dünya ədəbiyyatına misilsiz töhfələr vermişlər. Bakıda Əlişir Nəvainin, Daşkənddə isə Nizami Gəncəvinin abidələri ucaldılıb. Bu gün görkəmli Azərbaycan və özbək klassiklərinin əsərlərinin qarşılıqlı şəkildə tərcümə olunub, kütləvi tirajla çap edilməsi Azərbaycan – Özbəkistan ədəbi, mədəni əlaqələrinin inkişafının parlaq nümunəsidir.

Bakıda Özbəkistan Mədəniyyəti Günləri çərçivəsində incəsənət ustalarının iştirakı ilə maraqlı konsert proqramlarının təqdim edildiyini deyən qonaq qeyd etdi ki, bu musiqi nümunələrinin hər biri tamaşaçılar tərəfindən böyük maraqla qarşılanıb.

Bahodır Kərimov Bakıda ilk dəfə olduğunu, paytaxtımızın onda unudulmaz təəssüratlar yaratdığını da bildirdi: "Qədimliklə müasirliyin vəhdət təşkil etdiyi Bakının arxitekturası heyrətamiz gözəlliyə malikdir. Gözəlliklər məskəni olan Bakını bəzən Xəzərin mirvarisi adlandırırlar. Xəzər Bakını sanki anatək qoynuna alıb. Sahil boyu uzanan və füsunkar gözəlliyə malik olan Dənizkənarı bulvardan xüsusi zövq aldım".

**Özbəkistan Mədəniyyəti Günləri çərçivəsində "Dutorchi" qızlar ansamblının təqdim etdiyi maraqlı musiqi nömrələri qəlbləri sanki ovsunlayır. Ansamblın üzvü Maftuna Torayeva Bakıda olmaqdan böyük məmnunluq duyduğunu bildirdi:** "Ansamblımızın hər bir üzvü Bakıya vuruldu. Burada təqdim etdiyimiz musiqiləri insanlar böyük maraqla dinləyirlər. Repertuarımızda Azərbaycan musiqilərinə də yer virmişik. Doğrudan da, musiqi xalqları yaxınlaşdırır, birləşdirir, daha da doğmalaşdırır. Burada çoxlu dostlar qazanmışıq. Azərbaycanlılar çox qonaqpərvər və səmimidirlər. Musiqilərimiz oxşar olduğu kimi, insanlarımız da bir-birlərinə çox bənzəyirlər. Ötən günlər ərzində davam edən konsert proqramları, həmçinin ədəbi-mədəni tədbirlər çox xoşumuza gəlir".

**Abdulla Qədirinin nəvəsi, alim Xandamir Qədiri isə "Xalq qəzeti"nə açıqlamasında xalqlarımızın dost, qardaş münasibətləri, mədəni və ədəbi əlaqələrimiz haqqında həvəslə danışdı.** O qeyd etdi ki, hazırda Abdulla Qədirinin Daşkənd şəhərindəki ev-muzeyinin rəhbəridir: "Günü-gündən yüksələn Azərbaycan-Özbəkistan əməkdaşlığının tarixi kökləri var. Ölkələrimiz arasında ədəbi-elmi və mədəni əlaqələr xalqlarımız və ədəbiyyatlarımız arasında möhkəm körpüdür. Abdulla Qədirinin "Ötən günlər" kitabının Azərbaycan dilində yenidən nəşr olunması məni çox sevindirir. Kitabın yüksək səviyyədə təqdimatı xalqlarımız arasında əməkdaşlığın uğurlu inkişafının daha bir parlaq nümunəsidir.

***L.QURBANOVA,***
***"Xalq qəzeti"***

Qardaşlaşmış şəhərlər

# Lənkəran–Monterey dostluğu möhkəmlənir



**Azərbaycanın Lənkəran və ABŞ-ın Kaliforniya ştatının Monterey şəhərləri arasında qardaşlıq əlaqələri 2011-ci ildən başlayıb. Qarşılıqlı səfərlər, birgə tədbirlər sayəsində ünsiyyət körpüsü daha da genişlənib.**

Xatırladaq ki, Montereydəki Hərbi Dəniz Donanması Ali Məktəbinin azərbaycanlı tələbələrinin təşəbbüsü ilə yaradılan Lənkəran-Monterey qardaşlaşmış şəhərlər münasibətləri Azərbaycanın multikultural siması və zəngin irsini Monterey yarımadasında tanıda bilib.

Monterey–Lənkəran Dostluq Assosiasiyasının həmsədri, ABŞ şəhərinin sabiq vitse-meri Nensi Selfric bizə müsahibəsində həyata keçirilən birgə layihələrdən danışaraq demişdi: "Mən bura hər səfərimdə Azərbaycana daha böyük rəğbət bəsləyirəm, amma Lənkəranın yeri mənim üçün xüsusidir".

Azərbaycanla ABŞ arasında dostluq və tərəfdaşlıq münasibətlərinin 30 illiyi münasibətilə montereyli qonaqların iştirakı ilə Lənkəran Dövlət Universitetinin nəzdində Sosial və Aqrar-Texnoloji Kollecinin müəllim və tələbələri yubiley proqramı təqdim ediblər. Sonra amerikalı qonaqlar fermer təsərrüfatında çay yarpağı yığımı, emalı və istehsalı prosesində iştirak ediblər. Separadi kənd folklor evinin "Nənələr" qrupu amerikalı qonaqları talış musiqi mədəniyyətinin nümunələri ilə tanış edib. Bildirilib ki, fermer təsərrüfatında "Monterey Tea" brendi altında Lənkəran çayı istehsal olunur.

Ötən ilin payız günlərində isə 65-ci Monterey Caz Festivalında ilk dəfə Azərbaycan təmsil olunub. Bugünlərdə rayonun İstisu qəsəbəsində yenicə salınmış "Dostluq parkı"nın açılışında bütün bunlar barədə ətraflı söhbət açılıb.

Mərasimdə Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov, Lənkəran–Monterey Dostluq Assosiasiyasının həmsədri Nensi Selfric və Azərbaycanın Los-Anceles şəhərindəki baş konsulu Ramin Qurbanov iştirak ediblər.

Taleh Qaraşov bildirib ki, yeni salınan parkda gələcəkdə Monterey günlərinin keçirilməsi təklifini irəli sürmüşük. Bu, iki şəhər arasındakı münasibətlərin daha da yaxşılaşmasına xidmət edəcək.

Ramin Qurbanov isə Lənkəranla Monterey şəhərlərinin qardaşlıq əlaqələrinin davamlılığı və inkişafı baxımından nümunə olduğunu qeyd edib. O, 44 günlük Vətən müharibəsindən sonra Kaliforniya ştatında xalqımıza qarşı erməni antitəbliğatının fəallaşdığını və bu baxımdan Lənkəranla Monterey şəhərləri arasındakı münasibətlərin daha da inkişaf etdirilməsinin vacibliyini qeyd edərək, qarşılıqlı əlaqələrin Azərbaycan diasporunun fəaliyyətinə müsbət təsir göstərdiyini vurğulayıb. Baş konsul buna görə Lənkəran şəhər rəhbərliyinə və Dostluq Assosiasiyasının həmsədri xanım Nensiyə xüsusi minnətdarlığını bildirib.

Xanım Nensi Selfric Lənkəranda olmağından və tədbirdə iştirakından məmnunluğunu söyləyərək, qısa müddətdə gözəl bir "Dostluq parkı"nın salınmasını təqdir edib. O, iki şəhər arasındakı əlaqələrin inkişafı ilə qürur duyduğunu qeyd edib. Xanım həmsədr Montereydə də Lənkəran günlərinin keçirilməsini zəruri hesab etdiyini bildirib.

Xatırladaq ki, İstisu qəsəbəsində ümumi sahəsi 5 hektar olan ərazidə salınan "Dostluq parkı" 2 hissədən – göl və bağdan ibarətdir. Tikintisinə 2022-ci ildən başlanılan parkın yarıdan çoxunda işlər yekunlaşıb. Ərazidəki süni göldə gənclərin istirahəti üçün katamaranlar yerləşdirilib, söhbətgahlar tikilib və ətrafda yaşıllıqlar salınıb.

Mərasimin sonunda iştirakçılar yeni yaradılan süni gölə körpə balıqlar buraxıblar.

***Əli NƏCƏFXANLI,***
***"Xalq qəzeti"***

# İki xalqın könül dünyası

**"Keçmişimizə baxanda Özbəkistan və Azərbaycan xalqları arasında daim ədəbi əlaqələr mövcud olub. Təəccüblü deyil ki, bir çox Azərbaycan yazıçıları Özbəkistanda yaşayıb-yaradıblar. Eyni zamanda Özbəkistan yazıçıları Azərbaycanda yaşayıb-yaradıb, ədəbiyyatına böyük töhfə veriblər".**



Bu fikirləri Azərbaycanda Özbəkistan Mədəniyyəti Günlərində iştirak etmək üçün ölkəmizə gəlmiş nümayəndə heyətinin rəhbəri, qardaş ölkənin Mədəniyyət naziri Ozodbek Nazarbekov jurnalistlərə müsahibəsində söyləyib.

Nazir qeyd edib ki, üç gün müddətində Azərbaycanda keçirilən Özbəkistanın mədəniyyət günləri çərçivəsində təşkil olunacaq silsilə tədbirlər ədəbiyyat sahəsini də əhatə edir.

"Nümunə kimi Abdulla Qədirinin "Ötən günlər" əsərinin Azərbaycan dilində yeni tərcümə olunmuş nəşrini göstərə bilərik. Tədbirdə alimlərin qeyd etdiyi kimi, Azərbaycanla birlikdə görəcəyimiz vacib işlərimiz var. İki ölkə arasında tarixən formalaşan ədəbi tərəfdaşlıq bu gün də davam edir və bu əlaqələr sayəsində dünyada böyük nailiyyətlər qazanacağıq. Bu, bütövlükdə, türk ədəbiyyatının nüfuzunun dünya miqyasında artmasına kömək edəcək. Bu gün biz bunun şahidiyik. Ədəbi əlaqələrimizin qədim zamanlardan bəri möhkəm təməli var. Lakin mədəniyyət sahəsində əlaqələr Özbəkistan və Azərbaycan xalqının, bütün türk dünyasının ədəbi potensialını dünyaya nümayiş etdirməsinin bəlkə də ən düzgün yoludur", - deyə nazir Ozodbek Nazarbekov əlavə edib.

***"Xalq qəzeti"***

# Nasist canilər və Meşəli cinayəti

## *Qisasın Qiyamətə qalmayacağı fikri bir daha təsdiqini tapır*

**(əvvəli 1-ci səhifədə)**

Ancaq haqq-ədalətin gec-tez öz yerini tapacağı düşüncəsinə qapılıb, əl-qolunu yanına sallayıb oturmaq da olmaz. Cinayətkarı cəzasına çatdırmaq üçün hərəkətə keçmək lazımdır. Əgər Azərbaycan dövləti güclü olmasaydı, ordu quruculuğuna, iqtisadiyyatın güclənməsinə, gənclərin yüksək vətənpərvərlik ruhunda tərbiyəsinə xüsusi önəm verilməsəydi Vətən müharibəsində Qələbə qazana və bu gün hərbi canilərin mühakiməsindən danışa bilməzdik.

Bütün bunlar olmasaydı, təcavüzkar yenə də torpaqlarımızda at oynadar, təbii sərvətlərimizi talan edər, qanunsuz məskunlaşardı. Qarabağ kimi əsrarəngiz təbiətə malik qədim yurd yerimiz narkotik qaçaqmalçılığı üçün tranzit rolunu oynayar, Laçın yolu, necə deyərlər, açıq qapı olaraq qalardı. Üstəlik, Nikol Paşinyan başının dəstəsi ilə həftə səkkiz, mən doqquz Şuşaya, Xankəndiyə, Kəlbəcərə, Laçına səfərlər edər, oradan fotolar, videolar paylaşaraq bizə acıq verərdi. Bütün bunlara Ali Baş Komandanın rəhbərliyi altında güclü ordumuz, xalqın öz liderinin ətrafında sıx birləşməsi son qoydu.



***

Vaqif Xaçatryanın həbsi İkinci Dünya müharibəsinin başa çatmasından sonra nasist Almaniyasının bir sıra hərbi cinayətkarlarına qarşı 1945-46-cı illərdə keçirilən və Nürnberq tribunalı adını alan məhkəmə proseslərini yada salır. Həmin məhkəmə Almaniyanın Nürnberq şəhərindəki Ədalət sarayında baş tutub. Bu, tarixdə cinayətkarları – təcavüzkar müharibələr hazırlamaqda, qızışdırmaqda və aparmaqda təqsirkar olan dövlət xadimlərini, milyonlarla günahsız insanı məhv etmək üçün cinayət planlarının təşkilatçılarını və icraçılarını ədalətli və layiqincə cəzalandıran ilk beynəlxalq məhkəmə idi.

Oktyabrın 18-də tribunalın rəsmi iqamətgahında – Berlində ilk texniki iclas keçirilib. Bu zaman məhkəmənin əsas hərbi cinayətkar German Gerinq başda olmaqla, 24 nəfəri mühakimə edəcəyi məlum olub. İlk açıq məhkəmə iclası isə 1945-ci il noyabrın 20-də Nürnberqdə başlayıb. Anti-Hitler koalisiyasının dörd ölkəsini təmsil edən səkkiz hakimdən ibarət Beynəlxalq Hərbi Tribunalda nasist Almaniyasının keçmiş liderlərinə ittiham elan olunub. ABŞ, Böyük Britaniya, SSRİ və Fransanın prokurorluq qrupları tərəfindən hazırlanan ittiham aktında dörd maddə var idi: sülh əleyhinə cinayətlər, insanlıq əleyhinə cinayətlər, müharibə qanunlarının pozulması (müharibə cinayəti) və bu cinayət əməllərini reallaşdırmaq üçün sui-qəsdlərin törədilməsi. İttiham tərəfi ilk dəfə olaraq rəsmi sənədə "soyqırımı" adlı yeni termin daxil edib.

Prokurorların çıxışlarında, xüsusən də açılış nitqləri zamanı qalib ölkələrin dörd nümayəndəsi İkinci Dünya müharibəsi hadisələri ilə bağlı öz baxışlarını açıqlayıb. Beynəlxalq Hərbi Tribunala sənədlər və şahidlər təqdim etməklə prokurorluq Holokost və işğal altıda yaşayan insanların həyat hekayələrinin şişirtmə olmadığına dair şübhələri aradan qaldıra bilib. Maraqlıdır ki, müdafiə zamanı müttəhimlər kütləvi cinayətlər törətməkdə təqsirli olduqlarını inkar ediblər. Onlar sübut etməyə çalışıblar ki, müttəfiq dövlətlərin hökumətləri də oxşar şəkildə davranıblar və Üçüncü Reyx hakimiyyəti tərəfindən sanksiya verilən bütün cinayətlərə görə artıq həyatda olmayan Adolf Hitler, Henrix Himmler və Reynhard Heydrix məsuliyyət daşıyır. Təqsirləndirilən şəxslər, həmçinin bu cinayətlər və onların miqyası barədə tam məlumatlı olmadıqlarını və ya tamamilə xəbərsiz olduqlarını iddia ediblər.

Beynəlxalq Hərbi Tribunalın hakimləri çoxlu fikir ayrılıqlarını aradan qaldıraraq, 1946-cı ilin oktyabrın 1-dək prosesin əsas hüquqi prinsipləri və ayrı-ayrı şəxslər üçün konkret hökmlər barədə ümumi mövqe formalaşdıra biliblər. Təqsirləndirilən şəxslərin bəziləri 10 ildən 20 ilədək azadlıqdan məhrum edilib, üç nəfərə ömürlük, 12 nəfərə isə asılmaq yolu ilə edam cəzası verilib. Edam cəzaları oktyabrın 16-da icra edilib.




***

Nasist Almaniyasının rəhbərliyinə daxil olan 24 nəfər üzərində Nürnberq məhkəmə prosesindən əlavə, XX əsrin 70-80-ci illərinədək, yəni müharibənin başa çatmasından 35-40 il sonra da ayrı-ayrı ölkələrdə və şəhərlərdə çoxsaylı məhkəmə prosesləri keçirilib. Beləliklə, cinayət törətmiş şəxslər öz cəzalarına çatdırılıb. Çünki dünyanın əksər ölkələrinin cinayət qanunvericiliyinə əsasən, cinayət məsuliyyətinə cəlbetmə müddəti sülh və insanlıq əleyhinə, müharibə cinayətlərinə şamil edilmir. Yəni, üstündən neçə il keçməsinə, cinayət törədənin hansı yaşda olmasına baxmayaraq, şəxs müttəhimlər kürsüsünə çıxarılır.

Görünən odur ki, belə məhkəmə prosesləri tezliklə Birinci Qarabağ müharibəsi zamanı azərbaycanlılara qarşı hərbi cinayətlər törətmiş şəxslərlə bağlı da keçiriləcək. 24 nasist üzərində Nürnberq Tribunalı başlanğıc olduğu kimi, Vaqif Xaçatryanın məhkəməsi də Qarabağda cinayətlər törətmiş şəxslər üzərindəki ilk məhkəmə olacaq. Vaqifin yaşının neçə olması, xəstəliyi burada rol oynamır. Onun Bakıda tibb müəssisəsinə yerləşdirilməsi, zəruri tibbi yardım alması da təmin edilib. Beynəlxalq Qırmızı Xaç Komitəsinin nümayəndələrinin ona baş çəkməsinə şərait yaradılıb. Xaçatryan sağaldıqdan sonra törətdiyi əməllərinə görə cavab verəcək.

Baş Prokurorluğun saytında yerləşdirilmiş Qarabağda qanunsuz fəaliyyət göstərən erməni silahlı hərbi birləşmələri və Ermənistan silahlı qüvvələri tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə, habelə ağır və xüsusilə ağır cinayətlərin xronologiyası bölməsində Meşəli soyqırımı barədə deyilir: "Erməni silahlı dəstələrinin üzvləri 1991-ci il dekabrın 22-də saat 07 radələrində iri çaplı odlu silahlardan, zirehli transportyorlardan və piyadaların döyüş maşınından, pulemyotlardan, oqnemyotlardan, avtomatlardan intensiv atəş açaraq Xocalı rayonunun Meşəli kəndinə daxil olub və səhər yuxudan oyanmayan kənd əhalisini öz evlərində, küçədə atəşə tutub və nəticədə 25 nəfər azərbaycanlı qəsdən öldürülüb, 14 nəfərə müxtəlif dərəcəli bədən xəsarətləri yetirilib, 2 nəfər girov götürülüb. 41 yaşayış evi, dövlət, ictimai idarə, müəssisə və təşkilatların binaları yandırılıb. Kənd sakinlərinin və kolxozun mal-qarası, taxıl və digər ərzaq məhsulları, dövlət və şəxsi nəqliyyat vasitələri, 80 ton taxıl və ehtiyat hissələri yerləşən anbarlar, kənd mağazası qarət edilib. Kəndə, ümumilikdə, 5 milyon 496 min manat dəyərində maddi ziyan vurulub, 358 nəfər kənd sakini deportasiyaya məruz qalıb".

Təəssüf ki, Meşəli faciəsi tariximizdə tək deyil. Erməni quldurları Birinci Qarabağ müharibəsində Kərkicahan, Bağanis-Ayrım, Cəmilli, Malıbəyli, Quşçular, Qaradağlı, Xocalı, Ballıqaya, Başlıbel kimi yaşayış məntəqələrimizdə də Meşəlidəki kimi cinayətlər törədiblər. Bu cinayətləri törədənlərin də cəzasına yetişəcəyi gün uzaqda deyil. Artıq Qarabağdakı canilərin canına vəlvələ düşüb. Son günlərini yaşayan separaçı rejimin "ilk müdafiə naziri" Samvel Babayanın bugünlərdə verdiyi müsahibədə səsləndirdiyi fikirlər buna misal sayıla bilər. Deyib ki, Azərbaycanın siyahısında 300-dən çox şəxsin adı var. Maraqlıdır ki, separatçılar arasında Azərbaycanla razılığa getməyə ilk çağırış edən də S.Babayan olub. O, bir müddət öncə qeyd etmişdi ki, qarşılıqlı etimada nail olmaq üçün azərbaycanlılarla danışıq aparmaq, dialoqa başlamaq lazımdır. Babayan bundan sonra da oxşar sürprizlərlə üzləşəcəklərini qeyd edib. Əlavə edib ki, onun başçılıq etdiyi "siyasi partiya"nın hazırlayıb Arayik Arutyunyana təqdim etdiyi 45 bənddən ibarət layihədə Azərbaycandan amnistiyanın alınmasına nail olunması bəndi də var idi.

***

Xaçatryanın həbsi İsrailin kəşfiyyat xidməti "Mossad"ın nasist hərbi canisi, "Holokostun memarı" kimi tanınan Adolf Eyxmanın Argentinada saxlanılaraq İsrailə gətirilməsini özündə ehtiva edən "Final" əməliyyatını yada salır. Elə bugünlərdə sosial şəbəkələrdə bu iki həbs barədə tez-tez yazılır, paralellər aparılır. Əməliyyat 1960-cı ilin mayında qeyri-rəsmi həyata keçirilib, yəni, Argentina tərəfinin xəbəri olmayıb. İsrail bunu İkinci Dünya müharibəsi zamanı Avropa yəhudilərinin soyqırımının təşkilində bilavasitə məsuliyyət daşıyan Eyxmanın misli görünməmiş cinayətləri ilə əsaslandırıb. Argentina sonradan nasistlərə sığınacaq verdiyinə görə Holokost qurbanlarından rəsmən üzr istəyib.

İsrail üçün Eyxman axtarışda olan nasistlər siyahısında bir nömrəli idi və onun tutulması prinsipial əhəmiyyət daşıyırdı. Eyxman "yəhudi məsələsinin yekun həlli" (yəni, Avropa yəhudiliyinin məhv edilməsi) haqqında qərarların həyata keçirilməsində əsas rol oynayıb. İkinci Dünya müharibəsi zamanı Avropa yəhudilərinin ölüm düşərgələrinə göndərilməsi üzrə bütün əməliyyatlara məhz o rəhbərlik edib. Eyxman 1945-ci ildə faşist Almaniyasını məğlub edən müttəfiq ölkələrin məxfi xidmətlərindən qaça bilib. O, 1950-ci ildə Argentinaya köçüb və Buenos-Ayresdə Rikardo Klement adı altında məskunlaşıb. Eyxman 1962-ci il iyunun 1-də məhkəmənin hökmü ilə İsrailin Ramla şəhərində edam edilib.

V.Xaçatryanın törətdiyi cinayətlərə və bəzi ermənipərəst dairələrin ölkəmizə ittihamlarına baxmayaraq, Azərbaycan onu qaçırmayıb və oğurlamayıb. Xaçatryan beynəlxalq və yerli qanunvericilik əsasında mühakimə olunacaq. Onunla əlbir olan, soyqırımı aktlarının əsas təşkilatçıları və icraçıları olan Robert Koçaryan, Serjik Sarkisyan, Seyran Ohanyan, Samvel Babayan, Arkadi Qukasyan, Bako Saakyan və Zori Balayan kimilər hələ ki, azadlıqdadır. Növbənin onlara yetişəcəyi gün isə uzaqda deyil. Xaçatryanın aqibətinin adları çəkilən neofaşitləri də gözlədiyi artıq heç kimdə şübhə doğurmur.

**Səxavət HƏMİD,
"Xalq qəzeti"**

# Erməni qatillər cəzalandırılmalıdırlar

**Xocalılar, Qarabağdan qovulmuş digər soydaşlarımız 30 ildir doğma torpaqlarının ağrı-acısı ilə yaşayıblar. Eyni zamanda Xocalı soyqırımının, Meşəli, Cəmilli, Malıbəyli, Qarabağlı qırğınlarının dəhşətləri qəlbimizdə ağır yaraya çevrilib. Biz əli azərbaycanlıların qanına batmış erməni qatillərinin hamısının cəzalandırılmasını istəyirik.**




Bu sözləri "Xalq qəzeti"nə müsahibəsində "Xocalının səsi" qəzetinin redaktoru Qalib Bəyməmmədov deyib. O qeyd edib ki, Vətən müharibəsində soyqırımı cəlladlarının məhv edilməsi ilə xocalılar mənəvi rahatlıq tapdılar:

– Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev həmişə deyirdi ki, biz Qarabağı qaytaracaq, mənfur düşməndən qisasımızı alacağıq. Meşəli soyqırımı qatili, eyni zamanda Xocalı soyqırımında iştirak etmiş cani Vaqif Xaçatryanın tutulması bizi qürurlandırdı. Laçın sərhəd məntəqəsinin qoyulmasının əhəmiyyəti bir daha təsdiq olundu. Vaqif Xaçatryanı peşəkarlıqla aşkar edib saxlayan sərhədçilərimizi alqışlayırıq.

Biz istəyirdik ki, qisasımız alınsın. Bu qatı cinayətkarı meşəlilər, eyni zamanda xocalılar yaxşı tanıyırlar. Onun əli günahsız insanların – körpələrin, qocaların, qadınların qanına bulaşıb. Həmin dəhşətli soyqırımı hadisələrinin şahidləri bildirirlər ki, Xaçatryan ən cinayətkar baş dəstə üzvlərindən biri olub. O, Meşəlidən sonra Xocalı soyqırımında da iştirak edib. Eyni zamanda, Azərbaycanın digər yaşayış məntəqələrinin işğalında, talan edilməsində əli olan canidir.

Xocalı soyqırımının qatillərinin hamısı törətdikləri dəhşətli cinayət üçün cavab verəcəklər. Cənab Prezidentin dediyi kimi, digər qatillər də öz cəzalarını alacaqlar. Biz həmin günü gözləyirik. Sarkisyan, Ohanyan, Koçaryan və digər qatillər tökdükləri azərbaycanlı qanına görə cavab verəcəklər.

Biz Meşəli soyqırımı qurbanları beynəlxalq ictimaiyyətə açıq məktubla müraciət etdik. Bu müraciətdə bildirdik ki, dünya ictimaiyyəti, beynəlxalq təşkilatlar Xocalı soyqırımına, erməni təcavüzünə göz yumdu. Onların layiqli cəzasını vermədi. BMT-nin qətnamələri yerinə yetirilmədi. Ancaq Azərbaycan öz gücünə bu qətnamələri yerinə yetirdi. Prezident İlham Əliyevin apardığı qətiyyətli siyasət hesabına düşmənlər layiqli cəzalarını aldılar. Bu gün Qarabağ torpağı azaddır. Qarabağ abadlaşır. Biz Qarabağa böyük qayıdışa başlamışıq. Xocalı soyqırımı, Meşəli cəlladlarının məhv edilməsi bizə mənəvi rahatlıq gətirir. Onların Azərbaycan məhkəməsi qarşısında cavab vermələrini gözləyirik.

Müsahibimiz sonda dedi: "44 günlük Vətən müharibəsində oğullarımız ölümün gözünə dik baxdılar. Xalqımıza soyqırımı törətmiş qatillər məhv edildi. Bir silah bəs edirdi ki, onların hamısı məhv edilsin. Amma bu qatillərin Azərbaycan qanunları qarşısında cavab verməsi vacib şərtdir. Bu, həm də onların içüzünü dünya ictimaiyyətinə göstərmək üçün yaxşı vasitədir".

**L.SABİRQIZI,
"Xalq qəzeti"**

# Meşəli sakinləri soyqırımı ağrısı ilə yaşayırlar

**"Meşəli kəndində erməni silahlılarının, o cümlədən Vaqif Xaçatryanın törətdikləri qətliam insanlığa sığmayan soyqırımıdır. Həmin dəhşətli hadisədən 32 il ötməsinə baxmayaraq, o ağrılı günləri unutmaq olmur. Kənddə elə ailələr olub 5, eləsi də 4 üzvünü bir gündə itirib. Erməni faşistləri sakinlərimizi xüsusi amansızlıqla, zülm verməklə qətlə yetiriblər". Meşəlidən məcburi köçkün İbrahim Quliyev daha sonra bildirdi:**



– Ailəmizdə biz 8 nəfər olmuşuq, 4-nü, o cümlədən qardaşımı Vaqif Xaçatryanın rəhbərlik etdiyi cəllad ermənilər güllələdikdən sonra yandırdılar, insanları işgəncə ilə qətlə yetirdilər. Heç kəsə aman vermədilər. Nə uşağa, nə qadına, nə yaşlıya... ələ keçən hər kəsi işgəncə ilə öldürdülər.

Vaqif Xaçaturyan Meşəli faciəsinin təşkilatçılarından biri idi. Öncədən snayperçi qızları kəndin ətrafındakı yüksəkliklərə yerləşdirmişdi. Özü isə dəstəsi ilə səhər tezdən kəndə hücum etdi. Öldürülənlərin çoxunu Vaqif şəxsən xüsusi amansızlıqla qətlə yetirirdi. Xəlil kişini, qız-gəlinləri, qadınları, ağsaqqalları şəxsən özü güllələyir, sonra da yandırırdı. Vaqif Xaçatryanın saxlandığını eşidəndə çox sevindim. Ümid edirəm ki, digər quldurlar da ələ keçəcək və cəzalarını alacaqlar.

**O müdhiş gecənin digər şahidi Kazım Rəhimov isə söylədi:**

– Meşəli hadisəsi XX əsrin ən faciəli hadisələrindən biri olub. Əsrin sonlarına yaxın ermənilərin hazırladıqları proqram üzrə bu kəndin işğalı bir az önə çəkildi. Kəndin işğalını Xocalı faciəsinə yolaçma kimi qiymətləndirirəm. Ona görə ki, bu hadisə soyqırımı idi. Bura ancaq kütləvi qırğın üçün gəlmişdilər. Meşəli kəndini mühasirəyə alıb nə qadına, nə qocaya, nə uşağa - insanların heç birinə aman vermədilər. Meşəli kəndində baş vermiş hadisə soyqırımı hadisəsidir.

Meşəli 60 ailəlik bir kənd idi. Buna baxmayaraq, elə mühasirəyə almışdılar ki, oradan heç kimə qaçmağa, çıxmağa imkan vermirdilər. Bu, bir növ Xocalı hadisəsinin başlanğıcı idi. Laçına tərəf çıxış olmasaydı, Meşəli camaatının bəlkə də yarısı qətlə yetirilərdi. Bir balaca yer vardı, çaydan keçirdi, o da yol deyildi, yolların hamısını kəsmişdilər.



Tək Vaqif Xaçaturyan deyil, bu hadisəni törədənlərin hamısı Beynəlxalq Ədalət Məhkəməsində ittiham edilib, layiqli cəza almalıdır. Heç olmasa bir təskinlikdir ki, bu qətliamı törədənlərin biri tapılıb.

**Hazırladı:
B.VAQİF, "Xalq qəzeti"**

**Beynəlxalq həyat**

# Ərdoğanla Putin arasında telefon danışığı olub

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla Rusiyanın dövlət başçısı Vladimir Putin arasında telefon danışığı başa çatıb.**



"Anadolu" agentliyi bu barədə Türkiyə Prezidentinin Administrasiyasına istinadən məlumat yayıb.

R.T.Ərdoğan Türkiyədə meşə yanğınları ilə mübarizə üçün 2 amfibiya yanğınsöndürmə təyyarəsi göndərdiyinə görə V.Putinə təşəkkür edib.

O, rusiyalı turistlərin Türkiyəyə artan marağından məmnunluğunu ifadə edərək, bu il birgə səylər nəticəsində turizmdə rekordu qıracaqlarına inandığını dilə gətirib.

R.T.Ərdoğan Rusiya-Ukrayna müharibəsində gərginliyi artıracaq addımların atılmaması lazım olduğunu söyləyib. O, "sülh körpüsü" hesab etdiyi Qara dəniz təşəbbüsünün əhəmiyyətini vurğulayıb.

Telefon danışığı zamanı V.Putinin Türkiyəyə səfəri ilə bağlı razılıq əldə edilib.

*"Xalq qəzeti"*

# Qərbin Türkiyəyə ögey münasibəti

## *Fransa və Almaniya niyə Türkiyəni Avropa Birliyində görmək istəmir?*

**Son aylarda Türkiyə ətrafında qeyri-adi diplomatik fəallıq müşahidə olunur. Qərbin Türkiyəyə marağının artması onun İsveçin NATO-ya üzvlüyünə razılıq verməsi və Rusiya– Ukrayna münaqişəsi ilə bağlıdır. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Rusiyanın dövlət başçısı Vladimir Putinlə yaxın münasibəti ABŞ-ı qane etmir və Avropanı qıcıqlandırır. Ərdoğan isə Rusiya– Ukrayna münaqişəsinin danışıqlar yolu ilə həllinin tərəfdarıdır.**



İsveçin NATO-ya üzvlü ilə bağlı müzakirələrdə isə Türkiyənin Avropa İttifaqına üzvlüyü məsələsi ortaya çıxmışdı və bu barədə müxtəlif açıqlamalar verilmişdi. Məsələn, NATO Baş katibi Yens Stoltenberq Türkiyənin Avropa İttifaqına üzvlüyünü dəstəkləyib. O deyib: "Türkiyə AB-yə üzv olmalıdır". Lakin məlum oldu ki, Türkiyənin Avropa İttifaqına üzvlüyünü istəməyənlər də var. Onlara Almaniya və Fransa rəhbərlik edir. Berlində hesab edirlər ki, Türkiyə üçün "imtiyazlı əməkdaşlıq" kifayətdir. Fransa da Türkiyənin Avropa İttifaqına üzvlüyünə qarşı olduğunu dəfələrlə nümayiş etdirib. Amma digər Avropa ölkələri bu məsələdə daha mahir siyasət həyata keçirirlər. Məsələn, İtaliya Xarici İşlər Nazirliyi açıq-açığına Paris və Berlinin mövqeyi ilə razı olmadığını bildirir. Roma Ankaranın Avropa İttifaqına üzvlüyünü dəstəklədiyini vurğulayır.

Əslində, Türkiyənin Avropa İttifaqına üzvlüyü Qərb üçün arzuediləndir. Çünki Türkiyə dinamik inkişaf edən iqtisadiyyata və böyük bazara sahibdir. Bundan başqa, onun ərazisindən neft və qaz kəmərləri (bəziləri kağız üzərində olsa da) keçir. Avropa bu kəmərlərin köməyi ilə Rusiyadan enerji asılılığından xilas olmağa ümid edir. Bu isə Aİ üçün Türkiyəni "özünküləri"nin siyahısına salması üçün səbəbdir.

Amma buna qarşı çıxanları da başa düşmək olar. Türkiyə əhalisinin sayına görə üzv ölkələr arasında ön sırada olacaq. Deməli, onun Aİ orqanları tərəfindən qəbul edilən qərarlara, Avropa siyasətinin hazırlanmasına ciddi təsir etmək imkanları olacaq. Yuxardakı səbəblərdən də, Fransa və Almaniya Türkiyədən çəkinir və onu özlərinin əsas rəqibi hesab edir.

Bizə isə hadisələrin hansı istiqamətdə inkişaf edəcəyini gözləmək qalır. Unutmayaq ki, Qərbə Türkiyəni "itirmək" çox baha başa gələ bilər. Qısacası, bundan sonrakı prosesdə nə Türkiyə Avropa İttifaqından, nə də Avropa İttifaqı Türkiyədən tam imtina etməyəcək.

*Ə.PÜNHAN, "Xalq qəzeti"*

# Trampa qarşı rəsmi ittihamlar

**Federal andlılar heyəti çərşənbə axşamı sabiq ABŞ prezidenti Donald Trampı hakimiyyətdə qalmaq məqsədilə 2020-ci il seçkilərinin nəticələrini aradan qaldırmaq cəhdində ittiham edib. Son ittihamlar 2024-cü ildə Ağ evə qayıtmaq arzusunda olan Trampın hüquqi problemlərini artırır. Xəbəri ABŞ mediası yayıb.**



Qeyd edək ki, dörd maddədən ibarət geniş ittihamnaməni Ədliyyə Nazirliyinin xüsusi müvəkkili Cek Smit hazırlayıb. Federal andlılar heyəti aylar boyu 2021-ci ildə Co Baydenə məğlubiyyətini heçə endirməyə çalışan, lakin buna müyəssər olmayan D.Trampın ən yaxın müttəfiqlərini dindirib və onlardan ifadələr alıb.

seçilmiş yeni prezidentə təhvil vermək əvəzinə qeyri-qanuni olaraq növbəti dörd il ərzində hakimiyyətdə qalmaq cəhdində ittiham olunur. Sadalanan ittihamlar üzrə Trampın cümə axşamı, yəni bu gün hakim qarşısına çıxacağı gözlənilir.

Xatırladaq ki, keçmiş dövlət başçısı bu günədək israr edir ki, seçkilərdə onun əleyhinə saxtakarlıqlar və qanun pozuntuları baş verib. Lakin Birləşmiş Ştatlarda onlarla hakim onun bu ittihamlarını əsassız sayıb və bu gün də bu qənaətdədirlər.

**Ekspert rəyi**



**Şahbaz ŞAMIOĞLU, filologiya elmləri doktoru, politoloq**

– ABŞ-ın sayca 45-ci prezidenti Donald Tramp bu ölkədə 2020-ci ilə keçirilən prezident seçkilərinin nəticələri ilə bağlı saxta məlumatlar yaymaqda ittiham olunur. Bu, sıradan bir siyasi hadisə deyil. Belə qalmaqallı hallar oturuşmuş demokratik ənənələrə malik olan Birləşmiş Ştatlarda az-az hallarda təsadüf olunur.

Qeyd etmək lazımdır ki, bu ittihamlar sübut olunarsa, sabiq dövlət başçısı hətta iyirmi il müddətinə həbs oluna bilər. Sözün düzü, inanmıram ki, məsələ belə bir hay-küylü sonluqla başa çatsın.

Görünən budur ki, Birləşmiş Ştatlarda D.Trampın yenidən Ağ evə qayıdışını istəməyən qüvvələr az deyil. Belə ki, o, antiqlobalist siyasətçi hesab olunur. Dəfələrlə bəyan edib ki, onun üçün prioritet Amerikanın daxildə üzləşdiyi problemlərin həllidir. Tramp xüsusilə ölkə iqtisadiyyatında dönüş yaradacağını vəd edirdi. Düzdür, bu istiqamətdə onun komandası ciddi uğura nail ola bilmədi. Bununla bərabər, daxili bazarın canlandırılması ideyası əhalinin müəyyən kontingentinin ürəyincə idi.

Amerikaya üz tutan çox sayda miqrantlar da Trampın siyasətindən narazı idilər. O, Meksikadan miqrant axınının qarşısını almaq üçün sərhəddə hündür hasar inşa etdirməyə başlamışdı. Orada tikinti işləri hələ də davam edir.

D.Trampın barışmaz siyasi rəqibləri olan Demokratlar partiyasının liderləri ilə münasibətləri hər zaman kəskin olub. Bu gün də onun bu mövzudakı ritorika sərtliyi ilə seçilir.

ABŞ-ın hazırkı iqtidarı ilə Trampı fərqləndirən cəhətlərdən biri də ikincinin Rusiyaya münasibətdə daha loyal mövqe tutması hesab oluna bilər. Tramp hesab edir ki, o, iqtidarda qalsaydı, Rusiya Ukraynaya qarşı xüsusi hərbi əməliyyata başlamağa cəsarət etməzdi. Bir arada hətta onu "Rusiyanın adamı" da hesab edirdilər. Sabiq dövlət başçısı Rusiya-Ukrayna müharibəsinin sülh yolu ilə həlli ilə bağlı tez-tez bir çox ziddiyyyətli fikirlər irəli sürür. Bu mülahizələr qlobal mediada vaxtaşırı yer alır.

Bütün hallarda, Tramp öz dəst-xətti, maraqlı ritorikası ilə seçilən siyasətçilərdəndir. Onun ABŞ mediasının yüksək təmsilçiləri ilə münasibətləri heç vaxt hamar olmayıb. Hazırda D.Tramp nəyin bahasına olursa-olsun Ağ evə can atır. Respublikaçılar arasında onu dəstəkləyənlər kifayət qədər çoxdur. Trampın Ağ evə dönüşü mümkün ola bilərmi? Bunu, əlbəttə, zaman göstərəcək.

45 səhifəlik ittihamnamədə bildirilir ki, 77 yaşlı Tramp ABŞ-da fırıldaq məqsədli konspirasiyada iştirak edib, başqalarının haqlarını təhlükə altında qoyub, Konqresin rəsmi prosedurunu və ABŞ seçkilərinə nəzarət edən elektoral kollegiyanın prosedurunu pozmağa cəhd edib. Söhbət 2021-ci il 6 yanvarda 2000 D.Tramp tərəfdarının paytaxt Vaşinqtonda Kapitoli binasına basqınından gedir.

Yeri gəlmişkən, 247 illik tarixə sahib ölkədə ilk dəfədir ki, sabiq prezident hakimiyyəti

İttihamnamədə sonra deyilir ki, "uduzmasına baxmayaraq müttəhim hakimiyyətdə qalmaqda qərarlı olub". "Odur ki, 3 noyabr, 2020-ci il seçkilərinin ardınca iki ay ərzində müttəhim özünün qələbə çalması haqda yalanlar yayıb".

"Bu iddialar saxta idi və müttəhim bunların saxta olduğunu bilirdi" ittihamnamədə deyilir və əlavə olunur ki, öz hərəkətləri ilə D.Tramp federal hökumətin təməl funksiyası olan seçkilərə nəzarət prosesini hədəf alıb.

Məlumat üçün bildirək ki, bu, son iki ayda Ədliyyə Nazirliyinin xüsusi müvəkkili Cek Smitin D.Trampa qarşı irəli sürdüyü ikinci ittihamnamədir. Belə ki, o, ötən həftə D.Trampın qeyri-qanuni olaraq məxfi sənədləri saxladığını iddia edən yenilənmiş ittihamnamə ilə çıxış etmişdi. Həmin sənədlər D.Trampın Florida ştatındakı sahilyanı Mar-a-Lago adlı iqamətgahında üzə çıxarılmışdı.

Məlumdur ki, D.Tramp 2024-cü il seçkilərinə qatılmağa hazırlaşır və bütün ittihamları rədd edərək onların siyasi motivli olduğunu bildirir. Maraqlıdır ki, D.Tramp 2021-ci ilin əvvəlində prezidentlik dönəmi bitdikdən sonra məxfi sənədləri Milli Arxivə təhvil vermək əvəzinə onları özündə saxlayıb. İttihamnaməyə görə bundan sonra o, sənədlərin külliyatının federal müstəntiqlərdən gizlədilməsinə səy göstərib.

D.Tramp bütün ittihamları rədd edir və tez-tez Cek Smit və digər ittihamçıları tənqid atəşinə tutur. O, hətta bu günlərdə C.Smiti "kəmağıl" adlandırıb və bu ittihamların siyasi motivli olduğunu bildirib.

D.Tramp baş verənləri "Bayden kriminal ailəsinin və onların silahına çevrilmiş Ədliyyə Nazirliyinin" 2024-cü ildə keçiriləcək seçkilərə müdaxilə etmək məqsədilə "aciz cəhdi" kimi qələmə verib. O, bu ittihamnamələri "1930-cu illərdə nasist Almaniyası, sabiq Sovet İttifaqı və digər avtoritar və diktatorial rejimlərin" praktikası ilə müqayisə edib.

Ümummilli rəy sorğuları D.Trampın Respublikaçı seçicilər arasında növbəti prezident seçkiləri üçün favorit namizəd olduğunu göstərir. Nüfuzlu "The New York Times" qəzetinin keçirdiyi son rəy sorğularından bəlli olub ki, o, hazırda əhali arasında hazırkı dövlət başçısı Co Baydenlə bərabər 43 faiz dəstəyə malikdir. .

*Məsaim ABDULLAYEV, "Xalq qəzeti"*

**Sosial xəbərlər**

# Əlillərə daha bir güzəşt

**Nazirlər Kabineti "Təhsil müəssisələrində, xəstəxanalarda və sosial sahənin digər ictimai müəssisələrində vətəndaşların qida normalarının tətbiq edilməsi haqqında" qərarında dəyişiklik edib.**




Dəyişikliyə əsasən, Fərdi Reabilitasiya Proqramı ilə müəyyən edilən və kənar şəxslərin daimi kömək və qayğısına ehtiyacı olan əlilliyi olan şəxsləri reabilitasiya müəssisələrində müşayiət edən şəxslərin (1 nəfərdən çox olmamaqla) də həmin müəssisələrdə dövlət büdcəsi hesabına qidalanması təmin ediləcək. Onlar üçün qida normaları əlilliyi olan şəxslər üçün sosial xidmət müəssisələrində böyüklər üçün müəyyən edilmiş normalara uyğun tətbiq olunacaq.

Bu dəyişiklik orqanizmin funksiyalarının 81–100 faiz pozulmasına görə (I dərəcə) və 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxsləri reabilitasiya müəssisələrində müşayiət edən şəxslərə şamil edilir.

# "Məşğulluğa Dəstək Layihəsi" Şəmkir və Ağstafada

***Dünya Bankının maliyyə dəstəyi ilə həyata keçirilən "Məşğulluğa Dəstək Layihəsi" çərçivəsində Şəmkir və Ağstafa rayonlarında da ictimai dinləmələr keçiriləcək. Bu barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr və kommunkasiya şöbəsindən bildiriblər.***

Qeyd edilir ki, tədbirlərdə layihənin hədəf və məqsədləri, əhatə dairəsi, layihənin icrası zamanı ətraf mühit və sosial məsələlərə dair tələblər, proqramın gözlənilən faydaları, müraciət və iştirak qaydalarına dair iştirakçılara ətraflı məlumat veriləcək.

İctimai dinləmələr Şəmkir şəhərində, Şəmkir Gənclər Evinin binasında Ağstafa şəhərində, Qazax–Tovuz Regional Məşğulluq Filialının Ağstafa xidmət şöbəsinin binasında təşkil olunacaq.

# 70 nəfər ödənişli ictimai işlə təmin olunub

***Naxçıvan Muxtar Respublikasında "İşsizin dostu" proqramı çərçivəsində son iki ayda ödənişli ictimai işlə təmin edilən şəxslərin sayı artıq 370-ə çatıb. DOST İş Mərkəzi tərəfindən bölgədə daha 70 nəfər haqqı ödənilən ictimai işlə təmin olunub.***



Bununla bağlı DOST İş Mərkəzi ilə Culfa, Ordubad, Şərur, Şahbuz, Babək, Kəngərli Rayon İcra Hakimiyyətləri və Naxçıvan MR-nın Kənd Təsərrüfatı, Ekologiya və Təbii Sərvətlər nazirlikləri, Meliorasiya və Su Təsərrüfatı ASC arasında sazişlər imzalanıb.

Sazişlər əsasında işə götürülənlərlə onların gələcək sosial təminat hüquqlarına əsas yaradan əmək müqaviləsi bağlanıb. Proqrama cəlb olunan, ilkin peşə hazırlığı olmayan şəxslər müxtəlif fəaliyyət sahələri üzrə işlə təmin edilməklə, həmin sahələrə aid ilkin peşə bacarıqları əldə etmək imkanı da qazanıblar.

# 2 min 883 işsiz təlimə cəlb edilib

***Dünya Bankının maliyyə dəstəyi ilə icra olunan "Məşğulluğa Dəstək Layihəsi"nə bu il daha 2 min 883 işsiz şəxs cəlb edilib. Bu barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən aldığımız xəbərdə deyilir.***



Bildirilir ki, layihəyə cəlb olunanların sayı 9 min 457 nəfərə çatıb. Qeyd edilir ki, layihənin məqsədi işsiz kimi qeydiyyata alınmış həssas qruplara aid şəxslərin – əlilliyi olan şəxslər, şəhid ailəsi üzvləri, ünvanlı dövlət sosial yardımı alanlar və s. həssas kateqoriyadan olanların özünüməşğulluq üzrə kiçik bizneslərinin yaradılmasıdır.

Ümumilikdə, bu kateqoriyadan olan 22 min şəxsin kiçik biznesə çıxışına dəstək verilməsi hədəflənib.

Qeyd edək ki, layihənin iştirakçıları üçün əvvəlcə təlimlər təşkil olunur. Sonda keçirilən qiymətləndirmədə biznes planlarını müdafiə edən şəxslər istehsal və xidmət sahələri üzrə təsərrüfatlarını yaratmaları üçün avadanlıqlarla təmin olunurlar.

# Sosial xidmət şəbəkəsi genişlənir



***Sosial Xidmətlər Agentliyinin 13 sosial xidmət müəssisəsində bu ilin ilk 6 ayında həssas əhali qruplarından olan 2 min 539 şəxsə sosial xidmət göstərilib.***

Bu dövrdə həmin şəxslərə agentliyin müəssisələrində sosial-məişət, tibbi-sosial, sosial-psixoloji, sosial-pedaqoji və digər stasionar xidmətlər göstərilib.

Qeyd nedək ki, hazırda agentlik 3 min 875 şəxsə evdə (səyyar) sosial-məişət xidməti göstərir.

# Əlillərə peşə öyrədilir

***Sosial Xidmətlər Agentliyinin Əlilliyi olan şəxslərin Peşə-əmək Reabilitasiyası Mərkəzində peşə hazırlığı keçən gənclər üçün qiymətləndirmə aparılıb. 16 nəfər əlilin kurs müddətində biliklərə yiyələnmə səviyyəsi yoxlanıb.***





Sosial Xidmətlər və Dövlət Məşğulluq agentliklərinin nümayəndələrinin iştirakı ilə kompüter istifadəçisi, rəssamlıq, dərzilik, aşpaz köməkçisi, kişi bərbəri, qadın bərbəri də daxil olmaqla ümumilikdə 6 istiqamət üzrə təlimləri bitirən şəxslərin əldə etdikləri bilik və bacarıq səviyyələri yoxlanılıb. İmtahan komissiyasının qərarına əsasən onlardan 16 nəfərinə şəhadətnamə təqdim edilib.

Ümumilikdə isə bu il ərzində müəssisədə 3 dəfə qiymətləndirmə aparılıb və kursları 82 nəfər şəhadətnamə ilə bitirib. Onlardan 24 nəfəri Vətən müharibəsi əlilidir.

Qeyd edək ki, mərkəzdə 15–29 yaşlı əlillərin peşə hazırlığı və peşə reabilitasiyası həyata keçirilir. Burada müxtəlif peşələr üzrə 3–6 aylıq kurslar təşkil olunur.

*Z.HÜSEYNLİ, "Xalq qəzeti"*

# "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin

## 2022-ci il dekabrın 31-nə mənfəət, zərər və sair məcmu gəlir haqqında konsolidə edilmiş hesabatı

*min manatla*

| Gəlir | 2022-ci il | 2021-ci il |
|---|---|---|
| Enerji satışı | 1,840,564 | 1,280,912 |
| Elektrik şəbəkəsinə qoşulma xidməti və digər satış gəlirləri | 6,987 | 8,825 |
| Digər gəlirlər | 4,128 | 30,598 |
| **Cəmi gəlir** | **1,851,679** | **1,320,335** |
| Əməliyyat xərcləri | | |
| Yanacaq | (806,424) | (634,845) |
| Köhnəlmə və amortizasiya | (272,532) | (220,644) |
| İşçi xərcləri | (79,777) | (75,525) |
| Təmir və texniki xidmət | (70,569) | (101,754) |
| Mənfəət vergisindən başqa vergilər | (33,086) | (37,868) |
| Xammal və materiallar | (18,891) | (6,869) |
| Alınmış elektrik enerjisi | (44,819) | (26,602) |
| Ticarət və digər debitor borcların dəyərsizləşməsi ehtiyatında dəyişiklik | (12,025) | (993) |
| Digər xərclər | (61,876) | (84,675) |
| **Cəmi əməliyyat xərcləri** | **(1,399,999)** | **(1,189,775)** |
| ***Əməliyyat mənfəəti*** | **451,680** | **130,560** |
| Maliyyə xərci, xalis | (25,269) | (27,309) |
| Xarici valyuta mübadiləsindən gəlir* | 204,401 | 157,040 |
| Xarici valyuta mübadiləsindən zərər* | (98,944) | (72,620) |
| Əmlak, tikili, avadanlıq və onların alınması üçün verilmiş avanslar üzrə dəyərsizləşmənin bərpası | 3,070 | 9,654 |
| **Mənfəət vergisindən əvvəl mənfəət** | **534,938** | **197,325** |
| Mənfəət vergisi xərci | (98,432) | (50,098) |
| ***İl üzrə xalis mənfəət*** | **436,506** | **147,227** |
| İl üzrə sair məcmu gəlir və mənfəət vergisi çıxılmaqla | | |
| Xarici valyuta ilə əməliyyatların çevrilməsindən yaranan məzənnə fərqləri | 9,071 | (1,503) |
| İL ÜZRƏ CƏMİ MƏCMU GƏLİR | **445,577** | **145,724** |

*Xarici valyuta mübadiləsi üzrə gəlir və zərərin müqayisəli məbləğləri 2021-ci il dekabrın 31-nə mənfəət və ya zərər haqqında konsolidə edilmiş hesabatda xalis məbləğ kimi açıqlanmışdır.

### MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA KONSOLİDƏ EDİLMİŞ HESABAT

| AKTiVLƏR | | |
|---|---|---|
| *Uzunmüddətli aktivlər* | | |
| Əmlak, tikili və avadanlıq | 3,533,969 | 3,288,992 |
| Əmlak, tikili və avadanlığın alınması üçün verilmiş avanslar | 130,965 | 32,272 |
| Təxirə salınmış vergi aktivləri | 16,874 | 19,135 |
| Digər uzunmüddətli aktivlər | 81,572 | 79,122 |
| **Cəmi uzunmüddətli aktivlər** | **3,763,380** | **3,419,521** |
| *Qısamüddətli aktivlər* | | |
| Mal-material ehtiyatları | 52,286 | 49,298 |
| Əvəzləşdirilə bilən ƏDV | 322,230 | 299,578 |
| Ticarət və digər kreditor borcları | 119,487 | 136,366 |
| Avans ödənişləri | 15,126 | 66,526 |
| Nağd pul və pul vəsaitlərinin ekvivalentləri | 250,000 | 176,543 |
| **Cəmi qısamüddətli aktivlər** | **759,129** | **728,311** |
| **CƏMİ AKTİVLƏR** | **4,522,509** | **4,147,832** |
| **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | |
| *Kapital* | | |
| Nizamnamə kapitalı | 1,760,495 | 1,760,495 |
| Əlavə ödənilmiş kapital | 2,711,696 | 2,492,299 |
| Yığılmış zərər | (2,164,739) | (2,601,245) |
| Məzənnə fərqləri üzrə ehtiyat | 2,061 | (7,010) |
| **CƏMİ KAPİTAL** | **2,309,513** | **1,644,539** |
| *Uzunmüddətli öhdəliklər* | | |
| Kreditlər və borc vəsaitləri, uzunmüddətli hissə | 848,670 | 1,036,777 |
| Hökumət subsidiyaları | 115,506 | 238,171 |
| Təxirə salınmış vergi öhdəliyi | 203,107 | 167,343 |
| Ticarət və digər kreditor borcları | 278,890 | 394,655 |
| **Cəmi uzunmüddətli öhdəliklər** | **1,446,173** | **1,836,946** |
| *Qısamüddətli öhdəliklər* | | |
| Kreditlər və borc vəsaitləri, qısamüddətli hissə | 324,328 | 295,672 |
| Ticarət və digər kreditor borcları | 294,266 | 301,436 |
| Cari mənfəət vergisi öhdəliyi | 58,735 | 2,794 |
| Mənfəət vergisindən başqa vergi öhdəlikləri | 89,494 | 66,445 |
| **Cəmi qısamüddətli öhdəliklər** | **766,823** | **666,347** |
| **CƏMİ ÖHDƏLİKLƏR** | **2,212,996** | **2,503,293** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | **4,522,509** | **4,147,832** |

### KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA KONSOLİDƏ EDİLMİŞ HESABAT

| | Nizamnamə kapitalı | Əlavə ödənilmiş kapital | Məzənnə fərqləri üzrə ehtiyat | Yığılmış zərər | Cəmi |
|---|---|---|---|---|---|
| **2021-ci il yanvarın 1-nə qalıq** | **1,760,495** | **2,440,459** | **(5,507)** | **(2,748,472)** | **1,446,975** |
| İl üzrə cəmi məcmu mənfəət / (zərər) | - | - | (1,503) | 147,227 | 145,724 |
| Digər hökumət müəssisələrinə ötürülmüş xalis aktivlər | - | (25,206) | - | - | (25,206) |
| Səhmdar yatırımları | - | 77,046 | - | - | 77,046 |
| **2021-ci il dekabrın 31-nə qalıq** | **1,760,495** | **2,492,299** | **(7,010)** | **(2,601,245)** | **1,644,539** |
| İl üzrə cəmi məcmu gəlir | - | - | 9,071 | 436,506 | 445,577 |
| Dövlət Ehtiyat Fonduna ötürülmüş məbləğ | - | (27,708) | - | - | (27,708) |
| Digər hökumət müəssisələrinə ötürülmüş xalis aktivlər | - | (4,873) | - | - | (4,873) |
| Səhmdar yatırımları | - | 251,978 | - | - | 251,978 |
| **2022-ci il dekabrın 31-nə qalıq** | **1,760,495** | **2,711,696** | **2,061** | **(2,164,739)** | **2,309,513** |

### PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA KONSOLİDƏ EDİLMİŞ HESABAT

| | | |
|---|---|---|
| Əməliyyat fəaliyyətləri üzrə pul vəsaitlərinin hərəkəti: | | |
| İl üzrə mənfəət | 436,506 | 147,227 |
| *Düzəlişlər:* | | |
| Mənfəət vergisi xərci | 98,432 | 50,098 |
| Köhnəlmə və amortizasiya | 272,532 | 220,644 |
| Əmlak, tikili, avadanlıq və onların alınması üçün verilmiş avanslar üzrə dəyərsizləşmə zərərinin bərpası | (3,070) | (9,654) |
| Mal-material ehtiyatları üzrə dəyərsizləşmə / (dəyərsizləşmənin zərərinin bərpası) | 4,835 | (1,168) |
| Digər gəlirlər (torpaq, tikili və avadanlığın satışı üzrə gəlir) | (4,128) | (3,303) |
| Ticarət və digər debitor borcların dəyərsizləşməsi üzrə zərər | 12,025 | 993 |
| Verilmiş avansların dəyərsizləşməsi üzrə zərər | 2,712 | - |
| Xarici valyuta mübadiləsindən gəlir | (204,401) | (157,040) |
| Xarici valyuta mübadiləsindən zərər | 98,944 | 72,620 |
| Elektrik şəbəkəsinə qoşulma haqqı və digər satışlar | (5,317) | (2,928) |
| Maliyyə xərci, xalis | 25,269 | 27,309 |
| **Dövriyyə kapitalında hərəkətlərdən əvvəl pul daxilolmaları** | **734,339** | **344,798** |
| *Dövriyyə kapitalında hərəkətlər:* | | |
| Mal-materiallarda dəyişiklik | (16,572) | 88,704 |
| Əvəzləşdirilə bilən ƏDV-də dəyişiklik (i) | (22,710) | (45,173) |
| Ticarət və digər debitor borclarında dəyişiklik | (170,886) | (18,737) |
| Avans ödənişlərində dəyişiklik | 14,880 | (32,034) |
| Ticarət və digər kreditor borclarında dəyişiklik (ii) | (56,661) | (59,650) |
| Mənfəət vergisindən başqa vergi öhdəliklərində dəyişiklik (i) | 23,049 | 71,880 |
| **Əməliyyat fəaliyyətlərindən əldə olunan pul vəsaitləri** | **505,439** | **349,788** |
| Ödənilmiş mənfəət vergisi | (167) | (20) |
| Ödənilmiş faiz (ii) | - | (423) |
| Əməliyyatlar fəaliyyətlərindən əldə olunan xalis pul vəsaitləri | **505,272** | **349,345** |
| **İNVESTİSİYA FƏALİYYƏTLƏRİ ÜZRƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ:** | | |
| Əmlak, tikili və avadanlığın alınması (iii) | (457,063) | (503,538) |
| Tikinti işləri üçün verilmiş avanslar | (115,331) | - |
| Əmlak, tikili və avadanlığın satışından əldə olunan pul vəsaitləri | - | 9,384 |
| **İnvestisiya fəaliyyətlərində istifadə olunan xalis pul vəsaitləri** | **(572,394)** | **(494,154)** |
| **MALİYYƏ FƏALİYYƏTLƏRİ ÜZRƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ:** | | |
| Səhmdar yatırımlarının əldə edilməsi (ii) | 149,222 | 55,100 |
| **Maliyyə fəaliyyətlərindən əldə olunan xalis pul vəsaitləri** | **149,222** | **55,100** |
| **NAĞD PUL VƏ PUL VƏSAİTLƏRİNİN EKVİVALENTLƏRİNDƏ XALİS ARTIM / (AZALMA)** | **82,100** | **(89,709)** |
| **İLİN ƏVVƏLİNƏ NAĞD PUL VƏ PUL VƏSAİTLƏRİNİN EKVİVALENTLƏRİ** | **176,543** | **289,539** |
| Xarici valyutada saxlanılan pul vəsaitlərinin və onların ekvivalentlərinin qalıqlarına valyuta məzənnəsindəki dəyişikliklərin təsiri | (8,643) | (23,287) |
| **İLİN SONUNA NAĞD PUL VƏ PUL VƏSAİTLƏRİNİN EKVİVALENTLƏRİ** | **250,000** | **176,543** |

### MÜSTƏQİL AUDİTORUN HESABATI
### "AZƏRENERJİ" Açıq Səhmdar Cəmiyyətinin səhmdarına və rəhbərliyinə

**Rəy**

Biz "AZƏRENERJİ" ASC və onun törəmə müəssisələrinin (qrup) 2022-ci il dekabrın 31-nə maliyyə vəziyyəti haqqında konsolidə edilmiş hesabatdan və həmin tarixdə başa çatan il üzrə konsolidə edilmiş mənfəət, zərər və sair məcmu gəlir, kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında konsolidə edilmiş hesabatlardan, habelə mühüm mühasibat uçotu siyasətlərinin icmalı daxil olmaqla qeydlərdən ibarət konsolidə edilmiş maliyyə hesabatlarının auditini apardıq.

Bizim fikrimizcə, əlavə edilən konsolidə edilmiş maliyyə hesabatları qrupun 2022-ci il dekabrın 31-nə konsolidə edilmiş maliyyə vəziyyətini və həmin tarixdə başa çatan il üzrə konsolidə edilmiş maliyyə nəticələri və konsolidə edilmiş pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına ("MHBS") uyğun olaraq bütün əhəmiyyətli aspektlər üzrə düzgün əks etdirir.

**Rəyin əsasları**

Biz auditi Beynəlxalq Audit Standartlarına (BAS-lara) uyğun olaraq həyata keçirdik. Həmin standartlar üzrə bizim məsuliyyətimiz irəlidə hesabatın konsolidə edilmiş maliyyə hesabatlarının auditi üzrə auditorun məsuliyyəti bölməsində təsvir olunur. Biz, mühasiblər üçün Beynəlxalq Etika Standartları Şurasının Peşəkar Mühasiblər üçün Etika Məcəlləsinə (MBESŞ məcəlləsi) uyğun qrupdan asılı olmadan müstəqil şəkildə fəaliyyət göstəririk və etika ilə bağlı digər öhdəliklərimizi "MBESŞ" məcəlləsinə uyğun olaraq yerinə yetirmişik. Bizcə, əldə etdiyimiz audit sübutu auditor rəyinin bildirilməsi üçün yetərli və uyğun əsası təmin edir.

**Konsolidə edilmiş Maliyyə Hesabatları üzrə rəhbərliyin və idarəetmə səlahiyyətləri olan şəxslərin məsuliyyəti**

Rəhbərlik, konsolidə edilmiş maliyyə hesabatlarının MHBS-yə uyğun olaraq hazırlanması və düzgün təqdim edilməsi, həmçinin fırıldaqçılıq və ya səhv nəticəsində yaranmasından asılı olmayaraq mühüm təhriflərin olmadığı konsolidə edilmiş maliyyə hesabatlarının hazırlanması üçün rəhbərliyin zəruri saydığı daxili nəzarət üzrə məsuliyyət daşıyır.

Konsolidə edilmiş maliyyə hesabatlarını hazırlayarkən, rəhbərliyin qrupu ləğv etmək və ya əməliyyatlarını dayandırmaq niyyətində olduğu və ya bunu etməkdən başqa heç bir real alternativi yaranmadığı hallar istisna olmaqla, rəhbərlik qrupun öz fəaliyyətini fasiləsizlik prinsipi ilə davam etdirməsi qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsizliklə bağlı məsələlərin açıqlanmasına və mühasibat uçotunun fasiləsizlik prinsipindən istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İdarəetmə səlahiyyətləri olan şəxslər qrupun konsolidə edilmiş maliyyə hesabatlarının hazırlanması prosesinə nəzarət üçün məsuliyyət daşıyırlar.

**Konsolidə edilmiş Maliyyə Hesabatlarının Auditi üzrə Auditorun Məsuliyyəti**

Bizim məqsədimiz ümumilikdə konsolidə edilmiş maliyyə hesabatlarında fırıldaqçılıq və ya səhv nəticəsində yarana biləcək mühüm təhriflərin olmaması barədə kifayət qədər əminlik əldə etmək və rəyimizi özündə əks etdirən auditor hesabatını təqdim etməkdir. Kifayət qədər əminlik yüksək səviyyəli əminliyi əks etdirir, lakin bu, BAS-lara uyğun olaraq aparılan audit nəticəsində hər zaman mövcud olan bütün əhəmiyyətli təhriflərin aşkar ediləcəyinə zəmanət vermir. Təhriflər, fırıldaqçılıq və ya səhv nəticəsində yarana bilər, fərdi və ya məcmu halda götürülməklə, istifadəçilərin hazırkı konsolidə edilmiş maliyyə hesabatları əsasında qəbul edəcəkləri iqtisadi qərarlara təsir göstərmələrini ehtimal etməyə əsas olacağı hallarda əhəmiyyətli hesab olunur.

BAS-lara uyğun aparılmış auditin bir hissəsi kimi, biz audit zamanı peşəkar mühakimələr irəli sürür və peşəkar skeptisizmi qoruyub saxlayırıq. Biz həmçinin:

Konsolidə edilmiş maliyyə hesabatlarının fırıldaqçılıq və ya səhv nəticəsində əhəmiyyətli şəkildə təhrif olunması risklərini müəyyən edir, qiymətləndirir, həmin risklərə cavab olaraq audit prosedurlarını tərtib edir və həyata keçirir. Həmçinin rəyimiz üçün əsas verəcək yetərli və uyğun audit sübutu əldə edirik. Fırıldaqçılıq nəticəsində yaranmış əhəmiyyətli təhriflərin aşkar olunmaması riski səhv nəticəsində yaranmış mühüm təhriflərin aşkar olunmaması riskindən yüksəkdir. Eyni zamanda fırıldaqçılığa gizli sövdələşmə, saxtakarlıq, qəsdən səhv buraxma, yanlış təqdimat və ya daxili nəzarət qaydalarına əməl olunmaması daxil ola bilər.

Müəyyən şəraitlərdə münasib olan audit prosedurlarının tərtib edilməsi məqsədilə auditə aid olan daxili nəzarət elementləri haqqında anlayış əldə edir, lakin bu zaman qrupun daxili nəzarət sisteminin səmərəliliyi barədə rəy bildirmək məqsədi güdmürük.

Rəhbərlik tərəfindən istifadə edilmiş mühasibat uçotu siyasətlərinin münasibliyini, edilmiş uçot təxminlərinin və aidiyyəti açıqlamaların əsaslılığını qiymətləndiririk.

Rəhbərlik tərəfindən mühasibat uçotunun fasiləsizlik prinsipindən istifadənin müvafiqliyi və əldə olunmuş audit sübutuna əsaslanaraq qrupun öz fəaliyyətini fasiləsizlik prinsipi ilə davam etdirməsinə önəmli şübhə doğura biləcək hadisə və ya şəraitlərlə bağlı mühüm qeyri-müəyyənliyin mövcud olub-olmaması barədə nəticə çıxarırıq. Mühüm qeyri-müəyyənliyin olması qənaətinə gəldiyimiz halda, biz auditor hesabatımızda diqqəti konsolidə edilmiş maliyyə hesabatlarının müvafiq açıqlamalarına yönəltməli və ya belə açıqlamalar qeyri-kafi olduqda rəyimizə düzəliş etməliyik. Bizim nəticələr auditor hesabatımızın tarixinədək əldə olunan audit sübutuna əsaslanır. Bununla belə, gələcək hadisə və şəraitlər qrupun öz fəaliyyətini fasiləsizlik prinsipi ilə davam etdirməməsinə səbəb ola bilər.

Biz açıqlamalar daxil olmaqla maliyyə hesabatlarının ümumi təqdimatı, strukturu, məzmunu və maliyyə hesabatlarının təməl əməliyyat və hadisələri düzgün əks etdirib-etdirməməsini qiymətləndiririk.

Biz idarəetmə səlahiyyətləri olan şəxslərə digər məsələlərlə yanaşı, auditin planlaşdırılmış əhatə dairəsi, vaxtı və audit zamanı daxili nəzarətdə aşkar etdiyimiz hər hansı mühüm çatışmazlıqlar daxil olmaqla mühüm audit tapıntıları barədə məlumat veririk.

**31 iyul 2023-cü il**

Təbiətin töhfəsi

# Balqabaq – yaşıl aptekin möcüzəsi

**Sağlamlıq üçün faydalı olan balqabaq toxumları həm çiy, həm də qovrulmuş halda yeyilir. Tərkibində yüksək miqdarda protein, sağlam yağlar, lif, minerallar və vitaminlər olduğundan, onu qəlyanaltı və ya onların pəhrizinə əlavə edilmiş qida maddələrindən biri kimi istehlak edirər. Balqabaq toxumları həzm prosesini yaxşılaşdırır, ürək sağlamlığını qoruyur, immuniteti gücləndirir və prostat probleminə kömək edir.**



**Yağ balqabaq tumundan soyuq presləmə yolu ilə alınır. Antioksidantlar, sağlam yağlar və digər qidalarla zəngin olduğundan sağlamlığa faydaları çoxdur:**

**1. Ürək:** Balqabaq yağı yüksək miqdarda doymamış yağ turşularını ehtiva etdiyindən xolesterol səviyyəsini aşağı salır. Bundan əlavə, bu yağda ürək sağlamlığını qoruyan antioksidantlar və minerallar var. Maqnezium, kalium və sağlam yağ turşuları baxımından zəngin olan balqabaq tumunun və xüsusilə də yağının ürəyin işini yaxşılaşdırdığı və koronar arteriya xəstəliyi riskini azaltdığı sübut edilib. Yağ yeniyetmələrdə HDL xolesterinin səviyyəsini qaldıraraq qan təzyiqini aşağı salır. Damarları genişləndirir və qan axınını artırır.

**2. Prostat:** Faydalı komponentlərə malik balqabaq yağı prostat vəzin böyüməsini aradan qaldırmağa kömək edir. Prostat və sidik kisəsinin işini yaxşılaşdırır. Balqabaq tumunun tərkibindəki antioksidantların, yağ turşularının və sinkin prostat vəzinin xoşxassəli böyüməsindən əziyyət çəkən kişilərdə simptomları azaltdığı və həyat keyfiyyətini artırdığı bilinir.

**3. Dəri:** Yağ dərinin sağlamlığını qoruyan və bərpa edən bir çox faydalı komponentləri ehtiva edir. Bu maddələr dərini nəmləndirir, iltihabı azaldır və dəri hüceyrələrinin yenilənməsinə kömək edir. Dərini nəmləndirmək və dəri hüceyrələrinin bərpası məqsədilə yağ birbaşa dəriyə tətbiq edilir. Dərinin su itkisinin qarşısını alaraq onun nəmiik balansını qoruyur.

Balqabaq yağlı dərini sərbəst radikallardan qoruyan antioksidanlara malikdir. Bu antioksidanlar dəri hüceyrələrini mühafizə edir və dərinin yaşlanmasını gecikdirir. Tərkibindəki minerallar, vitaminlər və yağ turşuları dərinin daha gənc və sağlam görünməsinə kömək edir. Yağ, həmçinin dəridəki iltihabı azaldaraq sızanaq, ekzema və digər dəri xəstəliklərini aradan qaldırmağa kömək edir.

**4. Saç:** Yağda saç sağlamlığını qoruyan bir çox qida və komponentləri olduğundan, balqabaq toxumu yağı saç tökülməsini azalda, saçları gücləndirə, böyüməsinə və artmasına kömək edə bilər. Bunun üçün saçları yağla masaj etmək lazımdır.

**5. İmmunitet:** Balqabaq yağının tərkibində immuniteti gücləndirən və infeksiyalardan qoruyan müxtəlif vitamin və minerallar var. Buna görə, balqabaq yağı sağlam qidalanma və həyat tərzi ilə birlikdə istifadə edildikdə, bədənin ümumi sağlamlığına fayda verə bilər. Tərkibindəki E vitamini və sink immun sistemi üçün faydalıdır. Sink bədəni iltihabdan, allergiyadan və mikroblardan qoruyaraq infeksiyaların qarşısını alır və ümumi immuniteti artırır.

Balqabaq yağı müxtəlif kosmetik məhsullarda da istifadə edilir. Qeyd edək ki, yağı istifadə etməzdən əvvəl məhsulun etiketindəki təlimatları diqqətlə oxumaq və istifadə tövsiyələrinə əməl etmək vacibdir. Yağı çiy istehlak etmək istəyənlər, onu birbaşa yeməklərə, salatlara bir xörək qaşığı qədər əlavə edə bilərlər. Ancaq balqabaq yağı yüksək temperaturda bişirmək üçün uyğun deyil. Yüksək temperatur yağın bəzi faydalı komponentlərinin itirilməsinə və ya zədələnməsinə səbəb olur.

Yağ xəstəliklərə qarşı mübarizə aparan antioksidantlar baxımından zəngindir. İltihab əleyhinə önəmli xüsusiyyətlərə malik olan balqabaq tumu, qaraciyər, sidik kisəsi, bağırsaq və oynaqların sağlamlığı üçün istehlakı məsləhət olunan qidalar arasında iştirak edir. Sink, kalsium, zülal və liflə zəngin olan balqabaq tumlarının tərkibindəki protein toxluq hissi verdiyi üçün arıqlamağa kömək edir. Tərkibindəki liflər isə bağırsaqlardakı toksinləri təmizləyir və yağın orqanizm tərəfindən udulmasına mane olur. Bu xüsusiyyətlərinə görə az kalorili pəhriz saxlayanlar çərəz olaraq balqabaq tumuna üstünlük verirlər.

Yağın əhəmiyyətli faydalarından biri qan şəkərini tənzimləməsidir. Tərkibindəki maqnezium bu məqsədə xidmət edir və diabet riskini azaldır. Yuxu keyfiyyətini tənzimləyir. Yatmazdan əvvəl bir ovuç balqabaq tumu yemək rahat yuxu gətirir. Bunun səbəbi isə tərkibindəki triptofandır.

Xərçəng hüceyrələrinin inkişafının qarşısını alır. Balqabaq tumu antioksidant baxımından zəngin olduğu üçün xərçəng hüceyrələrinin inkişafına, o cümlədən yayılmasına qarşı mübarizə edir. Bu səbəbdən döş xərçənginin qarşısının alınmasında və müalicəsində təsirli ola biləcəyinə dair elmi araşdırmalar aparılır.

Balqabaq tumu yaraların sağalmasında əhəmiyyətli rol oynayan manqan və K vitamini başda olmaqla, immunitet sisteminin bakteriya və viruslara qarşı mübarizə aparmasına kömək edən sink baxımından da zəngindir.

Bəzi araşdırmalar, balqabaq tumunun hormonal tarazlığı bərpa edərək, polikistik yumurtalıq sindromuna təsirini təsdiqləyib. Balqabaq tumu, həmçinin osteoporoz ehtimalını azaldır, qadınlarda xolesterini aşağı salır.

*Zərifə BƏŞİRQIZI, "Xalq qəzeti"*

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC

öz gəmiləri üçün ehtiyat hissələrinin satın alınması məqsədilə

AÇIQ MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 7 avqust 2023-cü il saat 17.00-dəkdir.

Əlaqə telefonu- (012) 404-37-00, daxili:1016.
Ünvan- AZ1003, Bakı şəhəri, M.Useynov küçəsi 2.

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC

öz gəmiləri üçün separatorların satın alınması məqsədilə

AÇIQ MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 7 avqust 2023-cü il saat 17.00-dəkdir.

Əlaqə telefonu-(012) 404-37-00, daxili:1016.
Ünvan- AZ1003, Bakı şəhəri, M.Useynov küçəsi 2.

SON SƏHİFƏ
# Xalq qəzeti
Xalqın qəzeti!
№ 162 (30278) 3 avqust 2023-cü il, cümə axşamı
veb-sayt: www.xalqqazeti.az

İdman xəbərləri

## "Qarabağ" Avropa Liqasında mübarizə aparacaq

**"Qarabağ" UEFA Çempionlar Liqasının II təsnifat mərhələsində cavab oyununa çıxıb.**



Bakı Olimpiya Stadionunda Ağdam təmsilçisi Polşanın "Rakuv" komandasını qəbul edib. Sven Yablonskinin baş hakimlik etdiyi matçda oyunun 52-ci dəqiqəsində qonaqların heyətində Fran Tudor dəqiq zərbə ilə komandasını hesabda irəli çıxarıb – 0:1. Görüşün 60-cı dəqiqəsində ağdamlıların heyətində Elvin Cəfərquliyevin cərimə meydançasına ötürdüyü topu saxlamadan rəqib qapısına göndərən Redon Cica hesabda tarazlığı bərpa edib – 1:1. Qalan dəqiqələrdə qol vurulmadığından oyun 1:1 hesabı ilə yekunlaşıb.

Bununla da "Qarabağ" mərhələ adlaya bilməyib. Ağdam təmsilçisi Avropa Liqasının III təsnifat mərhələsində HİK (Finlandiya) / "Molde" (Norveç) cütünün məğlubu ilə üz-üzə gələcək.

Qeyd edək ki, "Qarabağ" I təsnifat mərhələsində Cəbəllütariq "Linkoln"unu hər iki görüşdə məğlub edərək (2:1, 4:0) mübarizədən kənarlaşdırıb.

## İdmançımız 1 qızıl, 2 gümüş medal qazanıb



**Rumıniyanın paytaxtı Buxarestdə yaşı 20 və 23-ə qədər olan gənclər arasında keçirilən ağır atletika üzrə Avropa birinciliyində təmsilçimiz Əli Şükürlü 1 qızıl, 1 gümüş medal qazanıb.**

İdmançımız yaşı 20-yə qədər olan atletlər arasında təkanla qaldırma hərəkətində 195 kiloqram çəkini ram edərək bu hərəkətdə Avropa çempionu olub. O, 109 kq çəki dərəcəsində birdən qaldırma hərəkətində 160 kiloqram çəkini qaldırıb və bu hərəkətdə gümüş medala sahib olub.

Toplam 355 kq (160+195) nəticə göstərən Əli yekun sıralamada 2-ci yeri tutub.

## Çimərlik voleybolunun güclüləri

**Çimərlik voleybolu üzrə Azərbaycan çempionatında final yarışları keçirilib.**



Qadınlar arasında keçirilən yarışda həlledici mərhələdə "Azərreyl" (Fidan Əhmədxanova-Larisa Smeltsova) çempion olub. Bürünc medala isə "Azərreyl-3" (Aytac Bayramlı–Ayşə Hüseynova) sahib çıxıb.

Kişilərin həlledici qarşılaşmasında "Neftçi-1" (Vüqar Bayramov–Ülvü Rəcəbli) qızıl medal qazanıb. "Azərreyl" (Elmin Alışanov–Asif Əliyev) isə çempionatda üçüncü yeri tutub.

*Leyla SABİRQIZI, "Xalq qəzeti"*

Texnologiya yenilikləri

## Süni intellekt orta ömrü 120 ilə çatdıra bilər



**Süni intellekt texnologiyaları sayəsində insan ömrünün yaxın gələcəkdə 120 ilə qədər uzanacağı gözlənilir.**

Malardalen Universitetinin tədqiqatçısı İqnat Kulkov İsveç Dövlət Televiziyası –SVT-yə verdiyi açıqlamada bildirib: "Biz 50 ildən sonra gözlənilən ömür uzunluğunun ən azı, inkişaf etmiş ölkələrdə 100-120 il arasında olacağını proqnozlaşdırmışıq".

Finlandiya, Fransa və İngiltərə universitetlərində işləyən həmkarları ilə birlikdə apardıqları araşdırmanın nəticələri haqqında "Futures" elmi jurnalına məlumat verən Kulkovun sözlərinə görə, texnologiyanın sürətli inkişafı sayəsində yaşlı nəslin 40 yaşındakı insan kimi sağlam olması gözlənilir.

"İnsanlar öz sağlamlıqlarına nəzarət etmək üçün geyilə bilən cihazlardan istifadə edəcəklər. Bu cihazlar həkimlər və xəstəxanalarla bağlantılı olacaq", – deyən Kulkov onların bəzilərinin insan orqanizminə də implantasiya ediləcəyini bildirib.

Alimin fikrincə, yeni texnologiya ömrün uzanmasına kömək edəcək.

*Səadət RZAYEVA, "Xalq qəzeti"*

## "Apple" Çindəki proqramlarını silib

**"Apple" şirkəti Çindəki online mağazasından süni intellektlə bağlı qanun qüvvəyə minəcəyi üçün "ChatGPT" və oxşar xidmətlər təklif edən yüzdən çox proqramı silib.**



Şirkət yanvar ayında Çin Sənaye və İnformasiya Texnologiyaları Nazirliyinə bildiriş göndərərək bu cür xidmətlərə icazə üçün lisenziya almağı təklif edib. Qarşılığında heç bir cavab almayan "Apple" isə "China Apple Store"dan proqramlarını silib. Onların arasında "ChatGPT", "Spark", "ChatGAi Plus" kimi məhşur proqramlar da var.

Avqustun 15-də qüvvəyə minməsi planlaşdırılan qanuna görə, şirkətlər ictimaiyyətə xidmət etməzdən əvvəl təhlükəsizlik qiymətləndirməsindən keçməlidirlər. Həmçinin Çin şirkətləri "Bard" və "ChatGPT"yə rəqib olacaq süni intellekt istehsal etmək üçün bütün gücləri ilə çalışırlar.

*Əfsanə ƏHƏDLİ, "Xalq qəzeti"*

Maraq dünyamız

## "Super Ay" zəlzələ və vulkandan xəbər verir

**Rusiyalı alim Mixail Kovalev zəlzələlərin və superayların statistikasının müqayisəli təhlilini aparıb. Nəticələr göstərib ki, zəlzələlər və vulkan püskürmələri tez-tez tam ay və ya yeni ay perigeylə (Yerə ən yaxın məsafədə) ilə üst-üstə düşəndə (bu zaman Super ay hadisəsi müşahidə edilir) baş verir. Onlar tam ay günündə mütləq baş vermir, lakin bir neçə gün əvvəl və ya gec ola bilər.**



Bu tədqiqatın nəticələri gələcəkdə Yer kürəsində çoxlu insanın ölümünün qarşısını alacaq kataklizmlərin proqnozlaşdırılması üsullarının işlənib hazırlanmasına kömək edəcək.

Super Ay zamanı Ay apogeydə (Yerdən ən uzaq məsafədə) olduğundan 14 faiz böyük, 30 faizə yaxın parlaq görünür.

Xatırladaq ki, Super Ayın əksi mikroay adlanır, baxmayaraq ki, əvvəlkindən fərqli olaraq bu termin o qədər də geniş istifadə olunmur.

## Maqnit şüası artıq fantastika deyil

**Avstraliya Milli Universitet laboratoriyasının fizikləri bu yaxınlarda əvvəllər yalnız "Ulduz müharibələri" kimi elmi-fantastik filmlərdə görünən əsl maqnit şüası hazırlayıblar.**



Bu, mikrohissəcikləri cəzb və dəf etməyə qadir olan ilk işıq şüasıdır. Mütəxəssislərin fikrincə, bu nadir texnologiya gələcəkdə atmosferi təmizləməyə kömək edə, insan həyatının digər sahələrində də faydalı ola bilər.

*Ə.PÜNHAN, "Xalq qəzeti"*

## "Google"un görən və düşünən robotları

**ABŞ-nin "Google" qlobal texnoloji firması cümə günü robotların müəyyən hərəkətləri yerinə yetirməsi üçün görmə funksiyasını yerinə yetirən və dilləri tərcümə edən yeni süni intellekt (AI) modelini təqdim edib.**

"Robotics Transformer 2" (RT-2) adlanan model internetdəki mətn və şəkillər üzərində öyrədilmiş görmə-dillər üzrə fəaliyyət modelidir. O, ümumi ideyaları və anlayışları öyrənə və sonra robotun davranışını məlumatlandırmaq üçün bu bilikləri ötürə bilir. RT-2, həmçinin mürəkkəb düşünməni həyata keçirməyə imkan verir və robotun hərəkətlərini idarə etmək üçün konsepsiyaları ötürməklə yanaşı, çıxış robot hərəkətlərini təmin edir.

"Çat-bot"lardan fərqli olaraq, RT-2, məsələn, alma toplamaq və ya zibil atmaq kimi vəzifələri yerinə yetirə bilən robot üçün siqnalları təmin etmək qabiliyyətinə malikdir. Başqa sözlə, RT-2 ilə robotlar bizim kimi daha çox öyrənə bilir, öyrənilmiş anlayışları yeni situasiyalara köçürürlər.



*Leyla HADİ, tələbə-jurnalist*

## "Euclid" teleskopu kosmik tarixi öyrənəcək

**Kainatdakı qaranlıq maddə və enerjini araşdırmaq məqsədi daşıyan "Euclid" kosmik teleskopundan ilk sınaq şəkilləri yayımlanıb.**



Teleskop 3D xəritəsi sayəsində qalaktikaların yerləşməsini və 6 milyard il əvvəl başladığı düşünülən Kainatın genişlənməsinin dəqiq ölçülərini göstərəcək.

Beləliklə, "Euclid"in qalaktikaların əmələ gəlməsi zamanı qaranlıq maddənin və qaranlıq enerjinin buraxdığı izləri aşkarlaya biləcəyinə ümid edilir. Teleskopun, təxminən, iki ay sonra elmi fəaliyyətə başlaması gözlənilir.

Qeyd edək ki, iyulun 1-də havaya qalxan teleskop Yerdən təxminən 1,5 milyon kilometr uzaqlıqdadır.

*Aytən NƏCƏFOVA, "Xalq qəzeti"*

Sağlamlıq

## Yemişlə bal yola getmir

**Yay fəslinin ən sevimli meyvələrindən olan yemişin çoxlu faydaları var. Mütəxəssislərin fikrincə, isti yay günlərində yemiş sərinlik və rahatlıq bəxş edir, göz xəstəliklərinin qarşısını alır, hamiləliyi asanlaşdırır, immun sistemini gücləndirir, ağciyər xəstəliklərinə səbəb olan zərərli hüceyrələrin sovrulmasını sürətləndirir, ürək-damar sistemi problemlərinə müsbət təsir edir.**



Amma el arasında deyirlər ki, yemişi balla eyni vaxtda yemək olmaz Bu fikirdə həqiqət varmı? Həkimlərin fikrincə, yemiş mədədə çətin həzm olan qida hesab edilir. Onu balla eyni vaxtda yeyəndə mədə-bağırsaq sistemi yüklənir, şəkər mübadiləsi pozulur, bir çox hallarda qəbizlik, halsızlıq, ürəkbulanma yaranır. Qəbizlik çox davam edərsə, daha ciddi nəticələr olur. Yemiş və bal ən azı dörd saat fərqi ilə qəbul edilməlidir, çünki həmin müddətdə mədədə həzm prosesi getmiş olur.

Yemişi səhər yeməyində qəbul etmək tövsiyə olunur. Mütəxəssislər bildirirlər ki, idmanla məşğul olanlar, artıq çəkidən əziyyət çəkənlər gündə 150 qramdan artıq yemiş yeməməlidir.

*Z.HÜSEYNLİ, "Xalq qəzeti"*

Proqnoz




Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin məlumatına əsasən **avqustun 3-də Bakıda və Abşeron yarımadasında** dəyişkən buludlu olacaq. Əsasən yağmursuz keçəcək. Lakin gecəyə doğru yarımadanın bəzi yerlərində qısamüddətli az yağış yağacağı ehtimalı var. Şimal-qərb küləyi əsəcək, arabir güclənəcək. Gecə 21-26°, gündüz 30-35° isti olacaq. Atmosfer təzyiqi 755 mm civə sütunu, nisbi rütubət gecə 60-70, gündüz 40-45 faiz olacaq.Abşeron çimərliklərində dəniz suyunun temperaturu:Şimal çimərliklərində: (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) 24-25°,Cənub çimərliklərində: (Türkan, Hövsan, Sahil, Şıx) 25-26° isti olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Lakin gündüz əsasən şimal və qərb rayonlarında arabir şimşək çaxacağı, yağış yağacağı gözlənilir. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Qərb küləyi əsəcək, gündüz ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 21-26°, gündüz 33-38°, dağlarda gecə 10-15°, gündüz 15-20° isti olacaq.

*Q. QASIMOV, "Xalq qəzeti"*

## Osminoq boğaza necə düşüb?



**Hadisə Sinqapurda olub. Həkimlər ürəkbulanması və qusmadan əziyyət çəkən pasiyentin boğazından bütöv osminoq çıxarıblar. Bu barədə "The Daily Mail" yazıb.**

Xəbərdə bildirilir ki, 55 yaşlı kişi içərisində osminoq olan dəniz məhsullarından ibarət yeməyi yeyərkən, udqunub və qusma başlayıb.

Anında həkimə müraciət edən kişinin rentgen çəkilişində mədəni udlaqdan ayıran hissədə osminoqun ilişib qaldığı aşkarlanıb.

Həkimlər onu öncə endoskopik yolla təzyiq edib mədəyə doğru yönəltmək istəyiblər. Bu cəhd alınmayanda, endoskopla onu çeviriblər. Nəhayət, molyuskun başından tutqacla yanaşıb onu geriyə dartaraq, yemək borusundan çıxarıblar.

Pasiyent prosedurdan dərhal sonra özünə gəlsə də, onu xəstəxanadan 2 gün sonra evə göndəriblər.

*Z.HÜSEYNOVA, "Xalq qəzeti"*

✓ 2010-cu ildə Ukraynanın Milli Mülki Müdafiə Universiteti tərəfindən Əzizov Əfqan Tapdıq oğlunun adına verilmiş DI-019415 nömrəli diploma əlavə edilmiş qiymət cədvəli itdiyi üçün etibarsız sayılır.

✓ 2013-cü ildə Ukraynanın Milli Mülki Müdafiə Universiteti tərəfindən Əliyev Yusif Baba oğlunun adına verilmiş DI-036198 nömrəli diploma əlavə edilmiş qiymət cədvəli itdiyi üçün etibarsız sayılır.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4877
SİFARİŞ 1940
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Məsaim ABDULLAYEV

Çapa imzalanmışdır
00:00